AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
ARXEOLOGİYA VƏ ETNOQRAFİYA İNSTİTUTU
FOLKLOR İNSTİTUTU

Teymur
BÜNYADOV

DEDİM Kİ, YADİGAR QALSIN

BAKI 2015

Redaktorlar: **Qəzənfər Paşayev**
filologiya elmləri doktoru, professor
Mahmud Allahmanlı
filologiya elmləri doktoru, professor

Teymur Bünyadov. ***Dedim ki, yadigar qalsın.***
Bakı, 2015. 208 səh.

Kitabda müəllifin zaman-zaman qəlbinə hakim kəsilən düşüncələri, deyimləri, kəlamları əksini tapıb. Onu narahat edən ürəyinə köçənləri, ürəyindən keçənləri qələmə alıb. Məqsədi, məramı insanlarda vətənə sevgi, xalqa məhəbbət, anaya ehtiram olub. Hamını halallığa, haqqa, ədalətə, təmizliyə, paklığa, doğruluğa, duruluğa səsləyib.

ISBN 5-86874-187-4
© Teymur Bünyadov,
Bakı 2015

Hikmətli, heyrətli...

El sözü,
Elin sözü, el sözü.
Müdriklər kəlamıdı,
Hikmətli söz, el sözü.

Ey təbiətin tacı, yer üzünün əşrəfi insan! Sazlı-sözlü, min bir avazlı xalqımız müdrik kəlamları ilə dünyada tanınır, sayılır, seçilir. Cahana bəxş etdiyimiz müdrik kəlamlarımız tariximiz qədər qədim, zəngin və şərəflidir. Onun yol yoldaşı, sirr-sirdaşıdır. Tariximiz zaman-zaman inkişaf etdikcə onlar yeni-yeni çalarlarla daha da cilalanıb, saflaşıb, durulaşıb. Təkrarsız, bənzərsiz, zəngin xəzinəyə çevrilib.

Müdrik kəlamlarımız müdriklərimizə məxsusdur. Xalqın içindən çıxan, xalqın dilində danışan, xalqlaşan müdriklərə. Dünyanı yola salan, zamanla qarşılaşan müdriklərə. Onlar min sınaq-dan çıxan, dəhşətlərə sinə gərən ulular, mərdlər, mübarizlərdi. Alilər, aqillər, adillər, söz sərrafları-dı, əfəndilər, xocalardı, ucadan ucalardı. Dühalar-

dı, dahilərdi. Babalar, nənələrdi, qəlbi təmiz, saf insanlardı. Hikmət söyləyənlərdi.

Dərin mənalı, bənzərsiz müdrik kəlamlarımız, hikmətli sözlərimiz, zərb-misallarımız, atalar sözlərimiz eyni məzmun, məna daşıyır. Hamısı bir torpaqdan su içən, kök atan, kök üstə köklənənlərdi.

Göylər qədər intəhasız, dəryalar qədər dərin, səhralar qədər ucsuz-bucaqsız olan hikmətli sözlərimizi yaradıb bizlərə ərmağan edən, könül əmanəti qoyan anonimlərdi. Adları tarixdə məlum olmayan, arzuları, əməlləri yaşayan anonimlər. Bəlkə də onların adları xalqdı, millətdi. Bəlkəsiz...

Adına xalq dediyimiz, xalqımız çağırdığımız heyrətli kəlamlar tükənməz xəzinəmiz, doğmamız, əzizimizdi. Döyünən ürəyimiz, görən gözümüzdü. Beşik nəğməmiz, ana laylamızdı. Təlim-tərbiyəmizdi, nəsihət verənimiz, həqiqətə, düzlüyə, doğruluğa, paklığa, saflığa səsləyənimizdi. Atalar sözlərimiz dünyanı yola salanlar, dünyagörmüşlər, dünya sınağından çıxmışlardı.

Başımızın tacı, dərdlər əlacımızdı. Təbibdi, loğmandı, məlhəmdi. Sülhsevərdi, əmin-amanlıq

şamını yandırandı. Qanı su ilə yuyan, qan-qadanı sovuşdurandı. Eli ellə görüşdürən, küsənləri barışdırandı. Ağlını azanı ağlına, yolunu azanı yoluna, dinini azanları dininə qaytaranlardı. O da var ki, yeri gələndə əbədiyaşar ibrətamiz kəlamlarımız güclünü gücdən salan, ordunu tərksilah edən, düşməni susdurandı...

Həyat öz axarı ilə davam edir, xalqımız qurur, yaradır. Mənəviyyatımız inkişaf edir, yeni-yeni çalarlarla zənginləşir. Zamanla ayaqlaşan, dövrlə səsləşən heyrətli, hikmətli sözlər ürəklərdə, dillərdə, ağızlarda gəzir, dolaşır. Nə yaxşı, nə gözəl!

Vətənin behişti sayılan Qazaxda dünyaya gəlmişəm, dünyalanmışam. Körpəliyim qollarda, qucaqlarda, çiyinlərdə gəzib, laylalarda, oxşamalarda xumarlanmışam. Eh, sən saydığını say, gör fələk nə sayır. Gəlin anam Fatma xanım heç yaşı otuza çatmamış dünyadan köçdü. Qəlbi qəmli, gözü nəmli yetimlik həyatını yaşadım. Anasız yaralarım qövr eylədi, göynətdi, ağlatdı, sızlatdı məni.

Eh, heç bir il keçmədi atam Əmiraslanı xalq düşməni adı ilə güllələdilər. Dərd üstə dərd calandı, talan könlüm talandı. Qara bəxtim qaralandı.

Daşa, qayaya çırpılıb, parça-parça, çiling-çiling oldu. Bu güllənin müdhiş səsi elə hey qulağımda səslənir, varlığımı dara çəkir, yandırır. Qorxu, hürkü içində yaşamışam. Gecə də, gündüz də düşünmüşəm ki, ya gəlib aparıb məni də güllələyər, ya da Sibir sürgünündə gedər-gəlməzə göndərərlər... Düz iyirmi il keçəndən sonra atamın günahsız yerə tutulub güllələndiyinə - bəraət aldığına görə rəsmi sənəd verildi. Hətta atama görə qan bahası vermək istədilər. Elə bil, atamı qarşımda yenidən güllələdilər. Hamını nifrətləndirdim, acı sözlərimlə zəhərlədim...

Eh, görün uzun illər nə qəm çəkmişəm, nə dəhşətlərlə qarşılaşmışam. “Xalq düşməninin oğludur” deyəndə başıma qaxanda elə bil qövr eyləyən yaralarıma duz basıb göyüm-göyüm göynədiblər. Yanmışam, yaxılmışam, varlığım titrəyib, ürəyim üşüyüb, sınmışam, sıxılmışam. Gecələr yorğanı başıma çəkib o ki var, hönkür-hönkür ağlamışam. Müdhiş yuxularda gah səhralarda ilim-ilim itmişəm, gah dağlarda yalçın qayalıqlara çırpılmışam, gah da dəryalarda qərq olmuşam.

Canımdan bezar olmuşam, az qala canıma qəsd edib, özümü öldürmək istəmişəm. Vəyhdən səslər gəlib, aydın eşidilən səslər: “Atanı güllələyənlər çoxdan güllələniblər. Sınma, sıxılma, səbirli ol, təmkinli ol, mübariz ol. Allah səni qoruyur, Tanrı başının üstündədi”. Mənim də uca Allahdan başqa kimim var ki?! Gecə də, gündüz də Tanrıma sitayişdə, səcdədəyəm. Bəxtimlə, taleyimlə barışmışam. İrəli baxmışam, inamıma sarılmışam. Nə bəlalar çəkməyib bu bəlalı başım mənim...

Əziz dostlar! Keçirdiyim o qanlı-qadalı illərimin dəhşətlərini, amansızlıqlarını zaman-zaman ürək ağrısı ilə, göz yaşlarımla hafizəmə, yaddaşıma köçürmüşəm, qəlbimdə yuvalandırmışam. Bir xeyli hissəsini də misralara düzmüşəm, səhifələmişəm. Yığmışam sirr sandığımdakı boğçama. Hamıdan gizli, eldən xəbərsiz. Sözümü, söhbətimi, məqsədimi, məramımı, ibrətamiz kəlamlarımı, nəsihətlərimi, vəsiyyətlərimi xalqıma çatdırmasam, itib-batsa, halım nə olardı? Özümlə o dünyaya aparsam, qəbrim od tutub yanmazdımı? Nə isə...

Gəncliyə qədəm qoyanda İkinci Dünya müharibəsi qapımızı döyüb. Başıpapaqlı qohum-əqrəbam

əsgər gedib. Ailəmizin ağırlığı mənim üzərimə düşüb. Hodağa getmişəm, məjgəl tutmuşam, yer şumlamışam, toxum səpmişəm. Taxıl da biçmişəm, xırman da döymüşəm. Bağ da becərmişəm, bostan da. Qoyun, quzu otarmışam, naxıra getmişəm. Əli qabarlı, alnı tərli. Nə gecəm olub, nə gündüzüm...

Eh, İkinci Dünya müharibəsi qurtardı, qəm-kədər qurtarmadı. Yenidən ah-nalə ərşə qalxdı. Dayım uşaqlarının, əmim oğlanlarının övladları sürüldü. Tomsk bəridə qaldı. Məktublar aldım, qəlbləri titrədən, varlığı sarsıdan məktublar. Zaman keçdi sürgündən qayıdanlar da oldu, ölüb sürgündə qalanlar da. Bu ahlar-amanlar qəlbimi göynədib, qələmimdən keçib. Hamısının ürəyimdə izi, közü qalıb.

Mənalı həyatımın çoxu Bakıyla bağlıdı. Bu şəhər mənim doğmamdı, əzizimdi, laylalı dənizimdi. Nə əldə etmişəmsə, hansı uğurlar qazanmışamsa, Bakıya borclu, Bakıya minnətdaram. Yuxusuz gecələrimin həmdəmi, şamı-şöləsi olub, fikirlərə düşüncələrə dalmışam. Bakı döyünən ürəyim, köməyim, arxam, pənahım olub. Uzun illər fasiləsiz olaraq elm məbədi olan Azərbaycan Elmlər Aka-

demiyasında çalışmışam. Bir sıra ali məktəblərdə dərs demişəm. Minlərlə tələbə, onlarla alimlər nəsli yetişdirmişəm. Hamısı da xalqdan yazanlar, xalqşünas olanlardı. İyirminci əsrdə Azərbaycanda xalqşünaslıq elminin banilərindən, inkişaf etdirənlərdən olmuşam. Bu şərəfi qazanmaq üçün xalqımın qəlbinə körpü salmışam.

Altmış ildən çox vətənimi qarış-qarış gəzmişəm. Xalqla söhbət etmiş, xalqdan öyrənmişəm. "Yolçu yolda gərək, heybəsi qolda gərək" - eşqilə uzun illər vətənimizi gah ayağımda çarıq, əlimdə əsa, gah Qarabağın uçar-qaçar atının belində, gah dəliqanlı Dilbozun qanadlarında eldən-elə, obadan-obaya varmışam. Dar cığırlardan, keçilməz keçidlərdən, sarp qayalardan, səngər qalalardan adlayıb dağlara üz tutmuşam. Gah olub ki, boranaqara düşmüşəm. Ürəyim üşüyüb, varlığım titrəyib. Bu dəhşət mənim taleyimə oxşardı. Demişəm, köks ötürmüşəm. Bəzən də başımın üstündə göy kişnəyib, buludlar ağlayıb, gürşad oynayıb. Göy gurlayıb, şimşək çaxıb. Hər yanı qızılı qılıncıyla yeri, göyü dilimləyib doğrayıb, bir azdan günəş zərrin şəfəqlərin yayıb. Göy qurşağı məni kəmən-

də salıb. Həyatımda göylər kimi dəhşətlərdə qalmışam. İçimdən bir kişnərti qopub. Dolmuşam, doluxsunmuşam. Ağlamışam o ki var. Göz yaşlarım muncuqlanıb, yanağımı yandırıb, sinəmə cığır salıb. Di gəl, belə qəmli-kədərli günlərdə qubarlanıb duyğulanma, fikir karvanın səhraları dolaşmasın. Deyimlərim ürəyimdə qanadlanıb, pərvazlanmasın. Gah da "bir yandan bağlayan fələk, bir yandan açar, ağlamla" düşüncəsiylə yaşamışam.

Başı bəyaz çalmalı Şah dağının ətəklərindəki yaylaqlarda binələrə qonaq olmuşam. Xınalıqda qara gözlü, qoşa zülflü, gül yanaqlı, allı-şallı gözəllər məni görcək hürküblər, görünməz olublar. Ağsaqqallar qarşılayıb, xoş gəldin deyiblər, ağbirçəklər süfrə açıblar. Onları sorğu-suala tutmuşam. Hikmətli sözlərini, təkrarsız kəlamlarını eşitmişəm. Dağ qartallarını xatırladan sərkər çobanın tütəyinin səsi ruhumu oxşayıb. Başında saçaqlı çoban papağı, çiynində qara rəngli yapıncısı məni görcək xəyallanıb. O, ürəyini boşaldıb, mən də qələmə almışam. Ayrılanda yağış başlayıb: "Narahat olma, yaz yağışıdı. Çoban aldadan, dovşan oynadandı,

keçər gedər” - deyib. Dağlarda belə görüşlər bir dəfəmi, yüz dəfəmi? Bu görüşlərdə gah dünyamı tapmışam, gah dünyamı itirmişəm...
Dəmir qapı Dərbənddə əsrlərin dilmancı, möhtəşəm, alınmaz səddini heyranlıqla seyr etmişəm.

Dar bəndim,
Dar keçidim, dar bəndim.
Ululların ulusu,
Dəmir qapım Dərbəndim.

Ellilərimlə şirin söhbət etmişəm. Seviniblər, sevinmişəm, ürəklərini boşaldıblar, arzuların, diləklərin deyiblər. Ömrüm-günüm doğma diyarımda keçib. Kimləri görməmişəm, kimlərlə söhbət etməmişəm?! Öyrənmişəm, heyrətlənmişəm. Lənkərandan o taya baxmışam. Yağışa düşmüşəm, göz yaşlarım həsrətli sinəmi yandırıb. Mildə, Muğanda ceyran, cüyürlərin səkib-süzməsinə tamaşa etmişəm. Buradakı elatlarla dərdləşmişəm, arzularımı bölüşmüşəm.

İkihörgüclü dəvənin belində qədim Qobustanın qayalarında silinməz, pozulmaz naxışlar, təsvirlər, rəsmlər aləminə düşmüşəm, heyrətlənmişəm. Minillikləri ötüb keçən tariximizin, mədəniyyətimizin sirlərini, sehirlərini öyrənmək istəmişəm. Dünyada tayı-bərabəri olmayan bu canlı muzeylə fəxr etmişəm, qürur duymuşam.

Başı göyün yeddi qatına dəyən Cəbrayıl çinarının qanadlarında çay içmiş, hamını söhbətə tutmuşam. Onlar ürək sözlərini deyib, mən də çinadanıma yığmışam. Dirili dağda aşıq Qurbaninin qəbrini ziyarət eləmişəm. Xüdafərində heyrətlənmişəm. Gecələr yuxumda o tayın camaatı ilə görüşmüşəm. Naxçıvanda Əshabi-Kəfdə ziyarətə gələnlərin qəlbinə yol tapmışam. Möminə xatın türbəsinin əzəmətini ziyarət eləmişəm. Barlı-bağatlı Ordubadda şirin dilləri dilə tutmuşam.

Qarabağda mahnılanmışam, şairlənmişəm. Başı dumanlı Şuşada hamıyla görüşmüşəm. Böyük Vaqifin, Mir Möhsün Nəvvabın qəbirləri önündə baş əymiş, diz çökmüşəm. Cıdır düzündə xarı bülbüllərin tərənələrini eşitmişəm.

Qədim Gəncədə dahi Nizami Gəncəvinin qəbrini ziyarət etmişəm. Pərvanələr tək başına dönüb, dolanmışam. Əsərlərini təkrar-təkrar oxumuşam, çox şeyləri əxz etmişəm. Cavad xanın hünərinə heyrətlənmiş, daha da qeyrətlənmişəm. Əməlilə fəxr etmiş, qürur duymuş, pərvazxəyal olmuşam. Başı göylərə ucalan çinarların kölgəsində gəncəlilər ürək sözlərini deyiblər, sevinmişəm, şadlanmışam.

Göygöldən Maralgölə qalxmışam. Arana baxmışam, dağa baxmışam. Bənzərsiz gözəlliklər könlümü oxşayıb, xəyalım pərvazlanıb. Dilbozun yalmanında dönmüşəm Qazağa sarı. Gəmiqayada qayalanmışam, Dəli Kürdə dəliləşmiş, hünərlənmişəm. Damcılı göz yaşlarım, Göyəzən əzəmət, vüqarım.

Göycə mahalında sazlı-sözlü insanlarla, sinədəftərlərlə görüşmüşəm. Qəlblərinə körpü salmışam. Onlar deyib, mən qələmə almışam. Söz sərrafları, aşıq sənətinin zirvələri Aşıq Alının, Aşıq Ələsgərin ruhlarını şad eləmişəm. Özüm də qürur duymuş, ilhamlanmış, qoşmuş, coşmuşam...

Hər eldə, obada dünyanın lal sükutuna qərq olan qəbiristanlıqlardan keçəndə ehtiram göstərmişəm, rəhmət oxumuşam. Bir gün gələn, bir gün köçər xatırlamışam. Ölüm haqdı, qaçılmazdı, alın yazısı, qıl körpüsündən keçməkdi hikmətini yaşamışam.

Millət vəkili adını şərəflə daşımışam. Milli Məclisdəki beş illik fəaliyyətim bir ayrı məktəb, bir ayrı sınaq olub. Nələr görməmişəm, nələr eşitməmişəm. Bütün bunlar mənə söz deməyə, deyimlər söyləməyə kömək olub. Bir sıra xarici ölkələrdə hökümət nümayəndə heyətinin tərkibində olmuşam. Dəfələrlə Beynəlxalq konqreslərdə, konfranslarda xalqımın adından çıxışlar etmişəm. Dünyanı görmüşəm, dünyalanmışam. Bu görüşlər, səyahətlər təsirsiz ötməyib, düşüncələrimə qolqanad verib. Daha haralarda olmamışam, kimlərlə görüşməmişəm... Onları qələmə alsam, bir kitab bağlamaq olar.

Oxuya başlayandan, dilim söz, əlim qələm tutan gündən bu günə qədər çoxsaylı, mənalı, məzmunlu, hikmət və heyrətlə dolu əsərlər oxumuşam. Biliklənmişəm, kamala yetmişəm, zənginləşmişəm. Çox ibrətamizliklər əxz etmişəm. Hamısı mənim

həyatımın mənası olub, yazılarıma şam-çıraq tutub. Bu tükənməz, həmişə inkişafda olan bilik xəzinəsindən məzmun duymuşam, məna çıxarmışam.

Deyimlərimə, düşüncələrimə, kəlamlarıma havadar olublar, qanadlandırıblar. Zaman-zaman ürəyimdə döyünüb, yazılarıma köçüblər.

Mən həm də çoxəsirlik abidələri öyrənən arxeoloqam. Xalqımızın tarixinin müxtəlif dövrlərinə aid xeyli əsərlər yazan tarixçiyəm. Xalq yaradıcılığına dair cild-cild bayatılarım işıq üzü görüb. Şairlənmişəm, şeirlənmişəm. Çox saylı hekayələr, roman və povestlər yazan yazıçıyam. Xalqımızın zəngin və çoxəsrlik musiqi tarixini ilk dəfə olaraq etnoqrafik baxımdan qələmə almışam. Eşidə-eşidə, dinləyə-dinləyə fikirlərim sıralanıb, qəlbimə köçüb.

Xalqşünas hərtərəfli biliyə, geniş erudisiyaya, güclü məntiqə, dərin müşahidə qabiliyyətinə, malik olmalıdır.

Bütün deyilənlərlə yanaşı, ürəyim xalqımla döyünür, xalqımla öyünür. Əgər belədirsə, onda ürəyimə köçənlərim, ürəyimdən keçənlərim, sözüm-söhbətim, fikirlərim, xəyallarım, deyimlərim,

seçmələrim, düşüncələrim, kəlamlarım niyə qəlb-lərə körpü salmasın, niyə?

Ömrümün qürub çağını yaşayıram. Dağdan enib zirvəyə həsrətlə boylanıram. Ahım da, amanım da, səksən beş yaşım da arxada qalıb, doxsana sarıyam. Hələ canım sağlam, yaddaşım, hafizəm yerində. Vətən eşqim, xalq məhəbbətim yetərincə sonsuz, tükənməz. Bütün bunlara görə tək olan, bir olan Tanrıma minnətdaram. Məni yaradan, yaşa-dan Tanrıma. Yaşa deyən, yarat deyən, yaz deyən, yoz deyən Tanrıma. Tanrım müdam yanımdadı. Ürəyimdə, gözümdə, könlümdədi, başımın üstün-dəki uca göylərimdədi. Həmişə ona səcdə qılır, inam, pənah aparıram...

Əzizlərim! Bu torpaqda dünyaya gəlmişəm. Bu xalqın oğluyam, xalqımla nəfəs alır, yaşayıram. Xalqşünas adını şərəflə daşıyıram. Mənim də ürək sözlərim, incə mətləblərim, könül əmanətlərim var. Bunlar illərcə yığıb-yığışdırdıqlarımdı. Vəyhdən gələnlər, İlahi göndərənlərdi. Yuxuma girənlər, yaddaşımda yuvalananlardı, ürəyimə kö-çənlərdi, ürəyimdən keçənlərdi. Duyğularım, dü-şüncələrim, seçmələrim, deyimlərim, kəlamlarım-

dı. Heç olmasa, onların bir xeylisi qəlbinizə yol tapsa, həyatınıza şam-çıraq tutsa sevinər, xoşhal olaram. Necə deyərlər, ondan sonra nə dərdim, nə mələlım. Onlar necə yaranıb, niyə yaranıb, diqqət yetirin, hamısını sizlərə yerli-yataqlı ərz eyləyim...
Zaman keçər, dövran dəyişər. Mənim könül əmanətimin bəziləri xalqın dilində səsləşər, xalq-laşar. Onda qəbrim rahat, ruhum şad olar. İnşal-lah!...

ANAMIZDI, VƏTƏNDİ

Alınmaz qala əzəmət, vüqar timsalıdı.
Ana vətəndi, ata arxadı.
Ana candı, vətən vicdan.
Ana da birdi, diyar da bir.
Ana dilini unudan, anasını da unudar.
Ana dərdi vətən dərdi qədərdi.
Ana həsrəti vətən həsrəti kimidi.
Ana sevgisi vətən sevgisidi.
Ana vətəndi, vətən də ana.
Ana vətən min bir dərdin dərmanıdı.
Anasız qalanın anası vətəndi.
Ana köçər, vətən köçməz.
Anam harda, dünyam orda.
Anasını itirən, dünyasını itirər.
Analarımız atlanıblar vətən darda qalanda.
Anasından küsən vətənindən küsən kimidi.
Anasız yurd da viran qalar, yuva da.
Anasızlıq vətənsizlik kimidi.
Anaya and içmək, vətənə and içməkdi.
Anaya qovuşmaq vətənə qovuşmaqdı.
Ata ocağını satan, vətənini də satar.

Ata oğula görə tanınanda xoşbəxt olur.
Ata ocağını söndürən ocaqsız qalar.
Ata vətəni qoruyar, ana vətənə oğul verər.
Ayağı torpaqda olanın qolu da güclü olar, təpəri də.
Baba ocağını babadan törəyənlər qoruyar.
Başsız vətənin də, xalqın da halına vay.
Betərdi diyar, bir də yar ayrılığı.
Bir ürək ki, vətən üçün döyünmür, sussa yaxşıdı.
Bir ürək ki, vətənilə öyünmür, köçsə yaxşıdı.
Bir evin ağsaqqalı bir elin ağsaqqalıdı.
Bir can bir vətənə qurbandı.
Bir yara, bir də elə bağlan.
Biz vətənə qurbanıq, qanımızla, canımızla.
Can verərik, torpağı vermərik.
Can vətən! Özümdə, sözümdə, bir də qaynar gözümdəsən.
Canımda can, qanımda qan vətənim.
Çinar vətəndi, budağı bülbül yuvası.
Dağdan baxanda vətən gözəlliyi daha aydın görünür.
Dar gündə də, gen gündə də eli çağır.

Dar gündə el harayı, arxa harayı çağır.
Darda qalanda yurda sığın, elə arxalan.
Darvazasız ev qalasız şəhər kimidi.
Dərya kamallılar vətəncanlı olurlar.
Doğmalardan doğma, əzizlərdən əzizdi vətən.
Dost itirmək yamandı, el itirmək dəhşət.
Dövləti mənən zənginlər yaşadır.
Dünyanın dərdin çəkmə, vətənin dərdini çək.
Dünyaya göz açdığın torpağı gözünə təp, bağrına bas.
El adamını el sevər.
El atan daş uzağa düşər.
El basılar, çörək basılmaz.
El basılınca, igid ölsə yaxşıdı.
El yarasını ağlarlar, qurd yarasını dağlarlar.
El dərdini elin oğlu çəkər.
El qızları at belində, el anası igidlər çiynində.
Elə yanana el yanar.
El isməti el qeyrətinin tacıdı.
El qədrini el bilər.
El üçün kor olan elə nur saçar.
El gözündə ucalan dünya tamaşası olar.
El içində - ol içində, öl içində.

El köçər, yurd qalar.
El çəkəni fil çəkməz.
El elə səmt olar.
El oğlu, elin gözləyir səni, elə dön, elə qayıt.
El verər yaxşıya-yamana qiymət.
El qaçağı, qaçaq eli saxlar.
Elat arana köçəndə, dağlar ağlar qalar.
Elat yaylaqda olanda dağlar daha vüqarlı görünür.
Elatsız dağlar ağlağan olar.
Elbir olan dilbir olar, dinbir olar.
Elə arxa durana el arxa durar.
Eldə-obada əhdi-peyman sahibləri əziz tutular.
Eldən köklənən elə bağlı olar.
Elə qul olan elin ağası kimidi.
Elə həsrət el boyda dərddi.
Elə məhəbbət bitməz-tükənməzdi.
Elə həsrət dəhşət, yara həsrət müşkül.
Elə arxalan, elə arxa dur.
Eli qeyrətiylə, ismətiylə tanıyarlar.
Elin dar günündə hamı elbir olar, dilbir olar, əlbir olar.
Elin gözəli-dillər əzbəri.

Elin adəti ulular mirasıdı, qoruyun, yaşadın!
Elin ağsaqqalı yoxdursa millətin də ağsaqqalı yoxdu.
Elin qınağı ən böyük qınaqdı.
Eli-obanı kişilərnən tanıyarlar.
Elini uca tutanın başı uca olar.
Elin malına göz dikən gözdən olar.
Elin gözündən düşən gözü qıpıq olar.
Eli evdən irəli bilərlər.
Eli olmayanın nə günü, nə dili.
Elin sərvəti elin olar.
Elin qədrini elsevər bilər.
Elini insan ürəyinə salar, ürəyində saxlar.
Eldən küsən elsiz qalar.
Elə qan salanı bağışlamazlar.
Elə qalmaqal bədəsildən, müxənnətdən düşər.
Elə havadar olan, yara vəfadar olar.
Elə arxalan, elə arxa dur.
Elnən ol, ellə yaşa.
Elsiz də, yarsız da yaşamaq da dəhşətdi.
Elsizin nə günü, nə güzəranı.
Elsizləri elə, dinsizləri dinə səslə.
Elsevərlik insanpərvərliyin tacıdı.

Elnən olsan el sənindədir.
Elə bağlı, evə bağlı olar.
Ev tik, ev yıxma, başına uçar.
Ev ağsaqqalı hörmətə layiqdi, el ağsaqqalı şərəfə.
Ev tikəni el sevər, ev yıxanı el yıxar.
Eldən ayrı olan evdən də ayrı olar.
Evə şərəf elə də şərəfdi.
Evi kişisiylə, qızı anasıyla.
Evi olmayanın eli də olmaz.
Evin qəmini elin qəmi bilərlər.
Evin sirri evdə, elin sirri eldə.
İnsan, nə yardan keç, nə vətəndən.
Ədalətli olan ədalətli yaşayar.
Əfsanəsiz qala çəpərsiz bağa bənzər.
Ən gözəl xalça: namazlıqdı, cehizlikdi, doğumluqdu, ölümlükdü.
Ən ülvi məhəbbət vətən məhəbbətidi.
Ən böyük dərd el töhmətidi.
Ən böyük sevgi vətənədi, anayadı. Yarı da unutmayaq gərək.
Əvvəl el üçün, sonra ev üçün.
Gəlhagəldi, köçhaköçdü bu dünya.

Gəncənin yazı, Təbrizin qışı.
Gəz vətəni doyunca, sev vətəni ölüncə.
Gözdə, könüldə ülviləşər vətən.
Gözəl ailənin anasına da qurban, balasına da.
Gözəl övlad ömrə, günə yaraşıqdı.
Gözü yolda, intizarda olan Qarabağ bizləri gözlər. “Hardasız, gəlin”, - deyər.
Gözlərimdə vətən cahandan böyük görünür.
Halal zəhmətlə ev tikənə el kömək olar.
Halı yaman ahdı, amandı qürbət.
Hər yerin öz adamı var, hər adamın da öz yeri.
Həsrəti həsrət öldürər, qəribi qəriblik.
Həyat məhəbbət olan yerdədi.
Xalq üçün yaşayanları xalq yaşadar.
Xalq verər yaxşıya, yamana qiymət.
Xalqı tələş edən talan olar.
Xalqa ürəkdən yanan ürəkli olar.
Xalqa əzab verən əzaba düşər.
Xalqa üz çevirənin üzü geri yanına dönər.
Xalqa ağıl dəryalı, kamal dünyalı oğul gərəkdi.
Xalqa düşmən kəsiləni xalq cəzalandırar.
Xalqa dağ çəkənin gözü dağlanar.
Xalqa qara gün verən qaragünə qalar.

Xalqa əqidəli insan gərəkdi.
Xalqa arxalanan qalib gələr.
Xalqa yük olma, xalqın yükünü daşı.
Xalqa xidmət Allaha ibadət kimidi.
Xalqdan güc alan xalqı ucaldar.
Xalqı sevəni Allah da sevər.
Xalqı sevəni xalq sevər.
Xalqın içindən çıxan xalqa xidmət etməlidi.
Xalqına xor baxan dünya işığına həsrət qalar.
Xalqına şam-çıraq tutanın çırağı gur yanar.
Xalqını sevən xalqşünas, vətəni sevən vətən-şünasdı.
Xalqını sevən xalqın əzizi, doğmasıdı.
Xalqını dünyaya tanıtdıran ürəyi dünya boyda olandı.
Xalqın malını yeyənin ömrü gödək olar.
Xalqın malı xalqındı.
Xalqı xalqşünasdan öyrən.
Xalqının tarixini bilməyəndən nə xalqsevər?
Xalqı sevən Allahı sevər.
Xalqla ol, xalq sənlədi.
Xalqın malını nə ye, nə yedizdir.
Xalqın malına göz dikən gözdən olar.

Xalqın məhəbbəti də güclüdü, nifrəti də.
Xalqın böyüklüyü sayla yox, dühaları ilə ölçülər.
Xalqı yuxuya qoyma, ayağa qaldır.
Xalq üçün yaşayanlar, xalqı yaşadarlar.
Xarabalıqda ev tikmə, bayquş yuvasıdı.
Xaraba bayquşu ulayanda, ürək ürpəşər.
Xarabalıqda nə bağ, nə bostan.
Xilaskar xalqın döyünən ürəyi, görən gözüdü.
Xoşbəxt o şəxsdir ki, el yarasına məlhəmdi.
İnsanda yaxşı, yaman nə varsa nəsildən, kökdən gəlir.
İnsan var evə başçılıq edər, insan var elə.
İnsanın ömrünü gödəldənin ömrü gödək olar.
İnsanda gözəl nə varsa torpağındı, xalqındı.
İgidin arxası xalq, arzusu vətən sevgisi olar.
Kasıbın vətən sevgisi daha güclü olar.
Keçmişi olmayan xalqın nə gələcəyi.
Kəkil palıd əyilsə, el qapısı döyülsə, fəlakət qopar.
Kiçik xalqın dərdi böyük olar.
Kök üstə köklənən vətəncanlı olar.
Kökə köklənən köklü olar.

Kökümüz də bu torpaqdı, gücümüz də bu torpaq.
Kökü olmayanın nə qolu, nə budağı.
Qaçaq eli, el qaçağı qoruyar.
Qalanı igid, igidi qala qoruyar.
Qalasız şəhər, darvazasız ev olmaz.Qalasız şəhər viran qalar.
Qanla alınan torpağı qanla qaytararlar.
Qan tökülən torpağın gülü qan qırmızı olar.
Qanlı dərə qan ağlar.
Qara torpağın üzü ağ olar.
Qarşısı alınmaz sel elə fəlakət gətirər.
Qazağa sevgi anama sevgi qədərdi.
Qazağın ağıllısı da şairdi, dəlisi də.
Qərib vətənə dönüncə, yenidən dünyaya gəlmiş kimi olar.
Qəribin dərdi vətənə yetənəcəndi.
Qəribin qəbri də qəribdi.
Qonaq-qaralı ev işıqlı olar.
Qonşuluq münasibətini aradakı cığır bildirər.
Qoruqçu kəndi, igid vətəni qoruyar.
Quruluş dəyişər, xalq dəyişməz.
Qürbət can sıxar, ömür üzər.

Qürbətdə qərib vətən üçün ağlar qalar.
Qürbətdə vətən sevgisi yerlər-göylər qədərdi.
Qürbətdə qalanın vətən özündə, sözündə, gözündə olar.
Qururumuz, uğurumuzdu, Vətən!
Milləti sevəni millət gözünün üstə saxlar.
Milləti sevmək üçün millətçi olmalısan.
Nə yurd boş qalsın, nə yuva.
Nəfsi toxun ürəyi sağlam olar.
Nəfsi toxlar hamının gözünə dik baxar.
Nə evi gözdən qoy, nə eli.
Nə eldən ayrı qal, nə yardan.
Ocağı söndürənin ocağı sönər.
Ocağı qoruyan da ocaqdı.
Ocaqdan od aparanın ocağı gur yanar.
Ocaq oddan, igid ocaqdan.
Od sönəndə, ocaq da sönər.
Odu olanın, ocağı da olar.
Oğul verərlər, torpaq verməzlər.
Ordu varsa, vətən də var.
Ordusu güclü olanın dövləti də güclü olar.
Ovu bərəsində, işi vədəsində.
Ölməzlər vətənə qurban gedənlərdi.

Ömürdən, gündən keç, vətəndən keçmə.
Öz ağacımız özümüzə əyri gəlir.
Özgələşmək el töhməti gətirər.
Papağını qoruyan vətənini qoruyar.
Papağını itirən namusunu itirər.
Sahibsiz evdən işıq gəlməz.
Sahibsiz ol, vətənsiz olma.
Sahibsiz evin qapısı bağlı qalar.
Şirin candan şirindi vətən.
Şəhidlik ucalığı vətənə qurban gedənlərdi.
Tanrım başımın üstə, vətən ürəyimin başında.
Tanrı bizi qoruyur ki, biz vətəni qoruyaq.
Tayfa adı ilə, igid odu ilə.
Tənhalıq dəhşətdi, vətənsizlik ölüm.
Tərbiyəni, mərifəti eldən alarlar.
Torpaq barı ilə, el ilqarı ilə tanınar.
Torpaq güclü olanda bəhrəsi bol olar.
Torpaq həyatdı - su kimi, hava kimi.
Torpaq da vətəndi, analaşan torpaq, torpaqlaşan vətən.
Torpaqdan pay verən torpaqsız qalar.
Torpaq əzəni torpaq bəzər.
Torpaq varsa, qan-qada da var.

Torpaq güclü olanda sahibi də güclü olar.
Torpaq itirəni torpaq götürməz.
Torpağa ağa yox, qul ol.
Torpağa əyilən dik gəzər.
Torpağı qoyub qaçanın nə ölüsünü, nə dirisini torpağa qoymayın.
Torpaq əkənin, qeyrət çəkənin.
Torpağa tər tökənə torpaq tər tökər.
Torpağa can verən torpaqdan güc alar.
Torpağı əkərlər, atı minərlər.
Torpağı qoruyan da kasıb, yolunda şəhid olan da kasıb.
Torpağı gözləyərlər torpaq olunca.
Torpağını itirən varlığını itirər.
Torpağını qoruyan vətənini qoruyar.
Uludan ulu, ucadan ucadır ana məhəbbəti, vətən sevgisi.
Ürəyimin hünəri, dilimin əzbəri vətəndi.
Üzü dönük qürbətdə göz də ağlar, könül də.
Vətən dərdi, ana dərdi dözülməz.
Vətən dilimin əzbəri, ürəyimin təpəridir.
Vətən eşqi candan, qandan gəlməlidi.
Vətən şandı-şərəfdi.

Vətən sevgisi dünyalarcadı.
Vətən uğrunda vuruşan namusu uğrunda vuruşar.
Vətən uğrunda ölən ölməzliyə yüksələr.
Vətən üçün döyünməyən ürək nəyimə gərək?!
Vətən satqını qurda-quşa qismət olar.
Vətən gözəlliyinin seyrinə dal, xəyallan.
Vətən həsrəti qurğuşun yükündən ağırdı, əzabdı.
Vətən oğulları, vətən yolunda.
Vətən üçün döyünməyən ürək sussa yaxşıdı.
Vətən həsrəti yar həsrətindən betərdi.
Vətən xaini nə bu dünyalıq, nə o dünyalıqdı.
Vətən qeyrətini qeyrətlilər, ana ismətini ismətlilər uca tutar.
Vətən uzaqdan daha cazibəli görünər.Vətən ürəyimdə, gözümdə, könlümdədir.
Vətən yolunda öldü var, döndü yoxdu.
Vətən üçün yan ki, yansınlar.
Vətən xainini parçala baltalı da, baltasız da.
Vətəncanlıya can da vətəndi, cahan da vətən.
Vətənə məhəbbət dünyaya gələndən, dünyadan köçənə qədərdi.

Vətənə qurban gedənə vətən qurban olar.
Vətənə qurban gedən şəhidlik zirvəsindədi.
Vətənə, anaya borc sonsuzdu.
Vətənə sevgi bitməz-tükənməzdi.
Vətəndə vətənsizlik dəhşətdi.
Vətəni qoru vətəndə ölüncə.
Vətəni unutmayanı vətən unutmaz.
Vətəni bağrına bas, ürəyindən as.
Vətəni cahana dəyişməzlər.
Vətəni sevən sevincək olar.
Vətəni cənnətə dəyişməzlər.
Vətəni qorumayan vətənpərvər ola bilməz.
Vətəni can bil, canı vətən.
Vətəni qoruyanı Allah qoruyar.
Vətəni sevənin odu-atəşi sönməz.
Vətəni qanla, canla qoruyarlar.
Vətənin qeyrətini qeyrətlilər çəkər.
Vətənin başının tacı qeyrətdi.
Vətənin qorunmasını əli-ayağı yalına tapşırma.
Vətənin qeyrətini qeyrətlilər çəkər.
Vətənin qədrini vətənpərvərlər bilər.
Vətəninə sahib çıxmayan vətənsiz qalar.
Vətənini danan anasını da danar.

Vətənini itirən nə ölüdü, nə diri.
Vətənini itirən dünyasını itirər.
Vətənimdən nə gözüm, nə könlüm doydu.
Vətəni elliklə, hamılıqla qoruyarlar.
Vətəninə güllə atanı güllələyərlər.
Vətəninə kəm baxan iki gözdən olar.
Vətənimizin hər bir daşı, qayası da tarixdi.
Vətənimin kolunu dünyanın meşələrinə dəyiş-mərəm.
Vətənsizin nə günü, nə güzəranı.
Vətəndi demə, "vətənimdi" de, "mənimdi" de.
Vətənə qurban demə, qurban get.
Vətənə göz dikənin gözünü dağla.
Vətənə məhəbbət anaya məhəbbətdən doğar.
Vətənlə olan, vətəndə ölər.
Vətənpərvərlər vətənə ürəkdən yananlardı.
Vətənpərvər olmaq üçün vətəni qoru.
Vətənsevərlik ana südü, ana laylasından başlar.
Yaxşıların yaxşısıdı yaxşılıq.
Yar ayrı, diyar ayrı.
Yas da elin, toy da elin.
Yaşamaq gözəldi qədrini bilənə.
Yetəndə yara yalvar, öləndə vətənə.

Yetimi el, bir də şirin dil saxlar.
Yolunda can verməsən, nə ana var, nə vətən.
Yönü bizə baxan dağlar bizimdi.
Yurdu qoyub gedənlə olma, yurdda qalanla ol.
Yurdsuz qalmaq, anasız qalmaq kimidi.
Yurd oğlu yurda quldu.
Yurdunu unudan anasını da unudar, balasını da.
Yuva uçuranın yuvası uçar.
Zorla alınan torpağı zorla qaytararlar.

AİLƏ HARDA, HƏYAT ORDA

Adət-ənənəni unudan, anasını da unudar.
Ağayanalıq kişinin yaraşığıdı.
Ağacın kökünü kəsən öz kökünü kəsər.
Ağıllı oğul ataya dostdu, qardaşdı.
Ağılsız adam hədyan danışar.
Ailəsiz həyat heçdi, puçdu.
Ailəsi möhkəm olan alınmaz qaladı, basılmaz eldi.
Ailə qurdun, dövlət qurdun.
Ailə qurmaq asan, şərəfini qorumaq çətin.
Ailə göz aydınlığı, baş ucalığı, könül xoşluğudu.
Ailəni yaman günə qoyan, yaman günə qalar.
Ailənin taleyi kişiylə qadının münasibətindən asılıdır.
Ailəyə xəyanət vətənə xəyanətdi.
Ailəni selə verən, elini də selə verər.
Ailədə dedi-qodu ömür çürüdər.
Ailəsini sevən Allahını sevər.
Ailəsini sevən anasını da sevər, vətəni də.
Ailəsinə can yandıran sağlam olar.

Ailəsini qoruyan qalasını qoruyar.
Ailənin dağılması dövlətin dağılması kimidi.
Ailənin qurulması dövlətin qurulmasına bənzər.
Ailənin xoşbəxtliyi qadınla kişinin münasibətindən asılıdı.
Aləm qadınla saflaşar, durulaşar.
Ana oğul çiynində getsə, cənnətlik olar.
Ana laylası ana dünyasıdı.
Ana da müqəddəsdi, ailə də müqəddəs.
Ana dilini bilməyən ana laylasını da bilməz.
Ana səni dünyaya gətirib, indi sən ona dünyanı göstər.
Ana südü əmməyən anasının, ata öyüdü görməyən atasının qədrini bilməz.
Ana da candan əziz, bala da candan əziz.
Ana da birdi, vətən də bir.
Ana dünyadı, balası dünya qədər.
Anasına baxan balasına da baxar.
Analığın yaxşısı da ələ düşməz, yamanı da.
Ananı əzizləyən behiştlikdi.
Ana itirən balanın dərdi sağalmaz.

Ananı balasından ayıran cəhənnəm odunda yanar.
Anaya həsrət vətənə həsrətdi.
Anaya məhəbbət vətənə məhəbbətdi.
Anasına qayıdanı Tanrı lənətlər.
Anasını itirən quzu ağciyər olar.
Anasız qalanın ana, balasız qalanın bala dərdi dözülməz.
Ana harda, vətən orda.
Ana da bir dünyadı övlad gözündə.
Ana torpaqlaşanda, analaşar torpaq.
Ana ürəkdi, yar gərəkdi.
Ana, ana, qurban sana, nəvənə layla çalsana.
Anasız yetimin günü ah-vayla keçər.
Anasız uşağa dünya da yetim kimidi.
Anadan üz döndərənin üzü geri yanına dönər.
Analar səbrli ümman olurlar.
Anam harda, dünyam orda.
Ananı anasızlar daha çox yad edər.
Ananın nə çəkdiyini analar bilər.
Anasız quzu mələr qalar.
Anasını itirən körpə quzu kimi mələr.

Anaya əl qaldıranın əli, dil qaldıranın dili quruyar.
Anaya ağ olanın ömrü ah -vayda keçər.
Ana haqqı Tanrı haqqıdı.
Ana qəbrinə baş əy, diz çök, göz yaşı tök.
Ana gəlinini saymasa, oğulun başı tez ağarar.
Anasına qayıdan yolunu azar.
Ana südü ilə, ata çörəyi ilə tanınar.
Anadan doymaq, yurdu gözdən qoymaq olmaz.
Analığı anadan öyrənərlər.
Ananın sözündən, çeşmənin gözündən öp.
Ana ceyranı ovlamazlar.
Arvaddan yarımayan, övladdan çətin yarıyar.
Arvadını itirən kişi yetimdən də betərdi.
Arvadağızdan nə kişi?
Arvad tikən evi fələk də yıxa bilməz.
Arvad yıxan ev çətin qurular.
Atalı-analı ürəkli olar.
Ataya ata demək asan, oğul olmaq çətin.
At balasını, qız anasını sevər.
At da qadın kimidi, tumar sevər.
Ata oğula, oğul ataya fərəhdi.
Atalı dünya atasız qalanda vay olar.

Ata öyüdü görməyən atasının qədrini bilməz.
Atanın qədrini atasız qalanda bilərsən.
Ata oğula, oğul ataya layiq olanda dünya təzə-lənər.
Ataya layiq olmaq borcdu, üstün olmaq şərəf.
Ata oğula təpər, oğul ataya sipər.
Atası evinə qaçan qızdan gəlin olmaz.
Atasız qızın qəlbi sınıq, anasızın gözü nəmli.
Ata güllə atan, atasını güllələsə yaxşıdı.
Atasız qızın qəlbi sınğın, gözü yaşlı olar.
Atla arvadın nə şəriki, nə ortağı.
At atdan, oğul arvaddan.
Atı tumarla, qadını sığalla.
Atının tərkinə almayanı itinin də tərkinə alma.
Bağa qayğı, balaya qayğı kimidi.
Bala gülbağça kimidi, biri bal dadır, biri ətir saçır.
Bala şirindi, nəvə şipşirin.
Balasını itirən dünyasını itirər.
Balasını itirən nə yatar, nə dincələr.
Bala baldan şirindi, ana da yardan.
Balaya ana canını verər.
Balanı gözün üstə saxla, gözüm-çıxdıya salma.

Barlı ağac uşaqlı qadın kimidi.
Başsız ailə çöllü-biyaban kimidi.
Bəd övlad ömrü baltalar.
Bəd övlad canı boğaza yığar, günü qara edər.
Bəxtəvər ailəsi olanın eli də bəxtəvərdi.
Bəyzadəlik bəylərdən gələr.
Beşik laylası ana südü qədər şirindi.
Bir dünyadı ana laylası, beşik nəğməsi.
Bir canan bir cahandı qədrini bilənə.
Bir sağlam can, bir gözəl yar arzula.
Böyük bacı ana, böyük qardaş ata əvəzidi.
Böyüyü-kiçiyi bilinməyən ailə tez dağılar.
Can da şirindi, canan da şirin.
Can qurbandı vəfalı yar vəfasına.
Can da balama qurban, cahan da.
Can bala candan əziz.
Canı təmizin evi də təmiz, eşiyi də.
Canı yanan anadır, can alan yar.
Canı canana ver ömrün uzansın.
Çörəkli evin çörəyi bol, üzü ağ olar.
Dədəli ev şən olar.
Dəli eşqin nə gecəsi, nə gündüzü.
Dərdini yara de, yarla bölüş.

Dünya kök üstə qurulub, kökünü unutma.
Eldə gözəl qız gözdə olar.
Elin oğlu elə arxa durar.
Ev ailənin qalasıdı, hasarı qala divarı.
Ev alınmaz qaladı, keçilməz səddi. Müqəddəs ocaqdı, pirdi.
Ev elə-obaya yaraşıqdı, gur işıqdı. Düşmənə göz dağı, niskindi.
Ev könül xoşluğu, gözaydınlığıdı.
Ev olan yerdə həyat var, yaşayış var.
Etibarla, düz ilqarla yaşayanlar uzunömürlü olur.
Ev sağlamlıqdı, rahatlıqdı, dinclikdi.
Ev sevgidi, sevincdi.
Ev tikənin Allah üstündə olar.
Evə bağlı elə də bağlı olar.
Evi uca olanın, başı da uca olar.
Evi olmayan yuvasız quş kimidi.
Evi olmayan vətəndə vətənsiz kimidi. Nə günü, nə güzəranı.
Evin sahibi evin görkəmindən bəlli olar.
Evin anası da, sonası da qadındı.
Evin kişisi, elin də kişisidi.

Evin bin-bərəkəti qadından asılıdır.
Evlənməkdə nə tələs, nə gecik. Vaxtında, vədəsində.
Ər ailənin başının tacı, qadın dərdlər əlacı.
Ər yarıynan, ağac barıynan gözəldi.
Ərlə qadın ailənin qoşa qanadıdı. Döyünən ürəyi, görən gözüdü.
Əryanlıq da bir şahlıq, sultanlıqdı.
Əsil-əslə, nəsil-nəslə, kök-kökə çəkər.
Əsil olan əsir olmaz.
Əsildən qız alanın bəxti üzünə gülər.
Əsil övlad ömrə-günə yaraşıqdı.
Əsil övlad ailənin xoşbəxtliyidi.
Ən gözəl gözəllik qadın gözəlliyidi.
Gəlin qaynananı ana bilsə, ailə xoşbəxt olar.
Gəlin qaynanasına baxar, gəlin olar.
Göl yaşılbaşsız, qız qardaşsız olmasın.
Göz gördüyünü, ürək sevdiyini istər.
Gözləri göyçək yarın xalı da gözəldi.
Göz oynadana meyl salmazlar.
Gül bağçada bülbül ağlar, gül gülər.
Halal süd əmənin, balası da halal olar.
Heç kəs yiyəsiz, kimsiz-kimcəsiz olmasın.

Xallı gözəl, xallı marala bənzər.
Xanım xatınlıq, kubarlıq əsil-nəsildən gəlir.
İkiarvadlı it urvatlı olar.
İncə məxluqun sevgi dünyası kövrək olar.
İsmətli qadın elin də ismətidi.
İsmət qadın ucalığıdı.
İsmətlini el-el əli çıraqlı axtar.
İstək qarşılıqlı olanda yaşamağa nə var ki?!
Kərəmin Əslisi var, bülbülün də gülü.
Kimi oğlu, kimi atasıyla tanınar.
Kişi qeyrəti ilə, qadın isməti ilə gözəldir.
Kişi ağlamaz, içində ah çəkər.
Kişi özü bütöv, sözü bütöv olar.
Kişi bir dəfə sevər, bir dəfə ölər.
Kişi evin qulu, çölün ağası.
Kişi evin işığı, qadın pərvanəsi.
Kişi ölər, kişilik qalar.
Kişi gözü, qadın qulağı ilə sevər.
Kişi kişiliyi ilə varlı olar.
Kişi evin dirəyi, qadın döyünən ürəyi.
Kişinin qapısına kişi gələr.
Kişinin atının yalı kəsilsə dəhşət olar, qan su yerinə axar.

Kişinin deyingənindənsə, qadının deyingəninə şükür elə.
Kişinin gününü qara edən arvadın da günü qaradı.
Kişinin kürəyi tərli, əli qabarlı olar.
Kişinin sözü qanundu. Sənədsiz, möhürsüz.
Kişinin qadını, kişiyə layiq olar.
Kişilər getdi, kişilik bitdi.
Kişinin əli qabarlı, ürəyi təpərli olar.
Kişinin oğlu da kişi olar.
Kişinin bir ailəsi olar, nakişinin ha çox.
Kişiliyi kişilər arasında axtar.
Kişisi olmayan ailə müşkülə düşər.
Kişinin papağı gedincə, özü getsə yaxşıdı.
Kökə bağlı kök salar.
Kövrəklik analardan, mərdlik babalardan, sərtlik qayalardan yadigardı.
Könülsüz evlənmək könül sındırar.
Közərən ailə ocağında ismət xeyir tapar.
Kür qadın, acığından küpə sındırar.
Küsəyəndən gəlin olmaz.
Qadın kişini ucaldar da, vaxtsız qocaldar da.
Qadın evin bəzəyi, kişi evin dirəyi.

Qadın isməti saf duyğular zirvəsində qərar tutar.
Qadın yaz gülü kimi incədi, kəm baxsan tez saralar, solar.
Qadın sığal istər, körpə nağıl.
Qadınla ülviləşər bəşər.
Qadını ülvi olan Şahdağını yerindən oynadar.
Qadın var kişini ucaldar, qadın var kişini qocaldar.
Qadın zərif məxluqdu, zəif məxluq deyil. Anasını sevən Tanrısını sevər.
Qadının camalı da gözəl olar, kamalı da.
Qadınsız kişinin, kişisiz qadının nə həyatı.
Qadınsız ev bumbuzdu, ha ocaq çat, ha qala.
Qadınsız dünya məhv olar, kişisiz xaraba qalar.
Qadının bir gözəlliyi də məlahətli səsidi.
Qadın şərəfini uca tutan kişinin başı uca olar.
Qadın sığal sevər, tumarla xoşallanar.
Qadın yıxan evdə bayquş olar.
Qadının gül bağçası cənnətə bənzər.
Qadınını itirən, həyatını itirər.
Qadını kişisiylə, kişini qadınıyla tanıyarlar.

Qadınını sevən dünyasını sevər.
Qadının bir gözəlliyi də nazdı, qəmzədi.
Qadına bir gözəllik də libasdı.
Qadınsız evin nə yaraşığı, nə işığı.
Qadının ucalığı ismətindədi.
Qadınla ülviləşər ülvi bəşər.
Qadın harda, həyat orda.
Qadın anadı, qurban anadı.
Qadın dünyaya gətirən, kamala yetirəndi.
Qadının qələbəsi göz yaşlarıdı.
Qaş-göz oynadanla ailə qurmazlar.
Qayğılı insan ehtirama layiqdi.
Qaynana yaxşı olsa, gəlin də yaxşı olar.
Qeyrət ismət soraqlar.
Qeyrət də vətəndi, ismət də vətən.
Qeyrətli oğul ataya baş ucalığı, könül xoşluğu gətirər.
Qeyrət də, ismət də ağızda, dildə gəzər.
Qəlbi təmiz, saf kəsləri aldatmağa nə var ki?
Qız sirrini anasına açar.
Qız ürəyini anasına açar.
Qız dərdə əlac, oğul başa tac.
Qız sınan, oğul sındıran.

Qız xalasına, oğul dayısına oxşar.
Qız evin işığı, oğlan yaraşığıdı.
Qız sevənin ürəyi nə yatar, nə dincələr.
Qızı olanın oğlu da olar.
Qızın isməti yanağından bilinər.
Qohumun pisi də sənindi, yaxşısı da.
Qohum-qaralı evin işığı gur yanar.
Qohum-əqraba qol-qanaddı, dar gündə də, gen gündə də.
Qonaqlı evin işığı gur yanar.
Qonaqlı ev barlı, bərəkətli olar.
Qonaq həm evindi, həm elin.
Qonaq-qaralı evin darvazası gen, qapısı açıq olar.
Qonaq sevən qonaq gözlər.
Qonaqsız evi qara basar.
Qonaqlı evin çırağı gur yanar.
Qoyma nə at baş apara, nə arvad.
Qürbətdə vətəni göz yaşına qatarlar.
Qürbətin daşını atan, yenidən doğulan kimidi.
Layla çalan ana bayatı qoşar.
Məsləki olmayandan ailə başçısı olmaz.
Möhkəm ailə, möhkəm dövlət kimidir.

Müqəddəs ocaqdan od götürənin ocağı sönməz.
Nə anadan, nə övladdan doymazlar.
Nə olar, qaynana gəlini qızı bilə, gəlin da qaynanasını ana.
Nə dərdin var yara söylə, yara de.
Oğlum başımın tacı, qızım dərdim əlacı.
Oğul eldi, obadı, qız qərib el.
Oğul ocaqdı, yurd daşıdı, qız köçəri quş.
Oğul ailəyə yaraşıq, qız ailəyə nur, işıq.
Oğul atasıyla, ata oğulla qürurlanar.
Oğula ana dağı dəhşətdi, anaya oğul dağı dəhşətdən də betər.
Oğula sözü bir dəfə deyərlər.
Oğul baş ucalığı, qız ismət örpəyi.
Oğul itirən ananın qəlbi qəmli, gözü nəmli olar.
Oğul evin işığı, qız yaraşığı.
Oğulu gözdən, qızı sözdən qoru.
Övlad böyütmək çətin, övlad itirmək dəhşət.
Övladı döyməzlər, sevərlər.
Övlad beldən, ağsaqqal eldən.
Övlada ata qayğı, ana yanğı.
Övlad dərdi nə deyiləsi, nə çəkiləsidi.
Ömrə-günə yaraşıqdı analar.

Övlad ananın ürəyinin parasıdır.
Palıdın közü, kişinin sözü.
Papaq qeyrətdi, örpək ismət.
Pis züryəti Tanrı verməsə yaxşıdı.
Rahat yaşamaq üçün ailədə hər kəs öz yerini bilsə yaxşıdır.
Sağlam ailə sağlam həyatdı.
Sahibsiz evin işığı sönük olar.
Sev ölənəcən, sevil ölənəcən.
Səliqə-səhmanlı ev gül-çiçəyə qərq olar.
Tanrını sevən ananı da sevər, balanı da.
Təmkinlik kişilik nişanəsidi.
Təndir üz qızardar, ismət üz ağardar.
Torpaq sevgisi başqa, yar sevgisi bambaşqa. Hərəsinin öz gözəlliyi var.
Unudulmazlarımın biri anam, biri vətəndi.
Uşağa göz ağartma, gözün üstə saxla.
Ürəkdən sevən ürəkli olar.
Ürəyinin istəyini yara söylə.
Ülvi hisslərin şam-çırağı həm də eşqdi, məhəb-bətdi, sevgidi.
Vaxt olar oğlu ataya görə, vaxt olar atanı oğula görə tanıyarlar.

Valideyn düz məsləhət verər.
Valideynini sevən, müəllimini də sevər.
Vay o günə ki, ər bir yana çəkə, arvad bir yana.
Vay o günə ki, nə qaynana yerini bilsin, nə gə-lin.
Vəfalının üzü ağ, alnı açıqdı.
Yaxşı oğul ürəyimin parası, yaman oğul ürə-yimin yarası.
Yaxşı oğul ailəyə səadət, bədi fəlakətdi.
Yaman oğul başa töhmət, yaman qız başa qa-xınc.
Yar sevənin cəfası da şirindir.
Yar üşüyəndə yarı bağrına bas.
Yardan küsənin halı pərişan olar.
Yarı küsdürən "dilim qurusun" deyər.
Yarı göz üstə saxla, gözün işıqlı olsun.
Yarına qovuşan dünyasına qovuşar.
Yarını itirənin dünya başına dar gələr.
Yarını itirənin nə gecəsi, nə gündüzü.
Yarını sevən başqasına göz salmaz .
Yarsız, diyarsız bədbəxtdi.
Yarla görüşdə dünya gözəlləşər, ürək döyünər, gözlər gülər.

Yarsız ev qışda da bumbuzdu, yazda da.
Yarına can de, anana can qurban.
Yar yarından yarımasa günü zülmətdə keçər.
Yanardağ sönər eşq sönməz.
Yetim böyüyər, əzrayılın pisliyi özünə qalar.
Yetimin bəxti olsaydı, anasız qalmazdı.
Yumşaq yastıq gözəldi, yanında yarın olsa, daha gözəl.
Yurda qul anaya da quldu.

İNSAN YER ÜZÜNÜN ƏŞRƏFİDİ

Acıqdan acıq çıxmazlar.
Ad almaq da fərəhdi, at almaq da.
Ad qazanmaq mümkün, ad itirmək müşkül.
Adət-ənənə pozulsa eldə qiyamət qopar.
Ağa qara deyən qara günə qalar.
Ağıllı hər dələduza aldanmaz.
Ağılsızlığa xidmət edənin ağlı olmasa yaxşıdı.
Ağsaqqallıq başdan, binadan gəlir.
Ağsaqqalsız el, sərkərdəsiz ordu kimidi.
Ağac ək, yol sal, yadda qal.
Ağız olmasa dil çılpaq qalar.
Alim olmaq gözəldi, adam olmaq daha gözəl.
Allah verən bəsindi, başqa şeyə tamah salma.
Allahı sevən dar gündə, dar ayaqda Allahı çağırar.
Arxasını dağa söykəyən dağ ürəkli olar.
Astagəl asta gedər.
Bağı barlı, evi varlı arzula.
Bəydən bəy törər, səydən səy.
Biganəliyin nə təbibi, nə məlhəmi.
Biganəlik bədbəxtçilikdi.

Boyun ucalığı yaxşı, qəlbin ucalığı daha yaxşıdı.
Böyük ürək hər kəsə nəsib olmur.
Böyüklərin qayğısı çox, sevinci az.
Canı yandır, can yandırana.
Can yanğısını canı yanan bilər.
Ceyran səhra gözəli, maral dağlar gözəli.
Cır ağacın meyvəsi də cırdı.
Çay olmayan yerdə dəyirman axtarma .
Çay var lal axar, çay var gur axar.
Çətin adam çətin qoz kimidi.
Çətin adam nə yola getməz, nə yola gəlməz.
Çörəkçil adamın çörəyi bol olar.
Dağlar qədər vüqarlı, bağlar qədər nübarlı ol.
Daglar oğlu dağ təbiətli olar.
Dalaşanları alışdırma, barışdır.
Dədəsi olmayan ağciyər olar.
Dil acı, hünər yox.
Dövləti qoruyan dövlətini qoruyar.
Düz hamını düz bilər.
Düzlər bicləri, biclər düzləri görmək istəməz.
Ev tikənə kömək dur, ev yıxana qənim ol.
Evi gözəl olanın, çölü də gözəldi.

Əqidəli olmaq yüksək insani keyfiyyətdir.
Əqidəlilərin dostluğu sarsılmazdı.
Əqidəli insanın başı uca olar.
Əliaçığın ürəyi də açıqdı, diləyi də.
Əməlisalehin başı salamat olar.
Əmək itirənin əməyi itər.
Ən uca dağ həsrət dağıdı.
Ən güclü silah, qeyrətdi.
Əsil axtar, kök axtar.
Əsil bəy nəsil bəydən törər.
Əziləni əzmə, əzəni əz.
Əziz qonaq süfrənin başında.
Əzmli, dözümlü insan alınmaz qaladı.
Xalis adam xalis nəsildən törər.
Xəsisə işləmə, əlinə çöplə çərdək verər.
Mərhəmət sahibi olur qocalar.
Gədadan nə bəy, nə xan olar.
Halal ol, haram olma.
Hallallıq harda, bin-bərəkət orda.
Hamıyla yola get, hamıyla dil tap.
Hamıya uğur dilə, sənə də qismət olar.
Hardan gəlib, hara gedir bu dünya.
Həmişə “işin avand olsun” de, qol-qanad ver.

Hər kəs öz yerini bilsə yaxşıdır.
Həyanı gözlə, həyasıza qoşulma.
Həyatda yaxşılığı başa qaxmazlar.
Hörmət hörmətə bağlıdır.
Hörmət qazanan hörmətcil olar.
Hörməti itirən hörmətsiz olar.
Hörməti saxlayan hörmətli olar.
Hörmətliyə hörmət edənin hörməti artar.
İmanlı insan inamlı olar.
İnadlı insanı inandırmaq çətindir.
İnsan öz qədrini bilmirsə, başqası nə bilər?
İnsanı gözdən salan gözdən düşər.
İnsanı ürək, ürəyi insan gəzdirər.
İnsan var canın saxlar, insan var vətəni.
İnsan var zümrüd quşudu, insan var xaraba bayquşudu.
İnsan gəldi- gedərdi, bir insanlıq qalacaq.
İnsan nə əlil ola, nə zəlil.
İnsan təbiətin möcüzəsidi.
İnsan ulu varlıqdı, təbiətin şah əsəridi.
İnsanda ucalıq paklıq, saflıq, təmizlik.
İnsan öz əməliylə xatırlanar.
İnsan insana, dağlar dağa arxadır.

İnsan əməli, ölkə sərvətilə.
İnsanın tacı ləyaqətdi.
İnsanlıq harda, əmin-amanlıq orda.
İnsan ölər, insanlıq qalar.
İnsan "mənəm" deməz, mənəmlik göstərər.
İnsan ucalıqdı, ucalıqda qərar tut.
İnsan var mələkdi, insan da var kələkdi.
İnsan var ki, naxışdı, insan var ki, qaxıncdır.
İnsanlığını dəyişməkdənsə, dünyasını dəyişsə yaxşıdı.
İsmət qızartısı yanaqda da xal-xal, buxaqda da.
İsmət qadın ucalığıdı.
Kasıba qohum-qardaş əl tutar.
Kasıba pay-pürüş, yer-yemiş vermək savabdı.
Keşik çəkən gözdə-qulaqda olar.
Kiçiklərə qayğı, böyüklərə ehtiram borcdu.
Könül quran ol, könül qıran olma.
Könlü açılmaza könül ver, bəlkə açıldı.
Qaçqını da incitmə, köçkünü də, günaha batarsan.
Qanlı-qadalı çayın sahilində ev tikənin ağlı olmaz.
Qəlbinur qəlblərə nur çilər.

Qəlbi təmizin ömrü uzun olar.
Qəlbi qəmlinin gözü nəmli olar.
Qəlbi təmizin sözü də təmiz olar.
Qəlbi təmizlər oğrunu da doğru bilər.
Qəlb oxuyan qəlbşünas olar.
Qəlbsizə qəlb verənə yazığım gəlir.
Qəlbin odunu eşq alovlandırar.
Qəlbin viranəliyi gözün kölgəliyindəndir.
Qəlbində atəş olan, elinə nur ələr.
Qəlbləri fəth elə, zirvəni fəth eləməsən də olar.
Qəlbsizlər nə bilər qəlbin çəkdiyini.
Qələbəni qiyamətə qoymazlar.
Qədirbilməz, karagəlməzdən aralı.
Qol-qanad ver, qol-qanadı sındırma.
Mehribanlıq olan yerdə yaşamağa nə var ki?
Mənəviyyəti olmayanda nə mədəniyyət?
Məsləkli adamlar mərhəmətli olurlar.
Mülayim ol, sərtlik pərtlik gətirər.
Mürvət başqa, mürtət başqa.
Nadürüst qapıya peşmançılıq gətirər.
Nadan nadandı, vay qansız əlindən.
Nə aldan, nə aldat.
Nə başından bas, nə ayağından çək.

Nə dostu unut, nə düşməni.
Nə inamını itir, nə imanını.
Nə yatağan ol, nə vurağan.
Nə sırtıq ol, nə quyruq bulayan.
Nə zalım ol, nə zülm elə.
Neyləyəsən ki, həyatda yaxşı da var, yaman da.
Höcəş adam başqa, ölləş adam başqa.
Özülü möhkəm tərbiyənin sonu aydınlıqdı.
Pərtoy adamın günü davadı.
Ruhları dincəlt çalğınla, oxunla.
Sahibsizə sahib çıxmaq savabdı.
Səfərə çıxanın arxasıyla su atanda uğuru xeyirli olar.
Səmimi insan sədaqətli olar.
Sərkər çoban dağlara heykəldi.
Sərtlikdən pərtlik gözlə.
Sınamadığın insana nə ürəyini aç, nə ürəyini ver.
Sözü tutulmayan ağsaqqal, dünyadan köçsə yaxşıdı.
Tamah diriykən ölümdür.
Tanrım insaf versin insafsıza.

Tez alışan, tez sönər.
Təbiət insanlar kimidi, gah bağırır, gah çığırır.
Təbiətən zənginlər yüksək mədəniyyətə malik olar.
Tərbiyəli valideynin övladları tərbiyəli olar.
Tərbiyəsiz yanında tərbiyəlinin nə işi var?
Töküb töküşdürmə, yır-yığış elə.
Ucalıq insan ləyaqətidi.
Unutqanlı olmasaydıq torpaqlarımız gedərdimi?
Uzun ömürlülər halal yaşayanlardı.
Ürəyi genişə ürəklə işlə.
Vəd verdin yerinə yetir, hörmətin qazan.
Vəfalıya vəfasız olmaq günahdı.
Yaxşıya rəhmət, yamana lənət oxunar.
Yaxşını başa çəkin, yamanı başdan salın.
Yaxşılıq da, yamanlıq da əsl-nəsildən gəlir.
Yaxşılıq ömrə yaraşıq, pislik ömrə ləkə.
Yaxşılığı başa qaxmazlar.
Yaman olma, yanan ol.
Yaman hamıya tərs gözlə baxar.
Yamana yaxşı ol, bəlkə utana.
Yamanlığı unut, yaxşılığı unutma.
Yanana yanan ol, yamana yaman.

Yaşamaq yaxşıdı, yaşatmaq hünər.
Yaşa baxma, başa bax.
Yaşlılar soyuqqanlı, gənclər dəliqanlı olar.
Yerini bilməyən yerişini də bilməz.
Yetimin ahı dağı da əridər, daşı da.
Yeznə var ata-bala, yeznə var başa bəla.
Yetimin başına sığal çək, qəlbinə sevinc payla.
Yıxılana ürək-dirək ver, qalxana uğur dilə.
Yuxarıya baxıb fikir eləmə, aşağıya bax şükür elə.

HƏYAT MƏNƏN ZƏNGİNLƏRİNDİ

Acgöz, az yığ, yığışdır onsuz da dünyadan əli-boş gedəcəksən.
Acgöz başqa, toxgöz başqa.
Açıq danışandan qorxma, qara qaradan qorx.
Adət-ənənəni unudanlar anasını da unudar.
Adət-ənənəyə xor baxan kor qalar.
Ad almaq da, at almaq da fərəhdi.
Ağılsız qocanın üzünü torpaq örtsün.
Almaqla arası olmayanın verməklə də arası olmaz.
Arxalanmaq yaxşıdı, arxa durmaq şərəfdi.
Arsız, pirsiz yaşamağın nə mənası?
Arzu ilə yaşayanın gözləri yol çəkər.
Ayaq yalamaqdansa, ayaq üstə ölmək yaxşıdı.
Aza qane olanın nəfsi olmaz.
Azğın da, pozğun da eyni.
Az əyil-qatlan, əyri bitərsən.
Azğından, pozğundan aralı.
Az sinə döy, az ağla, gedən getdi, qayıtmaz.
Bağ becərən, bostan da becərər.

Bağ salanla dünyaya gətirən eyni sevinci yaşar.
Bakirəlik günəşdən nur, aydan aydınlıq umar.
Barlı ağaca daş atarlar.
Baş aparanın başını kəsərlər.
Başa qaxmaq hara, başa sığal çəkmək hara.
Başı üstündə olan, baş üstə deyər.
Bəd qonşuya görə hasarını hündür elə.
Bəd oğulun vayına oturarlar.
Buludlar sıxlaşanda sellər, sular oynar.
Cahan kimə qalıb ki, sənə də qala.
Can deyənə can, qan deyənə qan de.
Can şirin, canan şirin, cahan şirin qədrini bilənə.
Can de, can eşit.
Cani də, cahil də bir bezin qırağıdı.
Canı can verənə ver.
Cənnət də, cəhənnəm də bu dünyada.
Çıraq yandır, çıraq söndürmə, çırağın sönər.
Çətinliyə köks ötürmə, sinə gər.
Çətinliyə sinə gərmək igidlikdir.
Çörək itirən olma, çörək verən ol.
Çörəyi unudan çörəksiz qalar.

Dağa qalxmaq çətin, dərəyə enmək asan.
Dağların başının çalması dumandı, qardı.
Dağa arxalanan dağ ürəkli olar.
Dağlar qarınan, aran barınan gözəldi.
Dağa bax dağlan, bağa bax bağlan.
Dara düşəndə daralma, səbr elə.
Dava-şavanın axırı qandı-qadadı.
Dedi-qodunun axırı qalmaqaldı.
Dələduzun axırı yoxdu.
Dələduz yalquzağın tayıdı.
Dəllal ucuz alıb baha satar.
Dərd bir olsa, çəkməyə nə var ki.
Dəhrədə durmaz sapdı.
Dinləməyi bacar, sözü kəsmə.
Dinc oturan dinc olar.
Dinc olan dinclik tapar.
Doğruya, düzə nə zaval?
Dünyanın ən varlısı mənən zənginlərdir.
Düşmən var barışarlar, düşmən var dalaşarlar.
Ermənininin qocası donuza gedər, azərbaycanlının qocası şeir yazar.
Ədəb qaydasını ədəbsizlər pozar.
Əlin öz cibində olsun, başqa cibə göz salma.

Əli qabarlının yuxusu şirin olar.
Əxlaqsıza nə əxlaq dərsi.
Fərəhli oğul fərəhdi, qürurdu elinə.
Fikir eləmə, şükür elə.
Fürsəti əldən verməzlər.
Fürsətsiz fürsət axtarar.
Haqqın, ədalətin qarşısında diz çök, Allaha yalvar.
Halal elə, haram eləmə.
Halalzadənin haramzadəyə qovuşması fəlakət-di.
Haşa yanqır, boşboğazın əlindən.
Hədiyyə ayrı, rüşvət ayrı.
Həlləm-qəlləmin nə əvvəli, nə axırı.
Hər yoldan keçəni evə dəvət etməzlər.
Hər gözəli özünə yaraşdırma.
Hər saza oynamaz, hər sazı çalmazlar.
Həyalının bir gözəlliyi də utancaq olmasıdı.
Hirslidən qorxma, kinlidən qorx.
Hürmək başqa, tutmaq başqa.
Hörmət elə, minnət qoyma.
Hörmət olmayan yerdə hörmətsizlik olar.
Gözdən düşən könüldən də düşər.

Gözü kölgəli yerə baxar.
Gözü kölgəli gözdən düşər.
Gözü kölgəlinin ürəyi tir-tir əsər.
Gözü kölgəlinin qəlbi ləkəlidi.
Gözü kölgəlinin başı aşağı olar.
Gül ətrini güldən, qız ismətini eldən alar.
Gül səpmədi yollanma, qol açmadı qollanma.
Gül açılar yaz olar, qız qarıyar söz olar.
Gülöyşə bitən yerdə bənövşə də bitər.
Günəş doğar, zülməti boğar.
Gündüz yerim günəş, gecə yerim ay.
Günah işlədən günaha batar.
Gözü toxun könlü tox olar.
Xandan xan törər, gədadan gəda.
Xoş rəftar qəlbin səsidi.
İnsafsızdan insaf gözləmə.
İnsanın quduranı itin quduranından betərdi.
İnsanlarla dil tap, dilləşmə.
İsmət harda, qeyrət orda.
İsmət alınmaz qız qalasıdı.
İsmətlə qeyrət görüşəndə aləm nura qərq olar.
İsmətli qız elin şam-çırağıdı.
İsmətsizi daş-qalaq eliyərlər.

Kara gəlməzə bel bağlama.
Köklü ağac köklü nəsil kimidir.
Kökü dərinə işləyən ağacın başı göylərə çatar.
Küsü qəm karvanı, barış cana məlhəm.
Qan vermək başqa, can vermək başqa.
Qan davası unudulmaz, qövr eyləyər.
Qanı su ilə yuyarlar, namusu heç nəylə.
Qızın isməti yanağından bilinər.
Qınaq yeri olma, sınaq yeri ol.
Qaydadı, könlü bulanıq könül bulandırar.
Qeyrətli kasıba can qurban.
Qeyrət kişilik heykəlidi.
Qədir bilənə qədir ağacı əkərlər.
Qəlbi qaranın üzü də qaradı.
Qılıq qatan rahat yatar.
Qısqanclıq istirabdı, yanğıdı.
Qısqanclıq ağılı başdan alar, yaman günə salar.
Qısqanclıq ağılı azdırar, qəlbi çaşdırar.
Qısqanclıq sağalmaz xəstəlikdi, nə məlhəmi nə təbibi.
Qısqanclıq ömrü didər- parçalar.
Qısqanclıq başa bəladı.

Qonşu qonşuya tən gərək, tən olmasa gen gə-rək.
Qudurğan nə qanar, nə qandırar.
Qumarbaz uduzanda evi də qumara qoyar, yarı da.
Qumara qurşanan qumarbaz olar.
Qürur başqa, təkəbbür başqa.
Qürur kişiliyi gözəlləşdirər.
Ləyaqət insanın şərəfidi.
Ləyaqət insan ucalığıdı.
Ləyaqətim gedincə, canım getsə yaxşıdı.
Ləyaqətsiz özündən aşağıya alçaq, yuxarıya padşah deyər.
Maddiyyət mənəviyyatı üstələyəndə qiyamət qopar.
Məclisin yaraşığı kübar qadınlardı.
Mənəviyyatı yüksək olanın, mədəniyyəti da yüksək olar.
Mənən zəngin olan ən varlı insandır.
Mənalı həyat mənəvi zənginlikdi.
Mənalı ömür mənən zənginləşər.
Mənəvi haqqı olmayan mənəviyyatdan dəm vurar.

Mənəviyyatı olmayandan mədəniyyət gözləmə.
Mərifətsizlik sümükdən gələn tərbiyədi.
Namussuza nə ar, nə yar.
Nəcabətli nəcibliyi hamıya göstərər.
Nəciblik insanın yaraşığıdı.
Nəciblik nəcabətdəndi.
Nəcib hara, nanəcib hara.
Nəfsini qoruyanı Tanrı qoruyar.
Nəfsi toxun canı sağlam, ömrü uzun olar.
Nə xəstəhal ol, nə pərvazxəyal.
Nə ölənləri, nə qalanları unut.
Ocağı ayaqlama, ayağının altında od yanar, alov püskürər.
Oğurluqla varlananın həyatı fəlakətlə qurtarar.
Oğurluqla var-yığan oğruya qismət olar.
Ömür üzənin ömrü üzülər.
Özünə güvənən sözünə də güvənər.
Sahibini görən it quyruq bular, şirvanar.
Sakit adam sakit yatar.
Səxavətli adam sədaqətli olar.
Səfərə gedəni gözləyər, qəbrə gedəni xatırla-yarlar.

Səfərə gedənin dalınca ağlayarlar da, gülərlər də.
Səmimi olan səmimiyyət qazanar.
Soyuq qəlbi ha qızdır, qızmaz ki.
Sözü üzə de, arxasınca qılınclama.
Şəxsiyyətini qorumayana "şəxsiyyətsiz" deyərlər.
Şərəflə yaşayan, şərəfli köçür dünyadan.
Şərəfli ömür şərəfli ölüm yaradır.
Şərəfli ömür sürmək, şərəflə dünyadan köçmək gözəldi.
Şərəflə yaşayan, şərəflə ölər.
Şərəflə yaşanan ömür insanı ucaldar.
Talançının gözü ayağının altını seçməz.
Tamah sağalmaz yaradı.
Tək bu günlə yaşama, sabahı aydın gör.
Təkəbbürlü olma, təmkinli ol.
Təkəbbürlü olma, qürurlu ol.
Təmiz qəlbə ləkə tez düşər.
Tərbiyəsizdən nə tərbiyə.
Torpağı əkən taxılı da biçər.
Türk əyər, əyilməz.
Utan utanmazdan, qorx qorxmazdan.

Ürəyi böyüyün çörəyi bol olar.
Ürəyi özündən böyük olanlar qibtəyə layiqdir.
Üzü dönüyün qəlbi xain olar.
Ürəkdən gələn söz ürəyə tez çatar.
Ürəyi genişin gözü tox olar.
Ürəyi təmizin dili də təmiz olar.
Üz ağlığı cansağlığıdı.
Üz qızardan olma, üz ağardan ol.
Vəhşilərin əlindən qaç qurtar ki, salamat qalasan.
Vüqarını əyməz dağlar, ilqarından dönməz dağlar.
Yaxanı ələ vermə, verdin qurtardı.
Yaxadan tutanın, yaxasını cırarlar.
Yaxşılıq elə, pislik özünə qalsın.
Yaxşılıq olmasa, pislər neylərdi?!
Yaxşılığı başa qaxmazlar.
Yaxşı insan elini ürəyinə salar, ürəyində saxlayar, ürəyində gəzdirər.
Yaxşı qonşuya açıq qoy darvazanı da, qapını da.
Yaltaq min dilli, min sifətlidi.
Yaltağın nə üzü, nə astarı.

Yalan meydan alanda düz söz danışana ya dəli, ya ağılsız deyərlər.
Yekəxananın axırı qudurğanlıqdı.
Zər-ziba geyincə, bakirəlik ölüncə.

DİNİMİZ, İMANIMIZ, İNAMIMIZ

Allah bala versin, bəla verməsin.
Allah bəndələrini yaxşı tanıyar.
Allah hər kəsin qəlbindədi.
Allah rəhimlidi. Bəndə, rəhimli ol.
Allah göstərən yolla getsən, azmazsan.
Allahı istəyəni Allah çox istər.
Allaha yaxın olanlara Allah yaxın olar.
Allahı çağır, Allahı eşit.
Allahı həmişə çağır, dara düşəndə yox.
Allahı gen gündə xatırlayanın dar günü olmaz.
Allahın bəndəsi olmaq şərəfdi. Şərəflə yaşa.
Allahını unudan Allahsız qalar.
Allahını sevməyən vətənini də sevməz.
Bədnəzər bəd xasiyyət olar.
Bədnəzər, özünü unutsan da, Tanrını unutma.
Çox işə girişmə, birindən yapış, hörmət qazan.
Dar gündə də Allahı çağır, gen gündə də.
Dini, imanı üstün tutan şamla ölər.
Dirinin də, ölünün də yeri rahat olsa yaxşıdı.
Dinsizin nə dini, nə imanı.

Dinli, imanlı ağsaqqallar pirdi, ocaqdı.
Düz yaşa, yüz yaşa.
Əqidəndən dönmə, inadından dön.
Ən doğru and Tanrı haqqıdı.
Güman da bəlkə kimidi.
Həccə gedən paklaşar, durulaşar, saflaşar.
Həciliyi itirənə həcc qənim olar.
İnam harda, qələbə orda.
İnanmasan inandıra bilməzsən.
İstək başqa, imkan başqa.
Qapıya vurulan at nalı evi bəd nəzərdən qoruyar.
Qəbir üstə Novruzda getsən, ruhlar daha şad olar.
Qəbiristan canlı tarixdi, oxuyanı olsa.
Quranı öp, gözünün üstə saxla.
Kasıblar pirlərə tez-tez gedər.
Mərifət həqiqətə gedən yolun başlanğıcıdır.
Məzarıstan son mənzil, əbədi məkandı. Açıq səma altında tarix müzeyidi. Gör-götür dünyasıdı.
Nə küsdür, nə peşman ol.
Nə üz döndər, nə üz göstər.

Nə zalım ol, nə zəlil.
Səbrliləri Allah daha çox sevir.
Tövbə demə, dedin, əməl et.
Ümidsizlikdə də ümidini itirmə.
Yaradana da qurban ol, yaşadana da.

DÜNYA, ZAMAN, MƏKAN

Bağ da suya borcludu, aran da, dağ da.
Bir dünyalıq sevinc, bir dünyalıq kədərdi bu dünya.
Bir gün gələn, bir gün gedər dünyadan.
Bir biləydim hardan gəlir, hara gedir bu dünya.
Bir yanı toydu, bir yanı yasdı dünyanın.
Bir gözü ağlar, bir gözü gülərdi dünyanın.
Bir gün acıq, bir gün toxuq, bir gün yoxuq bu dünyada.
Borca borc dünyadı.
Bu dünyada rahat olan, o dünyada rahat yatar.
Bu dünya həqiqət, o dünya yalan.
Bu dünya sənindi, sən o dünyada torpağın.
Can gedər, cahan getməz.
Can verən, can alandı torpaq.
Çörək itirən çörək tapmaz.
Ey dünyaya ağıllı gələn insan, dünyadan ağılsız getmə.
Əyri dünyada düz danışmaq ağılsızlıqdı.
Dövranla barış, sonra peşman olma.
Dünya diləkli olan dünya ürəkli olar.

Dünya kimə dağ verir, kimə dağ çəkir.
Dünyada qullaşmaqdansa, dünya ilə vidalaşmaq yaxşıdı.
Dünyaya gətirmək asan, dünyanı vermək müşkül.
Dünyanın axırını axıra qalan bilər.
Dünya boyda ürəyi olanın dərdi də dünya boydadı.
Dünya öz işindədi, sən öz işində ol.
Dünyanın sirri tapılsa alt-üst olar.
Dünyanın varı-dövləti bir sağlamlığa dəyməz.
Dünya kamallının nə dərdi, nə məlalı.
Dünya bulaşanda çətin durular.
Dünya bir dünyadı, o dünya yanlış.
Dünya qalar, gələn gedər.
Dünya kimə düz, kimə tərsinə olandı.
Dünyadan güclüdü sevginin gücü.
Dünya eşqin gücü ilə hərəkətdədi.
Dünya etibarsızdı, çalış dostdan, yardan ayrılma. Ayrılanda da xoşrəftar ol.
Dünyaya gələn torpaqdı, torpağa tapşırılmaq ölməzlikdi.

Dünyaya şikəst gələn uşaq anaya göz dağı, ürək niskinliyi.
Dünyanı bulandıran heç dünyaya gəlməyəydi.
Dünyanın əlindən hara qaçarsan.
Dünya həmin dünyadı, bizlər gəldi-gedərik.
Dünyanı necə tutarsan elə də gedər.
Dünya kimə abad, kimə bərbaddı.
Dünyanı qorumasan dünyanı itirərsən.
Dünyadan küsən özündən küssün.
Dünya mənimdi demə, qarşıda ölüm var.
Dünyaya gəlmək sevinc, dünyadan köçmək ağlaşma.
Dünya vəfasızdı, nə yardan küs, nə yarı küsdür.
Dünya etibarsız, həyat vəfasız.
Dünyaya od ələmə, işıq saç.
Fələklə kələk işlətmə, düz dolan.
Gəlhagəldi, gethagetdi bu dünya.
Haqq, ədalət o dünyadadı.
Harda qaldı mənəm-mənəm deyənlər?
Həyat gözəldir, gözəlliyi yaşayana.
Həyatda yıxılan çətin qalxar.
Həsrət yarası qövr elər, sağalmaz.
Kimə ağ, kimə qaradı dünya.

Kimə xoşbəxt, kimə bədbəxt dünyadı.
Kimə quyruq, kimə yumruq dünyadı.
Kimə qalıb, kimə qalasıdı bu dünya?!
Kimə yanan, kimə yaman dünyadı.
Qafil, kimə qalıb bu dünya.
Qoca dağlar qocalardan qocadı.
Nə dünya sənindi, nə sən dünyanın.
Özgə atına minən tez düşər.
Şahlıq quşu hamının başına qonmaz ha.
Tarixdən od götür, odlan.
Təbiət də insan kimi qayğıya möhtacdır.
Üzü dönük dünyaya ha yalvar, xeyri nə.
Yıxılana baltalı da, baltasız da.
Zamanla ayaqlaşmayan geri qalar.
Zamanın hökmü yenilməz.
Zəmanə kimini göyün yeddi qatına qaldırar, kimini yerin yeddi qatına endirər.

TALE, QİSMƏT

Alın yazısı qaçılmazdı.
Arzu ilə əməl qovuşanda xoşbəxtlik olar.
Arzu başqa, qismət başqa.
Bəxtiqara demə, bəxtin açılsın de.
Bir qalxmağın bir enməyi var.
Bizə gələn yarıyar, bizdən gedən qarıyar.
Eşqi sönən baxtı dönən kimidi.
Əlacsızlara Allah kömək olar.
Gözü dönənin, üzü də dönər, ürəyi də.
Görmədiyin günə düşəndə ayıl-mayıl, ağlızayıl olma.
Heç kəsin ruzigarı, taxtı, baxtı dönməsin.
Həyatda hər kəsin öz qisməti, öz payı.
Kiminin axırı, kiminin əvvəli deyərlər.
Kimsəsizin nə qolu, nə qanadı.
Qara günün ağ günü də var.
Qəlbi sındırma, düzəltmək çətin olur.
Qəribin gözü yolda, qulağı səsdə olar.
İnsan bu dünyada yaşıl yarpaq, o dünyada qara torpaqdı.

Pozulan yazı çətin düzələr. Baxt da belə, yığ-val da belə.
Rüzgarın üzü dönməsin, döndü qurtardı.
Şahlıq quşu hər kəsin başına qonmaz.
Tale üzünə gülməyəndə ha ağla, ha sızla.
Tanrıdan cahan istəmə, sağlam can istə.
Yatan baxdım oyansana.
Yardan yaralananın məlhəmi yardı.
Yazan başqa, yozan başqa.
Yazan da yaxşıdı, yozan da.
Bağlanan bəxt çətin açılar.
Yetim qız qıvrılar yatar, yetim oğlan üstüaçıq.
Yetim boynuburuq, gözüqıpıq olar.

HƏYAT, ÖLÜM

Axşamdan oduna gedən çox olar.
Arxa əlsizə əl, dilsizə dil verər.
Ah-vay dağı da yandırar, daşı da.
Ah-amanı içəri buraxma, içəri girdi qurtardı.
Ayrılıqda dolan gözlər, himə bənd olar.
Allah hərəyə bir ömür verir, hər kəs də öz ömrünü yaşayır.
Ananın arzusu son mənzilə oğlunun çiynində getməkdi.
Az ağla, köçən köçdü, qayıtmaz.
Balasını itirən qulun kimi kişnər.
Biganəlik qapıya viranəlik gətirər.
Bülbül gülüstanda ötər, bayquş xarabalıqda.
Bədniyyət bədxasiyyət olar.
Buludun göz yaşından gülüstan qəh-qəh çəkər.
Bixəbər gələnlər, bixəbər gedər.
Bir üzü bozdu, bir üzü yazdı dünyanın.
Canım olan, canım alan qocalıq.
Can candan düşəndə təqsiri özündə gör.
Can üzənin canı üzülər.
Cana qəsd edənə ağılsız deyərlər.

Canın getdi, hər şey bitdi.
Canı da, camalı da, kamalı da Allah verir.
Can sevdası bir şey, mal sevdası başqa şey.
Cənnət anamın yanında məni də basdırın.
Çıxmayan cana nə ölüm?
Çörək-çörəyə, sevən ürəyə borcludu.
Çalış, son mənzilə qədər.
Çarəsizə nə təbib, nə məlhəm.
Çətinliyə sinə gərmək igidlikdir.
Çıxmayan cana ümid var.
Dəyirmanın gözü xırmanda olar.
Dərd bir olsa, çəkməyə nə var ki?
Dərdi qanan dərman əvəzidi.
Dərdini dərd qanana söylə.
Didərgin salan didərginə düşər.
Doğum da, ölüm də yazda ola.
Dünya qalır qalacaq, boşalacaq, dolacaq.
Dünyadan köçən, canını aparır, özgə heç nə.
Dünyanı görə-görə gəlib, tez dünyadan köçmək dəhşətdi.
Dünyanın sirri-sehri yozulmaz.
Etibarsız həyata nə etibar?
Evin yası, elin yasıdı.

Fani dünya kimə qalıb ki?
Fərari də vətən xainidi.
Gənclik şahlıq, sultanlıq, qocalıq boranlı-çovğunlu bir qış.
Gülənlə gül, ağlayanla ağla.
Harda qan var, orda ölüm.
Hərdəmxəyalın dəmdəməkidən nə fərqi?
Hər şeyi bilən insan, öldüyü günü bilməz.
Həsrət vüsala çatanda həyat gözəlləşər.
Həsrətin göz yaşına dəsmalın nə xeyri.
Həyat şirindi, qədrini biləsən gərək.
Həyat nə qədər gözəldi.
Həyat da bir məktəbdi, həm öyrən, həm öyrət.
Həyat insana bir dəfə verilir. Sevə-sevə yaşa.Qorxa-qorxa yox.
Həyat dağlar kimi yoxuşlu-enişlidi.
Həyat şirindi, mənalı həyat başqa bir aləm.
Həyat şirin nəğmədi, qədrini bilənə.
Həyatın sonu var, sevginin sonu yox.
Həyat gözəldi qədrini bilənə.
Həyat bir dünya sevinc, sevgidi.
Həyatda hər kəs öz yerini bilsə yaşamağa nə var ki?!

Həyatda bir dəfə ölərlər.
Həyatda hamını bir gözlə görənin işi avand olar.
Həyatda neçə ki varsan, deməli sağsan.
Həyatdan dərs almayan həyatını qura bilməz.
Həyatın qədrini bilməyən özündən küssün.
Həyatın qədrini həyat sevərlər bilər.
Həyatı sönənin ulduzu da sönər.
Həyatın mənası mənəvi zənginlikdi.
Həyatını vaxtında qur, nə gecik, nə tələs.
Həyəcandan olduğu kimi sevincdən də ölümolar.
Höcətlik dirigözlü ölümdü.
Həyatda hər adamın öz yeri var, hər yerin də öz adamı.
Həyatın səfasını sürdüyün kimi, cəfasına da döz.
Həyatda nə darıl, nə yorul.
Həyatla barış, zamanla ayaqlaş.
Xoş gəldin sevinc, əlvida göz yaşları.
Xəstəliyinə ölürəm demə, öldürrəm de.
Xəstəliyindən qorxma, onu qorxut.
İldırım qorxudu, zəlzələ dəhşət.
İllər xəstəsindənsə, qəfil ölmək yaxşıdı.
İnsan ölüm ayağında işıqlı görünər.

İşsizin nə günü, nə güzəranı.
Kimə qalıb ki, kimə də qala bu dünya.
Kök kəsənin kökü kəsilər.
Qan tökülən torpağın gülü qanqırmızı olar.
Qan-qadadan, şər-şəvədən uzaq ol.
Qanın qaynamayana könül vermə.
Qırmızı qan faciə, qırmızı don sevinc rəmzidir.
Qalxanda da şükr de, yatanda da.
Qayıtmazı az ağla.
Qəribi qərib ağlar, yetimi yetim.
Qılınc qında təpərdi, qılınc qanda kədərdi.
Qorxaq diriykən ölüdü, yaltaq ondan betər.
Qoca gözdən, könüldən düşdünsə, qıl körpüdən keç qurtar, bu dünyadan köç qurtar.
Qorxaq gündə bir dəfə ölür, dirilir.
Qürbətdə ölənin qəbri çat-çat olar, ruhu uçarvətənə.
Metalı nəm, insanı qəm çürüdər.
Mehribanlıq da bir qəhrəmanlıqdı.
Mehri-ülfət də, zövqü -səfa da bu dünyadadı.
Mənalı həyat mənalı tərbiyəyə borcludur.
Mənalı ömür, mənən zənginləşər.
Dünyada bəy də birdi, nökər də.

Öləcəyini bilən, ölümünü gözləyən dəhşətə qalar.

- Ölənin dalınca ölməzlər.
- Ölənlə ölmə, qalanla qal.
- Ölənin dalınca ölmə, qalanın halına yan.
- Öləni ağlamaqdansa, pis günə qalanı ağla.
- Ölüm gələndə soruşmur.
- Ölüm bir tüfəngdi, işgəncə ölənə qədər.
- Ölüm qaçılmaz, sirri açılmazdı.
- Ölüm haqdı, nə ola vaxtında, vədəsində ola.
- Ölümdən oyanı ruhlar yaşar.
- Ölümdən qorxan vaxtsız ölər.
- Ölümə yas saxla, ömür üzmə.
- Ölüyə də yiyə lazımdı, diriyə də.
- Ömrü gödək edənlərin ömrü gödək olar.
- Ömür köhləni yoxuşda yorular.
- Ömür uzat, ömür üzmə.
- Ömürlük cəza cəhənnəm əzabıdı.
- Ömrü verən Allahdı. Allahın istəyincə yaşa.
- Ömrü uzun istəmə, sağlam istə.
- Övlad itirən ananın ürəyindən qan axar.
- Pis deyə-deyə pis günə qalır insan.
- Rüzgarın üzü dönməsin, döndüsə qurtardı.

Saçı ölünün üstə kəsərlər.
Sahibsiz evdə bayquş ulayar.
Selə düşən Saranın dalınca gedər, qayıtmaz.
Sevincdən ağlamaq da bir gözəllikdi.
Səhra gəmisi dəvə səhrada dincələr.
Şərəfli ölüm ölməzlikdir.
Təbiətlə oynayan oyuna düşər.
Təbiəti baltalayan ömrü baltalar.
Təndir çörəyi harda, motal pendiri orda.
Təndir göz çıxardar, müdrik söz.
Tənhalıq ömrə yağıdı.
Tutdu azar, sonu məzar.
Urvatsız yaşamaqdan urvatlı ölüm yaxşıdı.
Ümidsizliyin axırı uçurumdu.
Vayda da el tökülər, toyda da.
Yatmaqdan ölülər nə qazanıb ki, dirilər də nə qazana.
Yaz təbiətin nazı, qəmzəsidi.
Yas libası qara, toy libası al-qırmızı olar.
Yaxşı xəbəri tez çatdır, vay xəbəri ehtiyatla.
Yaxşı günün qədrini yaman günə düşəndə bilərlər.
Yaşamaq haqqında düşün, ölümün öz vaxtı var.

Yaşamağa nə var ki, əhdi-peyman olan yerdə?!
Yaşayanda da rahat yaşa, öləndə də.

SEVİNCLİ, KƏDƏRLİ DÜNYA

Ağrın ürəyimə başqa, ağrım ürəyinə başqa.
Ah-nalə ömrü çürüdər.
Ah-uf can çürüdər.
At cilovlanar, dərd cilovlanmaz.
Ayrılıq diriykən ölümdü.
Az dərd elə, dərdə düşərsən.
Bala dağı dünya boydadı.
Balasını itirən ana ölüncə ağlar qalar.
Bədbinliyə qapılan ruh düşkünü olar.
Borcu olmayan rahat yatar.
Borclu adam fikirli, qayğılı görünər.
Boz bulanlıq hava könül bulandırar.
Can yanmasa gözdən yaş çıxmaz
Çox dərd çəkən vərəmə tutular.
Dar gündə, dar ayaqda nə sın, nə sıxıl.
Dəmi olmayan qəm dəryasında boğular.
Dərd bir olsa çəkməyə nə var ki.
Dərd var evə aid, dərd var elə aid.
Dərdi yaxına qoyma, içində yara bağlar.
Dərd çəkəni dərd üzər.
Dərd qalası ol, dərd verən olma.

Dərd verən olma, dərd alan ol.
Dərd bilən ol, dərd verən olma.
Dərd verən dərdə düşər.
Dərd verən, dərman da verər.
Dərd bir ola, həbib çox.
Dərd verəni dərd basar.
Dərdə düşəni dərd odsuz-ocaqsız yandırar.
Dərdə döz, təhqirə dözmə.
Dərdi ürəyinə salma, dərd bağlarsan.
Dərdin dağlara, daşlara olsun.
Dərdli insan fikirli olur.
Dəhşət qopanda elə vay təbili çalınar.
Dodaq büzənin qəlbi qəmli, gözü nəmli olar.
Doğulanda sevin, öləndə ağla.
Hər ağlayana yazığın gəlməsin.
Həsrətin gözü himə bənd olar.
Xarabalıq qəm yığnağıdı.
Xeyirlə şər qabaq-qənşərdi.
Xeyirlə şər xurcun tayıdı.
Könül sındırana da könlün xoş olsun de.
Göz tökənin gözü tökülər.
Gözlərində qəm yaşı da var, sevinc yaşı da .
Gül bağçadan yara gül göndər, gözləri gülsün.

Gülənlə gül, ölənlə ölmə.
Qəm eləmə, qəmə qərq olarsan.
Qəm yaşı da, sevinc yaşı da sellənər, selə dönər.
Qəm yükü qurğuşun yükündən ağırdı.
Qəmli-ələmli olmaq cana qəsddir.
Nə gözünüz qubarlansın, nə könlünüz.
Nə dərd ye, nə dərd yedizdir.
Rahat adam rahat ömür sürər.
Sevinc qəmdən çoxdu.
Sevincin göz yaşları yanağı daha çox yandırar.
Ürək qəhərlənəndə göz yaşı himə bənd olar.
Ürəyi yumşağın könlü xoş olar.
Ürəyin yükü ağırdı, sən də az yüklə.
Üzü gülməyəni ha güldür, gülməz ha.
Tez minən tez yıxılar.
Tez yellənən, tez hellənər.
Təkcə qəm-qüssədən deyil, sevincdən də ürəkağrıya bilər.
Yaman yaraya məlhəm qoymağın xeyri nə.
Yara var sağalar, yara var qövr elər.
Yetim dərdini içində çəkər, gözündən tökər.
Yetim ağlağan olar.

Yetimlə yetim həmdərd olar.
Yetimin göz yaşları aləmi yandırar.
Yetimin qarnı doysa da, gözü doymaz.
Yetimin qəlbi qəmli, gözü nəmli olar.
Yetimə layla çalma, anası yadına düşər.
Yetimin ana dərdi çarəsizdi.

GÖZƏL VƏ GÖZƏLLİK

Ağıl gözəllik rəmzidir.
Ağlı topuğunda olan gözəldən aralı gəz.
Az sığallan, tumarlan sözə gələrsən.
Atı tumara çək, gözəli sığala.
Bağçanın gözəlliyi gülündə, bülbülündədi.
Bər-bəzək gözəli daha da gözəlləşdirər.
Bulaq da bir gözəldi, qarşısında diz çökür, gözündən öpürlər.
Camal gözəlliyi də yaxşıdı, kamal gözəlliyi də.
Camala müştaq olanda, kamalı unutma.
Camaldan gözəl yaxşıdı, ürəkdən gözəl dahayaxşı.
Cavanlıq gözəldi, qədrini bilənə.
Ceyran səhrada, yaşılbaş göldə gözəldi.
Çiçək çəmində yırğalanır, mamır qayada sırğalanır.
Durna qatarı gözəllər qatarını görəndə qanad saxlar.
Göz gördüyünü, könül sevdiyini istər.
Göz gözəlliyi görməyəndə vay ürəyin halına.

Göz oxşayan təbiət çalınmamış layla, oxunmamış nəğmədir.
Göz sevəni könül də sevər.
Gözəllikdən nə göz doyar, nə könül.
Gözəl olanda gözdən qoyma.
Gözəl olmaq yaxşıdı qədrini bilənə.
Gözəl eldə, gül bağçada gözəldi.
Gözəl görüşəndə, meyvə yetişəndə bal dadır.
Gözəl sözləri gözəllərə deyin, daha da gözəl olsunlar.
Gözəl köçər, gözəllik qalar bu dünyada.
Gözəl gözdə olar, söhbətdə-sözdə olar.
Gözəl gözdə, söhbətdə-sözdə.
Gözəli istəyən çox, qismət birinə.
Gözələ ay da heyrandı, ulduzlar da.
Gözələ baxanın gözləri axar.
Gözələ gül ver, dil vermə.
Gözələm demə, gözəldi desinlər.
Gözəli görən göz nə yatar, nə dincələr.
Gözəli yüzü sevər, birinə qismət olar.
Gözəlin gözünə baxarlar, ağbirçəyin sözünə.
Gözəlliyi görməyən gözəli də görməz.
Gözəli görüncə, vətəni ölüncə sevərlər.

Gözəli qəlbində saxla, sözündə yox.
Gözəli görmək behişti görmək kimidi.
Gözəlin seyrangahı bağdı, bağatdı.
Gözəlin baxışı canlar alar.
Gözəlin könlünü al, könüldən salma heç vədə.
Gözəlsiz balınc, igidsiz qılınc nəyimə gərək.
Gözəllikdə gözəli görmək gözlərə nur, qəlbə fərəhdi.
Gözəlliyi görməyən iki gözdən kordur.
Gözünü itirəndə gözəl də itir, gözəllik də.
Hər gözələ nə meylini sal, nə könül ver.
Xəncər çıxar qan olar, gözəl görünər can alar.
İncə belli, zərif telli gözəllər gözə görünməz.
Qaş gözün ayparasıdı.
Qızın camalı kimi kamalı da gözəl olar.
Qurban qara gözə, təşrif buyur bizə.
Maral dağlarda gəzər, ceyran səhrada, durna göylərdə.
Oğrun baxma, yandırıb yaxma, gözəlim!
Sağlamlıq da bir gözəllikdi.
Səhra gözəli ceyranı qorxutma, bağrı qan olar.
Səliqə-sahman bir ayrı gözəllikdi.
Tanrı gözəldi, gözəlliyi də sevəndi.

Yaraşıqlı at gözəl kimi sığal sevər.

Yaşılbaş göllərdə üzər, ceyranlar düzlərdə süzər.

ƏZƏLİ, ƏBƏDİ MƏHƏBBƏT

Ağırdı yar ayrılığı, betərdi diyar ayrılığı.
Atı minərlər, yarı sevərlər.
Atı minməyə, yarı görməyə tələs.
Ay camal ayı, gül camal gülü sevər.
Ay camalla ay işığında görüş.
Bağça barı ilə, gözəl yarı ilə.
Bağçada yar eşqi ilə bitən gül-çiçək, solmaz-saralmaz, ətirli olar.
Baharla sevgi əkizdi.
Baldan şirin dodaqdı, dildi.
Başqasına uyma, səni sevəni sev.
Bəy evin yaraşığı, gəlin evin işığı.
Bir qədir bilənim, bir qəlbdən sevənim ola.
Bulaq gözəllər yığnağıdı, igid, pusquda dur.
Bulağın gözündən öpmək, gözəlin gözündən öpmək kimidi.
Bülbül ağlar gül eşqiylə.
Bülbül güldən kam almadı, ölənəcən ağladı.
Bülbül də yaz eşqlidi, gül də.
Bülbülü güldən ayırsan qiyamət qopar.
Bülbüldən küsən gül tez saralar-solar.

Bülbülün gül sevgisi Əsli-Kərəm sevgisindən azdımı?
Bülbülsüz gül, gülsüz bülbül yaşamaz.
Canana can ver, yaralıya qan.
Canı sevən cananı da sevər, cahanı da.
Cəllada nə etibar, baş da kəsər, göz də çıxarar.
Ceyran səhra gözəli, maral dağlar yaraşığı.
Çinar altında yarla görüşəndə yarpaqlar çəpik çalar.
Dar gündə, dar ayaqda dərdini yara söylə, yara de.
Dəli eşqi axtar gözlərin qarasında, ulduzların arasında.
Dəli eşqə nə qoruq-qaytaq.
Dəli eşq şimşək kimidi, vurdumu vuruldun.
Dəli eşqin sevinci də, kədəri də şirindi.
Dəli sevgi insanı dəli eylər.
Dəlicəsinə sev, ancaq dəli olma.
Dəlicəsinə sevən ya Leylidi, ya Məcnun.
Dəryadan dərin, səmadan ucadı məhəbbət.
Dərya kamallıya dərya camal qismət ola.
Dəymə-düşər sevginin axırı yoxdu.
Dünyada sevib-sevilməkdən gözəl nə var ki?!

Dünyanın sonu olmadığı kimi, eşqin də sonu yoxdu.
Eşq nə öldürər, nə dirildər, ölümcan eylər.
Eşq dəlisi ağlayar da, gülər də.
Eşqi qiyamətə qədərdi.
Eşq gözə görünməz, qəlbdə gizlənər.
Eşq sönəndə həyat da sönür.
Eşq sevdası nə bitər, nə tükənər.
Eşq dəlisinə dərya da dayazdı.
Eşq yoxsa, dünya da yoxdu.
Eşqə düşənə ya dəli, ya divanə deyirlər.
Eşqə düşən ağlamaz, sevinər.
Eşqə düşənin ürəyi intizarda, gözləri yolda olar.
Eşqə düşənlərin bəxti açıla, yığvalı gülə.
Eşqə düşən gözəl, eşqini gizli saxla.
Eşqə düşənin ürəyi səksəkədə, gözü yolda, qulağı səsdə.
Eşqə düşənin çarəsi eşqə salandadır.
Eşqə sadiq, ilqara düz insanlar elə baş ucalığıdı.
Eşqə salan gözlər bir gün məni, bir gün yarı ağladar.
Eşqə düşən xoşbəxt, eşqdən düşən bədbəxt olar.
Eşqə düşənə nə boran, nə qar.

Eşqin acısına da qurban, şirininə də.
Eşqin cəfası da səfası qədər şirindir.
Eşqin cəfası şirin, vəfası şirin.
Eşqin tilsiminə düşənlər dəli, divanə olar.
Eşqə düşən gözəl, eşqini gizli saxla.
Eşqə düşənin ürəyi səksəkədə, gözü yolda, qulağı səsdə olar.
Eşqə düşənin çarəsi eşqə salandadır.
Eşqə sadiq, ilqara düz gözəllər elə baş ucalığıdı.
Eşqə salan gözlər bir gün məni, bir gün yarı ağlayar.
Eşqə düşən xoşbəxt, eşqdən düşən bədbəxt olar.
Eşqin şamı məzarda sönər.
Eşqin son mənzili qəbrə qədərdi.
Eşqin ağıllısı, dəlisi var. Ağlayanı, güləni var.
Eşqin dəryası dərin, səhrası sonsuz.
Eşqsiz həyat nəyimə gərək?
Eşq üstə qurulan dünyanın sonu yoxdu.
Eşqi sönən dünyadan küsər.
Eşqin yaşı dünyanın yaşı qədərdi.
Eşqli qıza bəxti qara demə, qəlbi sınar.
Eşqli adam yaraşıqlı görünər.

Eşqsiz həyat nəyimə gərək?
Eşqsiz dünya nəyimə gərək.
Görüş dəmində baxt da gözəldi, yar da gözəl.
Görüş də gözəldi, barış da.
Göz gördüyünü, ürək sevdiyini söylər.
Gözə gələn sevgi ürəyə tez köçər.
Gözəlin süzgün baxışı qəlbə süzülər.
Gözəlin gözləri güləndə, yanaqları allananda igidin qəlbi eşq atəşində yanar.
Gözü göyçəyin yanağı da göyçəkdi, dodağı da.
Gülü yar döşünə, qılıncı igid belinə taxar.
Gülün qədrini gül becərən bilər.
Heç bülbülsüz gül açarmı? Açsa da ətirsiz olar.
Həmdəmi olanın nə dərdi, nə qəmi.
Hər gözələ nə meylini sal, nə də könül ver.
Hər gülün öz bülbülü var.
Həsrət durna qatarının sırasında gedər.
Həsrət uzanar, yara yetişər.
Həyat quran halal süd axtarar.
Xəstə nar istər, gözəl yar.
Xumar gözlər qaynayanda, al yanaqlar titrəyəndə, bal dodaqlar ballananda dünya behiştə dönər.

İki könül bir-birini sevərsə, alan da xoşbəxtdi, gedən də xoşbəxt.
İlahi eşq yalnız tanrıyadı.
İlahi sevgi ilahi sevənlərindi.
İlk eşqin alovu müdam yanar, közərər.
İlk eşqin sehri ölənəcəndi.
İlk eşqin yanğısı qəbrə qədərdi.
İlk məhəbbət yanğısı ürəkdədi, ölənəcəndi.
İntizarla yar gözləyənin ürəyi pır-pır pırıldar.
Könül ver, könül almaq üçün.
Könlü açılmaza könül ver, bəlkə açıldı.
Könülsüz evlənmək, könül sındırar.
Könülsüz ərə getmək gora getmək kimidi.
Könülsüz ərə gedənin günü qara olar.
Könül həmdəmi könlü sevindirər.
Qəlbini oğurlayan yar qənirsizdi.
Qəlbdən sevənin qəlbi gözəl olar.
Qısqanclıq ağlı çaşdırır.
Qısqancın halı müşkül olar.
Qismət ola əhli hala, əhli hal.
Qız sevənin ürəyi nə yatar, nə dincələr.
Qoşa yarıyanlar, qoşa qarıyarlar.
Quru bəydən bəy olmaz, dul qadından gəlin.

Məhəbbət bir yanğıdı, həsrət bir yanğı.
Məhəbbət bağlı boğçadı.
Məhəbbət həm ağrıdı, həm yanğı.
Məhəbbət ağıllı olduğu qədər də ağılsızdı.
Məhəbbət gözdən, ismət üzdən bilinər.
Məhəbbətin dili lal, gözləri qəmli olar.
Məhəbbətin binası ürəkdir, ürəyin dünyası məhəbbət.
Məhəbbətin nə əzəli, nə sonu.
Nakam eşqin dağı ağlayan olar.
Nə dünyanın, nə də eşqin sonu var.
Nə yardan küs, nə yarı küsdür.
Nə yardan keçərlər, nə eldən.
Nə eldən ayrıl, nə yardan.
Nə yardan yaralı ol, nə eldən aralı.
Nə yarsız qal, nə elsiz.
Ovu bərəsində, yarı vədəsində.
Öp yar gəzən cığırları, izləri.
Öpmək başqa, öpüşmək başqa.
Öpmək ehtiramdı, hörmətdi. Öpüşmək sevgidi,məhəbbətdi.
Pərvanədi, divanədi gülə bülbül.
Röyada yarı görmək nə gözəl, itirmək nə dəhşət.

Sazı saznan, qızı göznən alarlar.
Sev ölənəcən, sevil ölənəcən.
Sevgi harda, həyat orda.
Sevən qızın gözləri yolda, qəlbi intizarda olar.
Sevən ürək həmişə cavandı.
Sevən qəlbə nə qoruq, nə qaytaq.
Sevənin nə gözü yatar, nə ürəyi dincələr.
Sevgililərin görüşü mənəvi ucalıq, dünya tamaşasıdı.
Sevgi ürəyi göynədər, qəlbi sevindirər.
Sevgisiz ürək nəyimə gərək.
Sevgi intizarı artdıqca şirinləşər.
Sevginin göz yaşları ürəyi üşüdər.
Sevgiyə nə qoruq, nə qadağa.
Sevmək başqa, sevilmək başqa.
Sevmək də gözəl, sevindirmək də gözəl.
Səhralar eşq divanələri yaradıb.
Səfalı dağlar, vəfalı yar kimidi.
Şeir, musiqi olmasa sevgi tükənər, məhəbbət ölər.
Təbiəti gözlə, gözəli ürəklə sev.
Təmiz əməl sahibi təmiz eşqli olur.

Ülvi hisslərin şam-çırağı, həm də eşqdi, məhəbbətdi, sevgidi.
Ürək açа bilməyən sevgi dupduru, tərtəmizdi.
Ürəkdən sevən, ürəyini sevər.
Ürəksizə ürək verməyə dəyməz.
Vəfa əhli səfa əhli olar.
Vəfalını nə gözdən qoy, nə könüldən.
Vüsal qiyamətə qalsa, vay qopar.
Yanaqda xal qiyamət eylər.
Yar eşqiylə tikilən evin işığı gur yanar.
Yar gözləyənin intizarı ah olur, aman olur.
Yar gözləyən gözlər himə bənd olar.
Yar görüşə gəlməsə alışarsan, yanarsan, canından oysanarsan.
Yar yara, bülbül gülə həsrət qalmasın.
Yara həsrət, elə həsrət kimidi.
Yardan yara almaq qılınc yarasından betərdi.
Yarı görmək istəsən, çeşməyə gəl.
Yarı yardan ayıran cəhənnəm odunda yanar.
Yarın qədrini bil, yarsız qalarsan.
Yarın qədrini yarsız qalanda bilərlər.
Yaraşıqlı atı yaraşıqlı oğullar minər.

Yardan cavab alan yerə diz çök, eldən savab alan yerə səcdə qıl.
Yarı da ilqar yaşadar, eli də.
Yar sevənə ya dəli, ya divanə deyərlər.
Yar alması bal dadar.
Yar gözləyənin ürəyi uçunar.
Yar gözləyənin gözü də, könlü də yolda olar.
Yar gözləyənin gözləri kiprik döyər.
Yar ol, xar olma.
Yar görəndə göz gülər, ürək sevinər.
Yar yarından yarıyanda dünya cənnətə bənzər.
Yarı dar günə dayaq, gen günə həmdəm bil.
Yarla küsüb barışmaq həm şirindi, həm acı.
Yarla olan diyarla da olar.
Yara həsrət, elə həsrət.
Yara könül vermək, yardan könül almaq nə gözəl!
Yara yalvarma, yara yar ol.
Yara yar - yar oxuma, can-can oxu.
Yarla barışanın həyacanı yoxa çıxar.
Yarsız nə halım, nə əhvalım?
Yarsız pərişan olar könül.
Yarsız nə günüm, nə güzaranım?

Yada könül vermə, yara könül ver.
Yanaqda xal qiyamət eylər.
Yara həsrətin yarası sağalmaz.
Yarı əldən, diyarı gözdən qoymazlar.
Yardan küsən qovrula-qovrula qalar .
Yaşa eşqlə, yarat eşqlə.
Yazan başqa, yozan başqa.
Yaz nişan vaxtıdı, toy payız.
Yuxuda yarı görmək gözəl, itirmək məyusluq.
Yumşaq yastıq gözəldi, yanında yarın olsa.

DOST HARA, DÜŞMƏN HARA

Aqillər dostu da, düşməni də yaxşı tanıyarlar.
Bəd sifətlər, bədrəng olar.
Bəd əməl bədbəxtliyə aparar.
Boğazın kəndirə keçəndə ha çabala, ha çırpın, ha özünü döy, ha özünü söy.
Dağların etibarı nə pozular, nə yozular.
Dillə dostluq edənə dil dostu deyərlər.
Dost dosta arxadı.
Dost qazanmaq asan, dostluq etmək çətin.

Dost baxışı ürəyə məlhəm, düşmən baxışı xəncər kimidi.
Dost qəlbdə qalandı, qalanları yalandı.
Dost uzaqlaşanda düşmən üstünə ayaq alar.
Dosta ürək qızdır, ürək aç.
Dosta gələn qadanı can ağrısı bilərlər.
Dosta hörmətin, düşmənə nifrətin güclü olsun.
Dosta dost mehriban arxa, düşmənə amansız qənimdi.
Dosta can verərlər, mərdə qan.
Dostunu, düşmənini tanıyan ağıl dəryası olar.
Dostu çox olan dostsuz qalar.
Dostu dar günündə sınarlar.
Dostluqda yalan bağışlanmaz.
Dostluq edən ölçü-biçini bilməlidi.
Dost qazanmaq çətin, düşmən olmaq asan.
Dostun xeyrindən az götür, şərindən çox.
Dostda nöqsan axtarsan, yad olar səndən.
Düşmənə baş əymə, başını əy.
Düşməni unutma, unutdur.
Düşmən qarşısında əlinin arxasını yerə qoyma, yumruq göstər.
Düşmənin qarşısında nə əyil, nə sın.

Ehtiyatlı olmayanın sabahı qaranlıq olar.
Etibarsız dostdansa, etibarlı düşmən yaxşıdı.
Etibarsız, etibarı neylədin?
Etibarsıza könül vermək yüz ilin əzabından betərdi.
Ermənin göz yaşlarına inanma, yalandı.
Ermənıyə bel bağlama, belini sındırar.
Erməni qorxaqdı, qan gördü, öldü.
Əsil dostun özü də, sözü də bütövdü.
Gözün düşməni könlün də düşmənidi.
Haşa heyvərə əlindən.
Hər yetənə nə sir ver, nə könül.
Xəyanət edən xəyanət görər.
İlana dəyməyənə ilan dəyməz, yan keçər.
İlanı vuranı ilan çalar.
İlanın yuvasına toxunma, səni tas-tas edər.
Kişinin dostu da olar, düşməni də.
Qan barışığı uzun çəkər.
Qana batan ölümünü gözlər.
Qapı bağlayanın qapısı bağlanar.
Qapıya gələnə xoş gəldin elə.
Qeyrətsiz qeyrətdən dəm vurar, namussuz namusdan.

Qəlbi xain baxışından bəllidi.
Qılıq qatan rahat yatar.
Qınağa çəkmə, sınağa çək.
Qoru həyanı həyasızdan.
Mərdimazar dostluğu pozar.
Nə dara düş, nə darda qal.
Oyunbaz hiyləsinə özü düşər.
Şərə düşən başqa, şərə salan başqa.
Şərə salmaq asan, şərdən qurtarmaq çətin.
Şübhəli adamı gözdən qoymazlar.
Tanış çox olar, düşərgə bir, o da dost qapısı.
Ürək qızdır dosta, yara.
Vəfalı yar sevənin ömrü uzun olar.
Vəfasıza bel bağlayanın axırı yoxdu.
Yada salan yadda qalar
Yağı düşmən hiyləgərdi, dara düşsə ayağını yalayar.
Yağıya dağ çək, ürəyin soyusun.
Yalançı dostluğun axırı yoxdu.
Yaman yara sağalmaz qövr elər.
Yağıya yazıqdı demə, yazıq günə qalarsan.

TARİXDİ, CƏMİYYƏTDİ

Döyüşə qələbə əzmilə girsən qalibsən.
Güclü müəllimin tələbəsi də güclü olar.
Xarabalıq insanı lal sükuta qərq edər.
Xəyanəti bağışlayanda nə qeyrət.
İtdən qorxma, it sifətdən qorx.
İgidə dağ da, dərə də asan keçiləndi.
Keçmişini bilməyənin nə gələcəyi?
Kök olsa budaq da olar, yarpaq da.
Kökə bağlan, elə söykən.
Kökü sağlam olanın budaqları da sağlamdı.
Kökü dərində olanın başı göylərə dəyər.
Kölgələnmək yaxşıdı, kölgə salmaq baş ucalığıdı.

Qan tökənə qan uddurarlar.
Mənən zənginlik ziyalılarda daha çoxdu.
Müəllim şagirdlərinə şam-çıraq tutar.
Müəllim sönməz məşəldi.
Sərkərin vəfası da, səfası da dağlardı.
Siyasətdə kor olanı ha yedəklə, xeyri nə?
Şah da dünyaya ağalıq etmək istər, sultan da.
Şəhid olmasa, nə qələbə.
Tarix yozulmaz, doğru-dürüst yazılar.
Yaratmaq yaxşı, yaşatmaq çətin.
Yaşını qabaqlayan hünərpərvər olar.
Zamanı qabaqlayanlar müdriklərdi.
Zorla qurulan dövlət tez dağılar.
Zülmlə ucalan saray başa uçar.

NƏSİHƏT, VƏSİYYƏT

Acgözlük sağalmaz xəstəlikdir.

Ağalıq etmək istəyən, nökərçiliyi də bacarmalıdır.

Ağac becərən, bar dərər.

Ağaclar qışda yuxuya qaldı, yazda gözləri açılar.

Ağıl birinci, sonra qılınc.

Ağzına gələni danışma, ağlına gələni danış.

Allahın bir adı səbrdi, səbirli ol.

Almaqla arası olmayanın verməklə də arası olmaz.

Alnı tərlinin ruzusu bol olar.

Arxasını qazan arxasız qalar.

Ara vuran, söz aparıb, söz gətirən yarı yolda qalar.

Atmacalı söz ürək bulandırar.

At minən qanadlı olar.

Ata qarğışı keçəndi, ana qarğışı keçilməz.

Az gileylən, şükr elə.

Badalaq quran, badalağa düşər.

Başdan xarab baş aparar.

Baməzə adamda nə kin, nə küdurət?
Bayatı analı, anasız dünyadı, layladı.
Baş ol, ayaqda sürünmə.
Bəd xasiyyət bəd rəftar olar.
Bəxti yatanın bəxtini qaldır, savab qazan.
Bəzək-düzəyə uyma, ismətlidən yapış.
Böyük olan yerdə yaşamağa nə var ki.
Böyüksüz insanın həyatı müşkül olar.
Bulanan könül, gec durular.
Can şirindi, qədrini bil.
Canı qoru, yıxılsan çətin qalxarsan.
Canına qəsd eləyən ağılsız düşməni sevindirər.
Cəllad baş kəsər, oğru cib.
Cəlladda nə insaf, nə mürvət?!
Ciddi işi ciddi adama tapşır.
Cığallığı at, məsləhətə yat.
Çalış, vuruş qara günün ağ gün olana qədər.
Çoban qoyuna gedər, naxırçı mala.
Dağ selinin qarşısı alınmaz olar.
Dağ dağa, el elə söykənər.
Dağ dağ arxasında, el dağ sinəsində qərar tutar.
Dağlar şairdi, şeirdi, nəğmədi.
Dağların başı qarlı, ətəyi bağlı, barlı.

Dam dirəklə, insan ürəklə seçilər.
Dar günün adamı ol, gen gündə olmaya da bilərsən.
Deyingənə qoşulma, qoy deyinə-deyinə qalsın.
Dəbbə dağarcığı söz güləşdirər, güc güləşdirməz.
Dəhşətlərə döz, Tanrı betərindən saxlasın de.
Dəhşətli hadisədə iradə nümayiş etdir, sarsılma.
Dələduz tez tələyə düşər.
Dəliyə qız, dələduza üz verməzlər.
Dəli inək südünü tökər.
Dəyyus da, haramzada da bir bezin qırağıdı.
Diqqətcil insan, hörmətcil olar.
Dilənçini boş qaytarma, qarğıyar.
Dili acı olanın, günü də acı olar.
Diribaş ol, dikbaş olma.
Diz çökməkdənsə, ayaq üstə ölmək yaxşıdı.
Doğru oğrunu tanımaz.
Dönəlgəsi yaxın adamın ürəyi təmizdi.
Döyüləni döy, döyəni döyəmmədiyinə görə.
Duymayanı duydurmaq müşküldü.
Dünyaya ha baş vur, baş çıxara bilməzsən.
Düzlük gəzə-gəzə düzdə qaldıq.

Ehtiyatı əldən verən əldən qalar.
Ehtiyatsızlığın xətası çox olur.
Elsiz-obasız dağlar ağlar qalar.
Ev-eşiyi təmiz saxla, qonaq gələr.
Ədalətdən abadlıq, zülümdən xarabalıq qalar.
Əksən bitər, kəssən itər.
Əqli şikəstin, qəlbi də şikəstdir.
Əqidəli insan nə əyilər, nə sınar.
Əqidəli ölər, əqidəsindən dönməz.
Əl tutarıq, əl uzatmarıq.
Əli qabarlının, əli açıq olar.
Əli uzunun, dili gödək olar.
Əmək itirənin, əməyi itər.
Əmin-amanlıq işığı behiştə bənzər.
Əsl dost özü bütöv, sözü bütöv olar.
Əyilə-əyilə əyri qalarsan.
Əyri yola qurşanmaq asan, çəkinmək müşkül.
Əyrini qəbir də düzəltməz.
Fikir karvanı mənzilə tez çatar.
Xain baxışından bəlli olar.
Xalı başqa, xalça başqa.
Xeyirxahın işi avand olar.
Xeyrə çalış, şər ömrü üzəndir.

Gedənin dalınca su at, gələnə xoş gəldin elə.
Gəzəyən başqa, söz gəzdirən başqa.
Görülmüş işdən gül ətri gələr.
Görməmiş baxışından bəlli olar.
Göydə Allaha, yerdə ağsaqqallara üz tut.
Gözdən iraq, könüldən də iraq.
Gözü kölgəlinin halı pərişan olar.
Gözü kölgəlinin ürəyi ləkəli olar.
Gözün gördü, ürəyin tutdu buraxma.
Göy baş-ayaq, yer alt-üst olanda qiyamət qopar.
Göynəmək başqa, göyərmək başqa.
Göynən gedən, göydə qalar.
Göz yolda, ürək intizarda usanar.
Güclünün meydanında qılınc oynatma, qınınaçəkil.
Günün ağ olsun da var, günün qara olsun da.
Haqqını tələb et, deməsinlər ki, acizsən.
Haqsızlığa dözməyənin halı vay olar.
Hamıya bir gözlə baxanın canı sağlam olar.
Harda məsləhət orda uğur.
Haşa bədnəzərdən, mərdiməzardan.
Heç kəs nə gözü yolda, nə qəlbi darda qalmasın.

Heç kəsin bəxt ulduzu sönməsin.
Hər dərdi qəlbə yük eləmə.
Həmdəmxəyalın sevgisi həmdəmxəyal olar.
Hikmətli söz qəlbə nüfuz edər.
Hikmət başqa, ismət başqa.
Hörmət elə hörmətsizə də.
Höcət diri gözlü ölümdü.
Höcət, gəl dalaşaq, deməkdi.
Hökmdarsız ölkə talan olar, dağılar.
İmkan başqa, arzu başqa.
İnamla, inadla böyüyən yetim hünərli olar.
İnsan həyatının şam-çırağı tərbiyədir.
İsti xamralını pendirlə dürmək elə, ağzın dadagəlsin.
İşi səliqəli görənin libası da səliqəli olar.
İti olmayan çobanın qoyunu canavara qismətdi.
Kasıbın ürəyi böyük, çörəyi şirin olar.
Küsmək qanqaralığı, barışmaq gözaydınlığı.
Qabaqdan atılan daş qaşqaya dəyər.
Qalan sənətdi, sənətkardı.
Qan-qan demə, can-can de.
Qanana məclisin nə yuxarısı, nə aşağısı?
Qaragün qara günə qalar.

Qədərində gül, qədərində ağla.
Qanmayana hoş da birdi, toş da bir.
Qapına gələni qarşıla, xoş gəldin elə, boz üz göstərmə.
Qeybət eləmə qeybətcil olarsan.
Qeyrət dağlar kimi əzəmətlidir.
Qəlbi ləkəlinin gözü kölgəli olar.
Qəlbi bulandırma, durult.
Qıjanma, qıjandın vur.
Qışda dağ ətəyi, yazda bağ ətəyi.
Qızıl dirəkdənsə, qızıl bilək istə.
Qızıl payız qızıl toy libasında.
Qonşucanlı olmaq gözəldi, qonşuyla qanlı olmaq kədərdi.
Qorxu içində yaşayanın ömrü gödək olar.
Qoyma kimsə üstünə ayaq alsın.
Qurdlu adam qurdlu ağac kimi içindən çürüyər.
Quşbaş da yazıq, huşbaş da yazıq.
Qürbət dərdi nə sağalar, nə tükənər.
Kökdən köklənən ucalar.
Lal axan su sərin olar, ismətli qız gözəl gəlin.
Mərdimazar xətakardan betərdi.
Mərdi mərd arxasında gör.

Mərdlərə hörmət, namərdlərə nifrət olar.
Məsləhəti qulaq ardına vermə, peşman olarsan.
Məsləhətə yatan çox şey qazanar.
Məsləhətə yatmayana nə məsləhət.
Məsləhətə baxmayanın nə qeydinə qal, nə halına yan.
Murdarı ha suya sal.
Nadürüst düzəlməz.
Namərdə əl verən də namərddi.
Nə qürrələn, nə yellən.
Nə qəmə qərq ol, nə dəmə.
Nə gözə gəl, nə dilə-dişə.
Nə arvadın, nə atın cilovunu buraxma.
Nə sözə get, nə söz elə.
Nə söz güləşdir, nə söz dalaşdır.
Nə üz döndər, nə üz göstər.
Nə zalım ol, nə zəlil.
Ocağın keçsin demə, ocağın yansın de.
Oğru doğru kimi danışar.
Sağlam ağacın meyvəsi çürük olmaz.
Sahibinə hürən iti saxlamazlar.
Sahibsiz evin işığı gəlməz.
Sahibsiz it oğru olar.

Səbr ağacı hər bir ağacdan ucadı.
Səbirli olan tədbirli olar.
Səliqə-sahmanlı ev gül-çiçəyə qərq olar.
Sırtıq da, gözə soxulan da eyni şeydi.
Söz aparıb-gətirən küpəgirən qarı kimidi.
Şirdən şir, tülküdən tülkü olar.
Şahı görmək üçün vəzirə baş əy.
Şeir yazmayandan nə qazaxlı.
Şeir, musiqi ruha qidadır.
Şərə salma, şərləyərlər.
Şərləmə, şərə düşərsən.
Şirin candan heç nə əsirgəmə.
Tamahını cilovlamayan qəbrə tez gedər.
Tamahkara nə dost, nə tanış.
Tez alışan tez sönər.
Tez püskürən tez sönər.
Tənəli sözün tənəli də cavabı olar.
Tərbiyə dünyaya gələndən, dünyadan köçənəqədərdi.
Tərbiyə görməyəndən tərbiyə gözləməzlər.
Tərbiyəlini tərbiyəsizdən qoruyaq.
Toya çağırarlar, vaya gələrlər.
Toydan qal, yasdan qalma.

Töhmət tənbehdən ağırdır.
Uşaq olmamış, paltar biçmə.
Ürək üşüyəndə gözlər yaşarar.
Ürəyi az yüklə, yata bilər.
Üz qaraltma, üz ağart.
Üzü çirkinə, içi çirkin deməzlər.
Üzü dönənin çırağı sönər.
Üzüyola olanın sözü də yola olar.
Vaxtını itirən, bəxtini itirər.
Varlı dövləti, varı ilə, kasıb etibarı, ilqarı ilə.
Varlı toxundan ölər, yoxsul acından.
Yaltaq başqa, şıltaq başqa.
Yaltaqların dünyası da yaltaqdı.
Yalançı göz yaşları yalançı gülüş kimidi.
Yamana yanma, yanana yan.
Yandırmaq üçün yanasan gərək.
Yaxşıyam de, yaxşılaş.
Yaxşı qonşu olsan, qonşun da yaxşı olar.
Yanqıra baş qoşanın başı ağrıyar.
Yarpaq tökümü qəm havası çalar.
Yarımayan qarımaz.
Yaz yaşa, naz yaşa.
Yerli-yataqlı adamın qonaq-qarası çox olar.

Yuxarı qalxanda aşağı düşməyi də düşün.
Zalım harda, zülm orda.
Zəhər tuluğu canı candan salar, vay günə qoyar.
Zəhmət harda, şöhrət orda.
Züryətin gələcəyi tərbiyədən asılıdır.

MÜDRİKLİK QALAR BU DÜNYADA

Acını udanın ağzı bal dadar.
Ağsaqqal yaşa dolduqca müdrikləşər.
Ağ örpəyə bürünən dağlar daha gözəl görünər.
Arxaya bax qabağı görmək üçün.
Alim yanında dilini, sənətkar yanında əlini saxla.
Alim gecəni-gündüzə qatar.
Alim köçəndə elmin beli sınar.
Alim ağlı-kamalı, hərtərəfli biliyi, güclü məntiqi, dərin müşahidə qabiliyyətilə seçilər.
Alim xocadı, əfəndidi, ucadı.
Alim gecələr yuxusuz, gündüzlər fikirli olar.
Alimə hörmət insanlığa hörmətdi.
Alim bəşəri əməliylə ölməzləşər.
Alim ixtiralarında, kəşflərində yaşar.
Alim məqsədinə çatmayınca nə yatar, nə dincələr.
Alimə dağ da baş əyər, dərə də.
Alimin ucalığı dövlətə şərəfdir.
Alimlər ali insanlardı.
Vəzifə gəldi-gedər, alimlik qiyamətə gədər.

Alimin əsərləri qalar, boşboğazın nəyi?
Alim gələcəyə işıq saçar, nur paylayar.
Alim əsərləri ilə ucalar.
Alim də müqəddəsdi, pirdi, ocaqdı.
Alim əsərlərilə xalqına şöhrət gətirər.
Böyük insan böyük zəka sahibidir.
Can de, çor deməyin faydası nə.
Dağlar qədər vüqarlı, bağlar qədər nübarlı ol.
Dağların başının çalması dumandı, qardı.
Elmdə acgöz alimin uğuru çox olar.
Əfəndilər, xocalar hamıdan ucalardı.
Xəbərdar ol, xəbər vermə.
İxtiranı, icadı alimdən gözlə.
Mədəniyyəti yüksək olanın mənəviyyatı də yüksək olar.
Mərhəmət sahibi rəhmət qazanar.
Məsləhət verən də, məsləhət alan da ağıllı insanlardı.
Müdriklər dağlar qədər əzəmətli, vüqarlıdı.
Müdriklərin məzarı ziyarətgah olar.
Müdrik kəlam müdriklərə məxsusdu.
Ölkə alimilə tanınar.
Sənəti sənətkar yaşadar.

Soraqla dünyanın o başına çatmaq olar.
Ziyalıda olan hisslər daha güclüdü.
Ziyalılıq şərəfli olduğu qədər də çətindir.

AĞIL, ZƏKA OLAN YERDƏ

Ağı qaradan seçən, peşman olmaz.
Ağılsızdan ağıl ummaq ağılsızlıqdı.
Ağılsız başçı eli ya yelə verər, ya selə.
Ağıldan kəmi qınamazlar.
Ağsaqqala hörmət elə, qarasaqqala yol göstər.
Aqil olan heç nəyi gözdən qaçırmaz.
Cahil başqa, alim başqa.
Dəmdəməkinin ağlı kəm-kəsirli olar.
Diribaşa, gözüaçığa can qurban.
Fərasətli oğul yerişindən bəllidi.
Gic ayrı, bic ayrı.
Gönü qalına yaz da birdi, qış da bir.
Gözü açığın işi rast gələr.
Güc yaxşı, ağıl aləm.
Gücü güclə sındırarlar.
Harda məsləhət orda uğur.
Hər yuxu yozana münəccim deməzlər.
Heç vaxt çaşma, çaşdır.
Heç kəsə dərd vermə, dərdin al.
Hərdəmxəyalın nə behi, nə bazarı.
Hər şeyi ürəyinə salma, səbirli ol.

Xarabalıqda nə bağ, nə bostan.
İnsanın yaraşığı ağlıdı, kamalıdı.
Qiyafə başqa, əqil başqa.
Mürvət başqa, mürtət başqa.
Nə kor ol, nə lal.
Ürəyi düz olanın əhdi tez hasil olar.
Vay o günə ki, ürək də xəstədi, dilək də.
Zatı qırıqsa ipi də qırıq olar.

SÖZÜMÜZ, SÖHBƏTİMİZ

Acı dil zəhər tuluğudu.
Acı dil bal yeməklə şirin olmaz.
Acı dil ilan kimi sancar.
Acı söz qəlbi tikanlar.
Ağız olmasa dil çılpaq qalar.
Aşığın əli sazlı, dili sözlü olar.
Az danışan, naz danışar.
Babəkin qolunu kəsdilər, dilini kəsə bilmədilər.
Baldan şirin dodaqdı, dildi.
Bıçaq yarası tez sağalar, söz yarası çox çətin.
Çatını uzun, sözünü gödək elə.
Çörək andımız, müqəddəs kəlamımız.
El aşığı məclislərin yaraşığı olar.
Danışığını bilən oturuşunu, duruşunu da bilər.
Dil xalqın ürəyinin dilmancıdır.
Dil tap, nə dilləş, nə höcəş.
Dil qılınc qədər kəsərlidi.
Dil ötəndi, dodaq tərpənən.
Dil də şirindi, dodaq da.
Dili uzundan aralı gəz .

Dil yarası gec sağalar.
Dili sürüşkənlə, ayağı sürüşkənin nə fərqi.
Dilini içinə salandan kişi olmaz.
Dilinin altına şəkər qoy, zəhər qoyma.
Dilin nə gödək, nə uzun olsun.
Göz sərrafı başqa, söz sərrafı başqa.
Hikmətli söz qəlbə nüfuz edər.
Mahnıda söz-səsə, səs də sözə möhtacdır.
Məlahətli səs ruhu oxşayar.
Nə yazıq ki, dili acı, hünəri də yox.
Nə çox danış, nə çox eşit.
Özünün yerini bilən, sözünün də yerini bilər.
Saz dinəndə, söz də dinər.
Saz imandı, ocaqdı, pirdi.
Sədəfli saz gözəldi, yar sinəsi də.
Səmimi söz səmimiyyətdən doğar.
Sənətkarı qoru, sənəti yaşatmaq üçün.
Sinədəftərin sinəsi qaynar bulaqdı, axdıqca axar.
Sirrini açma, dilini qıfılla.
Söhbət yolu yorar.
Söz ötürmə, söz götür.
Söz sözə söykənər.

Söz var öldürər, söz var dirildər.
Söz götürənin ürəyi ağrıyar.
Söz güləşdirmə, güc güləşdir.
Sözünü bilməyən, özünü də bilməz.
Söz gəzdirmə, göz gəzdir.
Söz var dağa qaldırar, söz var dağdan endirər.
Söz var ürəyə sığal çəkər, söz var ürəyi tikanlar.
Söz-sözə söykənər.
Söz kəsəni qılınc kəsməz.
Söz sərrafı ağıl dəryası, sözbaz boşboğaz.
Söz yerində kəsərlidi.
Sözgötürən, sözötürən qələbə qazanar.
Sözbaza söz çatdırmaq olmaz.
Sözdən söz götür, gözdən göz al.
Sözbaz olma, söz sahibi ol.
Şair az olanda yaxşı şeir çox olar, şair çoxolanda yaxşı şeir az olar. Bəstəçi də belə, oxuyan da belə, çalan da belə.
Tikanlı söz qəlbi tikanlar.
Ürəkdən gələn söz ürəyə tez yol tapar.
Yaman söz güllə yarasından betərdi.

HAQQ, ƏDALƏT OLAN YERDƏ

Arxa duranlar az, arxadan vuranlar çox.
Azad ol, özbaşına olma.
Azadlığı qazanarlar qol gücünə, zor gücünə.
Azadlıq unutdurar dərdi-möhnəti.
Azadlığı verməzlər, qazanarlar.
Bəduğur nə yarıyar, nə yarıdar.
Düznəqulu düzə çəkər.
Elə qul ol ki, elin ağası olasan.
Haqdan gələn haqqa qovuşar.
Haqqın şamı sönməz.
Haqqını tələb etməyənin haqqı tapdanar.
Harda zəhmət, orda hörmət.
Hamı xalqlar azad yaşasın, biz də onların arasında.
Harda əmin-amanlıq, orda bolluq, firavanlıq.
Həm təbibdi, həm məlhəmdi azadlıq.
Hirsli adamın dönəlgəsi yaxın olar.
Xalqın gözündə ucalmaq şöhrətdi, xalqın gözündən düşmək töhmətdi.
Qaydadı könlü bulanıq könül bulandırar.
Qəlbdən yanmaq insanlıq əlamətidir.

Siyasət başqa, səmimiyyət başqa.
Siyasətin keçilməz yolları var.

HƏQİQƏT ACI OLDUĞU QƏDƏR DƏ ŞİRİNDİR

Alim insaflı, zalım kəmfürsət.
Canavar nə bilir ki, inək boğazdı.
Elm dəryası dəryadan dərindi.
Gün keçdi, kin keçdi.
Günah oxda yox, ox atandadı.
Güclə alınan, güclə saxlanar.
Həqiqətin kəsəri iti olar.
Həqiqət acı olduğu qədər də şirindi.
Həqiqəti xalqın içində axtar.
İt yal verənə şırvanar.
Küsən tez, inciyən gec barışar.
Qan qaldıqca qaralar.
Qapalı adam qorxulu olar.
Məzəmmət eləyən çox, yol göstərən az olar.
Səmimi olan səmimiyyət görər.
Sərtlik pərtlik gətirər.
Selnən gələn, selnən gedər.
Siyasətdə qılınc oynadan məğlub olar.
Simasını itirən, iltimasını da itirər.
Söyüd ağacından nə balta sapı.

Söyüd ağacını ha sula, nə düşəsidi?
Sürcək olma, gerçək ol.
Suyun başı kəsiləndə zəmidə vay qopar.
Susuz körpünün altı da birdi, üstü də.
Uzaq qürbət yaxın məzar kimidir.
Uzun kösöv əl yandırmaz.
Ümidini itirən həyatını itirər.
Ümidsizlikdən qorxu törər.
Ürək-dirək yaxşıdı, qəlbdən kömək başqa şeydi.
Ürək közərməsə, camal qızarmaz.
Ürək açıq süfrədi, kimə açdığını unutma.
Ürəyimin yarısı burda, yarısı o tayda.
Ya Sibir, ya qəbir, fərqi nə.
Yazığın gələ-gələ yazıqlaşma.
Yaltaqlıqla məddahlıq əkizdir.
Yerdən çıxan qızıl yerə qismət olar.
Yerini bilməyən yerişini də bilməz.
Yersiz gülən, yüngül ayaq olar.
Yıxılanda uf demə.
Yol yolçusu ilə, el elçisi ilə.
Yolları yola dola ellərə çatmaq
üçün.

TƏHSİLİN DAVAMI ELMDİR

Alim elmiylə, əməliylə sayılar, seçilər
Alimin ömrü əsərlərinin ömrü qədərdi.
Elin nazını çəkənin el nazını çəkər.
Elini tanımayan, evini də tanımaz.
Elmi elmsizə tapşırsan fəlakət olar.
Elmi olmayanın elmə rəhbərliyi dəhşətdi.
Elmin vətəni olmasa da alimin vətəni var.
Elmi nadana tapşırsan günah işlədərsən.
Elmə xəyanət, vətənə xəyanətdi.
Elmə qayğı dövlətə qayğıdı.
Ən böyük elm insanı öyrənən elmdir.
Əzəl tərbiyə, sonra təhsil.
Güclü təhsil güclü tərbiyəyə borcludur.
İnsan kitabı axtarar, kitab da öz oxucusunu.
Kamil alim elm dəryasında üzəndi.
Sənətkar cavan, alim müdrik çağında sevilər.
Sənətkarın cavanlığı, alimlərin müdrikliyi ələ düşməz.
Təhsil beşik nəğməsidir, eşidənə.
Təhsili güclü olanın tərbiyəsi də güclü olar.
Təhsilə xəyanət, xalqa xəyanətdi.
Təhsili olmayan xalqın nə bu günü, nə sabahı?

Təhsili güclü olan xalq yenilməzdir.
Təhsilə qayğı elmə qayğıdı.
Təhsil də mütləqdi, təlim də mütləq.
Tərbiyə harda, təhsil orda.
Ürəksiz oxu ürəksiz sevgi kimidir, nə istisi, nə soyuğu.
Yarımçıq savad, yarımçıq həyat deməkdir.

İŞİNLƏ, ƏMƏLİNLƏ

Abırsızı ha utandır, utanmaz.
Acgözün gözü doymaz ölüncə.
Aciz yazıq olar.
Ağıllıyam demə, ağlını göstər.
Ağlın kəsməyən işə baş qoşma.
Alnı tərlinin işi bəlli olar.
Amandı nə gözə gəl, nə sözə.
Arxa durana arxa dur.
Arsız, pirsizdə nə insanlıq.
Azğın, pozğun eli gözdən salar.
Astagəl asta gedər.
Bacarana baş qurban, bacarmayana daş qurban.
Badalaq vuran, badalağa düşər.
Bar ağacını kəsən, ruzisini kəsər.
Barlı ağac çılpaq olar.
Başdansovdu iş başa uçar.
Bayquşluq edənin qapısına bayquş qonar.
Beli əkində, çini biçəndə.
Bədniyyət bədəməl olar.
Bordaqda bəslənən qoç, ulduza sıçrar.
Borcu qaytarmaq yenidən doğulan kimidi.

Boz ay kimi az qızar, bozar.
Buludun göz yaşları torpağa məlhəmdi.
Cahil niyə adam olarmış?
Candan bezar ah-ufla yaşar.
Canı yanana can yandır.
Ceyranı vuranı vurğun vurar.
Ceyranın balasına qıyan balasız qalar.
Cəfa çəkən səfa sürər.
Cəfəng danışanın ağlı da cəfəngdi.
Cığalı ha başa sal, cığaldı.
Cibəgirənə cibgir, evə girənə oğru deyirlər.
Cib oğrusu cibi aparar, dövlət oğrusu dövləti.
Cin atına minən, tez düşər.
Çay harda, həyat orda.
Çətin ağac çətin insan kimidi.
Çəkilən zəhmətin barı şirin olar.
Çəpəri basan oğrudu, darvazanı açan qonaq.
Çox bilən ol, çox bilmişdik eləmə.
Çörək verənin çörəyi bol olar.
Çörəyi təndir qızaranda yaparlar.
Çörək çörəyə, kərən dirəyə borclu.
Çörək müqəddəsdi ana kimi, vətən kimi, torpaq kimi.

Çörək verənin çörəyi bol olar.
Çörəksiz evə qonaq gəlmə.
Çörəyi itirən çörək tapmaz.
Çörəyin qədrini bilməyən anasının da qədrini bilməz.
Dad yaltaqdan, qorxaqdan.
Dadmaq ayrı, doymaq ayrı.
Dağ vüqarı ilə, bağça barı ilə seçilər.
Dağda gəzər, dəryada üzərlər.
Dam dirək üstə durar.
Dan sökülər, günəş gülər.
Dəlinin sözünün nə dalı, nə qabağı.
Dəryaz olsa, ot biçməyə nə var ki?
Dəyirmanın gözü xırmanda olar.
Dedi-qodu ürək bulandırar, qəlb sındırar.
Dəhşət törədən dəhşət günlərə qalar.
Dələduz elə qara ləkədi.
Dəllal qəpiyinin də qədrini bilər.
Dərd götürənin, söz ötürənindi.
Dərd verən olma, dərd bölən ol.
Dərd verən dərdə düşər.
Dil deyən başqadı, ürək deyən başqa.
Dosta arxa duranlar düşmənlə barışmaz.

Düzə çək, əyriyə əyilmə.
Ev tikənə hörmət, ev yıxana nifrət.
Ev tikənə el kömək olar.
Ev yıxanı el yıxar.
Evsizin nə günü, nə güzəranı.
Ev tikənin qolu güclü, əli qabarlı.
Ev tikənə evin tikilsin deyərlər.
Evi bədnəzərdən qorumaq üçün qapıya at nalı vurarlar.
Evi boş qalanın çırağı yanmaz.
Evi gözəlin, yarı da gözəldi.
Evin qalası darvazadı.
Evlinin evi yaraşıqlı olar.
Əkən, səpən, becərənin güzəranı yaxşı olar.
Əkənin, səpənin, becərənin, biçənin çörəyi bol olar.
Əkərsən, biçərsən. Əkməsən nə biçərsən?
Əkin, səpin, biçin.
Əkini əkin, biçini biçin vaxtında.
Əli qabarlının ürəyi sağlam olar.
Əli əyrinin dili də əyridi.
Əmək itirənin əməyi qar suyuna dönər.
Gec biçilən zəminin xərci, borcunu ödəməz.

Gəzəyən gəlindən nə arvad.
Göz dağlayanı gözü dağlanar.
Göz muncuğu göz qaytarar.
Güclü qan tökən, gücsüz qanı tökülər.
Halallıqla tikilən evin ömrü uzun olar.
Halallıq al, halal olsun.
Haram tikə boğazda qalar.
Haramı qapıya buraxma, buraxdın başın sağ olsun.
Haramzadə, halalzadədən çəkinər.
Haray salma, haraya gəl.
Halallıq alın, halal yaşamaq üçün.
Halallıqla ev tikənə, el kömək olar.
Harda əmək, orda yemək.
Haya gedərlər, küyə düşməzlər.
Hay versən, hay alarsan.
Həddini aşan quyuya düşər.
Həlləhüş tutduğunu bilməz.
Hər havaya oynamazlar.
Hər kəmən atan at tuta bilməz.
Hər kəs öz əməlilə tanınar.
Hər kəs oz işinin qulpundan yapışsa yaxşıdı.
Hər şeyi ürəyə salmazlar, ürək yazıqdı.

Hərəkətini cilovla, yıxılarsan.
Hirsli adam tez alışar, tez sönər.
Hiyləgər qəlbi tez oğurlayar.
Hiyləgəri yanına buraxma, axırına çıxar.
Hoqqabaz nadanı ələ salar.
Höcət adam gəl dalaşaq deyər.
Huş baş, quş başdı.
Xalqın gücü dağ boyda, dərya qədərdi.
Xeyirxahın işi avand olar.
Xeyrə çalış, şər sənin ömrünü üzər.
Xəbərçi ara vuran, xəbər gətirən ara quran.
Xəsis başqa, qənaətcil bambaşqa.
Xəsislə, tamahkar qohumdu.
Xəstə könül qar istər.
Xatabala başa bəla.
Xış torpağı yaralayar, qara kotan qaralayar.
İlan basanı, ilan çalar.
İlanı acışdırmasan höcəşməz.
İlanı ilanbaz oynadar.
İşləməyənin əli boş, üzü qara olar.
İş göstər, söz güləşdirmə.
İş görənin, at minənin.
İşıqlı ev uzaqdan görünər.

İşi vaxtında, vədəsində görərlər.
İşi vədəsində, ovu bərəsində.
İşi bəri başdan təmiz gör, sonra peşman olarsan.
İşi təmiz görən təmiz yeyər.
İşləyən iş, işləməyən bəhanə axtarar.
Kasıbın ürəyi böyük, cibi boş olar.
Kəndirbaz göydə gəzər, kəndir kəsən yerdə.
Kotan işlədikcə parlar.
Kotan nə bilər kəlin çəkdiyini.
Kökdən ayrılan köksüz qalar, eldən ayrılan elsiz.
Qabarlı əllər can sağlamlığıdı.
Qabaqda gedəni öyərlər, dalda qalanı döyərlər.
Qaçanı qovar, uçanı ovlarlar.
Qan barışığı uzun çəkər.
Qanmazı ha qandır.
Qara kotan nə bilir dib kəlinin çəkdiyini.
Qarnın tutduğu qədər ye, gözün tutduğu qədər yox.
Qara işlər qaranlıqda görülər.
Qarınqulu qarnını otarar.
Qarğış qarğıyanın qarğışı qoynuna tökülər.
Qırdım-qaçdı tez ilişər.

Qırmanc başqa, qılınc başqa.
Qılıqlı quzu ikisini əmər.
Qohumcanlının qohumu çox olar.
Qonaq gəlməyən evə Əzrayıl gələr.
Qonaq gözləyən ev yaraşıqlı olar.
Qorxulu adam qorxaq olar.
Qaydadı, alverçi ucuz alar, baha satar.
Qazana, yazana qəbristan da bir tarixdir.
Qədirbilməzin nə qədri, nə hörməti?
Qədərində yeyən, içən sağlam olar.
Qəlbi kövrəklərin qəlbinə dəyməyin.
Qısqanclıq ağlı çaşdırar.
Qıjanma, qahmar çıx.
Qonşu, qonşu olsa günlər xoş keçər.
Qorxu içində yaşamaq ömrü üzər.
Qudurmuş it, quduz canavardan betərdi.
Qurd öz işini görər, itin hürməyi özünə qalar.
Nə cinli ol, nə kinli. Nə üzün qara olsun, nə qəlbin qara.
Nə çaşbaş qal, nə dikbaş ol.
Nə dərd ver, nə dərman.
Nə xeyirdən qal, nə şərdən.
Nəfsi toxun ürəyi sağlam olar.

Nə utan, nə həyasız ol.
Mağar başqa, mağara başqa.
Odla oynayan odda yanar.
Oğurluq mal şirin olar, üstü açılana qədər.
Oğru tutulana qədər doğrudu.
Oğru oğrunun, doğru doğrunun başına yığışar.
Oğru iti öldürərlər.
Oğrunun gözü iti olar.
Oğru oğrudu, ya bağa olsun, ya bostana.
Ömür üzənin ömrü gödək olar.
Ömür üzənin ömrü üzülər.
Pələng dərisinə bürünən tülkü qorxuludu, təhlükəlidi .
Pislik eləmə, pis günə qalarsan.
Pis niyyətlə qapını döyənin darvazasını sındır.
Rüşvət alan bir gün udar, bir gün tutular.
Saf duygularla yaşa, ömrün uzansın.
Sağalmaz xəstəlik nəfsə qul olmaqdı.
Sağlamlığın təbiətdi, hərəkətdi.
Səbirlə bişən halva da dadlı olar, dolma da.
Sirri ürəyində saxla. Döysələr də, söysələr dəkoram, karam, lalam de.

Sirr saxlayan lal qaya kimidi, nə dinər, nə danışar.
Sirr alınmaz qala kimidi.
Söz gəzdirmək, ara vurmaq nakişilikdir.
Şahlıq, sultanlıqdansa, əmin-amanlıq arzula.
Şəhər iti kənddə hürməz.
Şəhərə gəldin çörək götür, şəhərdən çıxdınayaq götür.
Şəratan şərə düşər, tələ quran tələyə.
Şuluq eləmə, qılıq elə.
Təbin yoxsa nə qoş, nə coş.
Tədbirli səbirli olsa yaxşıdır.
Tərəkəmə yayda yaylaqda, qışda qışlaqda.
Tikilməkdə olan evin yuxarısına qırmızı parça bağlarlar.
Torpağa qulluq göstərənin barı bol olar.
Tülüngünün üzü də birdi, astarı da.
Tülüngü əlləm-qəlləmdən betərdi.
Tülüngü bic, düdəmə gic.
Ulağı yükləyər, atı minərlər.
Ürək- dirək yaxşıdı, candan yanan bir ayrı.
Ürəyi genişin evi də geniş olar.
Üz döndərmə üz göstər.

Ya al ver, ya gəl ver.
Yaxşı işləyən, yaxşı yaşar.
Yaxşılarla yaxşılaş, pislər səni tez tapar.
Yaxşılığı başa qaxan pisdən pisdi.
Yaxşılığı itirəndən yaxşılıq gözləmə.
Yaltaqlığın o tərəfi satqınlıqdı.
Yaltağın peşəsi quyruq bulamaqdı.
Yamansız yaman günə qalar.
Yaralıya dəyənin yarası sağalmaz.
Yaraya məlhəm qoyar, dərdə dərman verərlər.
Yasda qara geyərlər, toyda alışdım-yandım.
Yamanlıq eləmə yamana düşərsən.
Yarıtmazı işə buyurmazlar.
Yastığa baş qoy, mütəkkəyə dirsəklən.
Yavaş getsən ölü, iti getsən dəli deyərlər.
Yazıq görünən yaman günə qalar.
Yerini bilməyən yatağını da bilməz.
Yersiz əsib-coşma cana baltadı.
Yıxılarsan tamahının cilovunu çək.
Yolunu azana yol göstərmək savabdı.
Yuva uçuranın yuvası uçar.
Yuxudan tez qalxan məqsədinə tez çatar.
Yüz əyri bir düzə neylər.

Zarıma, yarı.
Zayın əməyi də zaydır, diləyi də.
Zəhmətkeş torpağı qoruyan, torpağı becərən, torpaqdan bar götürəndi.
Zəhmətsevərin gözü, könlü tox olar.
Zəhmətlə böyüməyənin başı töhmətli olar.
Zəhmətdən torpaq da ilahiləşir, insan da.
Zülm ərşə çıxanda qiyamət qopar.

AQİL, CAHİL

Ağladan güclü, ağlayan gücsüz.
Ağılsıza ağıl ver, nağıl söyləmə.
Ağılsızdan ağıl uman ağılsızdı.
Ağıllıya yol göstər, ağılsıza kol.
Ağlın başında, yarağın qurşağında olsun.
Ağıl dəryası həyatda nə büdrəyər, nə çaşar.
Aqil olan nə söz ağardar, nə də göz.
Aqillər sakit təbiətli olur.
Arsıza ar nə lazım, sağalmaza var nə lazım.
Ayaqaltı olma, ayaq üstə ol.
Başıboşun dili də boşdu.

Başsızı başsız qoyma, başa sal.
Bədxasiyyəti nə danışdır, nə dindir.
Bədşüur nə yarıyar, nə yarıdar.
Bədəsildən bəd övlad olar.
Bədxasiyyət bəd əməl olar.
Bərk gedən tez yıxılar.
Bixəbər gələnlər bixəbər gedər.
Boynuna yük götürən həmişə yüklü olar.
Cahil, qıl körpüdən keçmək var, dünyadan köçmək var.
Cahil insan cahil gedər.
Cahil nə bilər ahıl kimdi.
Cahillə dostluq edən, cahil olar.
Cahillərdən aralan, ürəyin bulanmasın.
Cahillik hara, kamillik hara.
Cana qəsd edənə ağılsız deyərlər.
Cəlladın gözü qızanda fəlakət olar.
Cızığından çıxan tez azar.
Cığal nə yola gedər, nə yola gələr.
Dağalla cığal bir çıxar.
Dağlar oğlu dağ təbiətli olar.
Dəbbə dağarcığı cığal olar.
Dəliyə baxanda ağılsıza min şükür.

Dəmdəmə də, düdəmə də bir ağıldadı.
Dəliyə qoşulan da dəlidi.
Didişmək, yaxa cırmaq yaraşmaz.
Diribaşın gözü açıq olar.
Əhli- hal gül- camal istər.
Ərköyün ipə-sapa yatmaz.
Ərlər güclüyə güc göstərər, qalib gələr.
Əzazilin ürəyi daşdandı.
Gəda-güdalar hamını hədələr.
Görməmiş görəndə daha da qudurar.
Gözü toxun könlü də tox olar.
Gözü kölgəlinin başı aşağı olar.
Gözü qızan ağlını itirər.
Güclü hörmət başqa, güclü nifrət başqa.
Güclüdə insaf yox, gücsüzdə güc.
Güclü qan-qan deyər, gücsüz can-can.
Gücsüzsənsə, gücə düşmə.
Gücün çatmırsa, danışma.
Güclüsən gücsüzə gülmə.
Gücü ağılla işlət həmişə.
Gücü varsa, sözü də var.
Güclü iqtisadiyyat sağlam həyat deməkdi.
Güclü olmaq yaxşı, ağıllı olmaq daha yaxşı.

Güclünü yıxmaq üçün fənd işlət .
Xain xoflu olar.
Xəsis ol, xəbis olma.
Xəsisin tamahkarda gözü olmaz.
Xoşu yerişindən bəllidi.
Haşa ikiüzlü əlindən.
Hərdəm xəyalla çaş-başın fərqi nə.
Hər yetənə baş əyən, başsız qalar.
Hər yaşa dolan başa dolmaz.
Höcət adam tez qocalar..
Höcətin başı gorda əsər.
Höcət söz güləşdirər, söz dalaşdırar.
İgidin qılıncından qığılcımlar yağar.
İti göz gözəli də, gözəlliyi də tez görər.
Küsəyənin payını yeyərlər.
Qanmazdan qanana nə yar.
Qanadı sınmışa ha qanad qoy, uçmaz ha.
Qəlbi kasadların, ruzisi də kasad olar.
Qəlbi qaranın peşəsi qan qaraltmaqdır.
Qələbə ağıla üstünlük verəndədi.
Qoçu başqa, lotu başqa.
Qudurğan nə qanar, nə qandırar.
Quldur yol kəsər, bələdçi yol göstərər.

Quduran qudurğan it kimidi.
Quduran it ulduza hürər.
Qürur hara, təkəbbür hara.
Ləyaqətsiz özündən aşağıya alçaq, yuxarıya padşah deyər.
Murdar murdardı, nə heyvanı, nə insanı.
Müdriklər ağla gəlməyənləri, ağla gətirər.
Müdrikin üzü nurlu, sözü dürlü olar.
Mütilik diriyən ölümdü.
Nadan nadandı, vay qansız əlindən.
Nadürüstün dürüstü görməyə gözü olmaz.
Nə alqışla yaranan var, nə qarğışla ölən.
Nə gözü kölgəli ol, nə qəlbi ləkəli.
Nər ölər, meydan boş qalar, şir ölər zağa.
Nə dəmdəmə, nə də hərdəmxəyal ol.
Nə yaxşı ki, paxılların ömrü gödək olur.
Nə bozar, nə qızar.
Nə qıjıt ver, nə qır ver.
Nəcabətli xəstə cana təbib olar, məlhəm olar,sağaldar.
Oturuşunu-duruşunu bilən yerişini-yürüşünü bilər.
Özünü dəliliyə vurma, dəli deyərlər.

Paxıllıq cığallıqdan betərdi.
Sərhəddi aşan gülləyə gələr.
Sərtlikdən pərtlik gözlə.
Sözbaza söz çatdırmaq olmaz.
Şöhrətpərəstlik xəstəliyi sağalmazdı.
Tez alışan, tez sönər.
Vay çərhəya əlindən.
Vəzifə insanın ağlını almasa yaxşıdı.
Vəzifə düşkünü başqa, elm fədaisi başqa.
Vəzifəyə qalxanda da, enəndə də bir rəngdə ol.
Vurdum de, vuruldum demə.
Vurulanı vurmaz, döyüləni döyməzlər.
Yaxşılarla yaxşılaş, pislər səni tez tapar.
Yaltaq düşməndən də qorxuludu.
Yaltağa inanma, dar gündə darda qoyar.
Yaltağın yıxdığı evin qapısı çətin açılar.
Yaman, yaman günə qalar.
Yanqır da birdi, boşboğaz da bir.
Yanqırın çənəsi boş olar.
Yaramaz başqa, yarıtmaz başqa.
Yasa batana təsəlli məlhəmdi.
Yedəkdə getmə, yedəklə.
Yersiz yerə nə qıjan, nə şeşələn.

Yetimi ağladanın balası yetim qalar.
Yolunu azanı yola gətirmək çətindi.
Yolunu azana qəbir yaxın olar.
Yolunu azan elini azar.
Yolunu azanı yoluna gətirmək müşkül olar.
Zalım da dəhşətdi, zülm də.
Zor var güclə, zor var ağılla.

MƏRD MƏRDDİR, NAMƏRD NAMƏRD

Ara vuranı arxadan vurarlar.
Arxa dur, arxadan vurma.
Arxadan qaçanın arxası uçar.
Arxa axtarma, arxa dur.
Arxadan vuranı cəhənnəm, arxa duranı cənnət gözləyir.
Arxadan vuranın boynunu burarlar.
Ayaq yalayan yaltaq mucqu tulan kimi bir şeydir.
Ay talançı, az tala, axırı xalqa qalacaq.
Az ona-buna kəmənd at, kəməndə düşərsən.
Başbilən başqa, baş aparan başqa.
Bədəməlin əməyi qar suyuna dönər.
Bədəməl bəd xasiyyətdəndi.
Bədbəxtliyə dözərik, qeyrətsizliyə yox.
Bicdən bic törər, cırdan cır.
Bu mərd, bu da meydan.
Cəsarət igidin yaraşığıdır.
Cəsarət yaxşıdı, yerində, məqamında.
Çeşmə başı sənəmli, meydan başı mənəmli.
Çöldə şir, evdə məstan pişik.

Çıraq söndürənin çırağı sönər.
Dağ dağ arxasında, igid igid arxasında.
Dağlarda yaşayan dağ ürəklidi.
Dağlar qalalara, qalalar dağlara pənahdı.
Dağ təbiətli, dərya kamallıya əhsən.
Dad namərdin əlindən.
Dəliqanlı igid Dəli Kür kimidi.
Dəliqanlılıq igidin nişanəsidi, uzağı görə bilsə.
Dəli-dolu qorxulu olmaz, vay yerə baxandan, bir də kəmfürsətdən.
Dəyyus da, haramzada da bir bezin qırağıdı.
Ehtiyatlı igidin anası ağlamaz.
Əlin, qolun qurusun, əlimi, qolumu bağlayan.
Ərlər güclüyə güc göstərər, qalib gələr.
Əqidəli ölər, əqidəsindən dönməz.
Əzazilin ürəyi daşdandı.
Fəqirə-fəqir, zalıma-zalım ol.
Fürsəti boşa verən, ha peşman olsun.
Gecəni diri gözlü aç, düşmən sayıqdı.
Havalananın havasını alarlar.
Hər şahdan Şah İsmayil olmaz.
Hər papaq qoyana kişi deməzlər.
Həyasıza üz vermə, astar istər.

Həyasızdan həyalan, ləçərdən aralan.
Hirslinin dönəlgəsi yaxın olar.
Hiyləgər erməni üzə gülər, arxadan vurar.
Hünər zəfəri şölələr.
Hünər harda, zəfər orda.
Xain ermənin göz yaşına aldanma.
Xain də iblis kimidi.
Xaində nə mərhəmət.
Xan nökərsiz, sürü sərkərsiz olmaz.
Xar olma, var ol.
Xana varsa, xalça da var.
Xəbis də, murdar da könül bulandırar.
Xəbis üzə gülər, arxadan vurar.
Xəbisin qarnı qurdlu olar.
İgid ölməz, igidlikdə yaşar.
İgidin ölümü elə ölməzlik gətirər.
İgid meydanda, quldur zindanda olmalıdır.
İgid vətənsiz, abidə əfsanəsiz olmaz.
İgid dizdən güclü, qoldan qüvvətli olar.
İgid aslan ürəklidir.
İgidlik igidin canında, qanındadır.
İgid dəliqanlı olar.
İgidə qılınc da gərəkdi, qalxan da.

İgidin ürəyində aslan yatar.
İgidin südü də təmizdi, qanı da, üstəlik kökü də.
İgid oğul gözlərə nur, ürəyə təpərdi.
İnsanda cəsarət yaxşıdı, ağıl ondan da üstündü.
Kəmfürsət tutduğunu buraxmaz.
Kəm baxan, kəmfürsət olar.
Kəmfürsətə inanıb fürsəti əldən vermə.
Kişi ağlamaz, ağladar.
Kişi kimi yaşayanlar, kişi kimi ölənlər cənnət-likdi.
Kişi qeyrəti, qadın ismətilə tanınar.
Kişiliyin bir yaraşığı da ağayanalıqdı.
Kömək gözlədiyin kimi, kömək olmağı da unutma.
Körpünü uçurma, suya qərq olarsan.
Körpüdən mərd də keçər, namərd də.
Qaçağın oylağı meşədi, dağdı, dərədi.
Qaçağı el saxlar, bir də vəfalı dağlar, sıx or-manlar, sıldırım qayalar.
Qala qoruyan qala ürəkli, bala qoruyan bala ürəkli.

Qaniçənin insana münasibəti qurdun qoyuna münasibəti kimidi.
Qan tökəni qan çanağında boğarlar.
Qaya səngər qaladı.
Qayaya səmt elə, qalaya arxalan.
Qeyrət ölməz, qeyrətlərdə yaşar.
Qeyrət qandan, ismət süddən.
Qeyrətsiz yaşamaqdansa, qeyrətli ölmək yaxşıdı.
Qeyrətsizliyi boynuna götürəndən sonra yaşamağa nə var ki?
Qeyrətsizə qeyrət dərsi keçməyin nə mənası.
Qeyrətsizin qeyrətini çəkmə.
Qeyrətli insan qürurlu olar.
Qılınc qında təpər, qanda kədərdi.
Qız qalalar ismətim, mərd qayalar qeyrətim.
Qeybətçinin ürəyi xaindi.
Qorxaq payız yarpağı kimi əsər.
Qorxaq adam qorxaqlığından ölər, sağlam olsa da.
Qorxu, ürkü nə olduğunu bilməz igid olan.
Qor-qoduqla oturma, el içində bədnam olarsan.
Quldur oğrudan betərdi.

Qürur kişilər yaraşığıdı.
Mərd olmasa namərdin bağrı çatlar.
Mərd igidin məzarını el qucaqlar, el ağlar.
Mərd bir gün ölər, namərd hər gün.
Mərdi başa çəkər, namərdi başdan salarlar.
Mərdi olanın nə dərdi?
Mərdiməzarı axtarmaqla deyil, özü gələr.
Murdar, murdar ölər.
Müharibəni yandırmaq asan, söndürmək çətin.
Nadürüst qapıya peşmançılıq gətirər.
Naxələflər səələfləri danarlar.
Nadürüst, naxələf zatı qırıqdan törər.
Namərdə bel bağlayan, belsiz qalar.
Namərdin körpüsü tez uçar.
Namərdə bel bağlayan da namərddi.
Namərddən, nakəsdən aralı.
Namərdə bel bağlama, belini sındırar.
Namərdə fürsət verənin vay halına.
Namərddən alınan yara sağalmaz, qövr edər.
Nəfsini qoruyan namusunu qoruyar.
Nə üzə vur, nə üzə dur.
Nə cənnəti göstər, nə cəhənnəmə göndər.
Papaq gəzdirən namusunu, qeyrətini gəzdirər.

Pislik eləmə, pis günə qalarsan.
Pislik eləyən pis olar.
Satqını nə gözün görsün, nə könlün bulansın.
Satqın ya əldə ölər, ya türmədə.
Satqın da namərddi, pozğun da namərd.
Satqının nə dini, nə imanı.
Satqının gözü kölgəli, qəlbi səksəkəli olar.
Saymaz it qəfil tutar.
Səbr qalxanını uca tutanlar qələbə qazanar.
Şahin kəklik, qartal şahin tutar.
Savaşda taleyini düşünəndən qəhrəman olmaz.
Şəhidin adı dildə-ağızda gəzər.
Şər atan şərə düşər.
Şər atanın yuxusu qaçar.
Şirin balasına da şir kimi bax.
Tələ quran, tələyə düşər .
Tülkü qorxaq olar, tula yaltaq.
Türk ölər, qeyrəti ölməz.
Türk sınar, əyilməz.
Türk ayağın uzadar, əlin uzatmaz.
Söz aparan da, söz gətirən də qurumsaqdı.
Ürəyi təpərlinin qolu da güclüdü, dizi də.
Ürəyini elə bağla, elə ver.

Ürəyi ləkəlinin gözü kölgəlidi.
Üzü dönük, sözü dönüklərə nə deyəsən?
Üzü dönüklər ev yıxanlardı.
Üzə durmaq namərdlik, üzə demək mərdlik.
Yada arxalanan arxasız qalar.
Yaltağın üzü də qara, israrı da.
Yarama namərd məlhəm qoyunca, mərd köz bassa yaxşıdı.
Yaraq yaxşıdı ağlı üstündə olana.
Yatağan ilan vurağan olar.
Ziyankara da lənət, xətakara da.

TƏRBİYƏ, ƏXLAQ

Abırsızı ha utandır, utanmaz.
Ana öyüdünə baxan xeyir tapar.
Ağıllı dəliyə dəlisən deməz.
Aradan pərdə götürüldü, yaşamağa dəyməz.
Atmacalı sözün atmalısı da havada olar.
Başı olmayanın başı ağrımaz.

Başqasının qoltuğunda dolanan qoltuqaltı olar.
Bilirəm demə, öyrənirəm de.
Cır meyvə cana məlhəmdi.
Cığırından çıxanı cığırına qaytaran savab qazanar.
Dan sökülər xoruz banı.
Deyingən sağ canı da xəstə edər.
Dərd verənin dərdin al.
Dəymə-düşər hamıdan küsər.
Yalanla dostluğun axırı düşmənçiliklə başa çatar.
Dostunu tanıyan, düşmənini də tanıyar.
Dünyaya gəldiyin ocaqdan od al, ocaq çat.
Düz yol düzə, əyri yol əyriyə çəkər.
Düz əyri bilməz, əysə də çətin.
Düz yolda olan nə büdrəyər, nə yıxılar.
Elədiyini başa qaxmaq üçün edirsənsə eləmə.
El töhməti düzəlməz, ev töhməti də çətin.
Evə su salanın evi su altında qalar.
Əl buyruqçusu olma, el buyruqçusu ol.
Əsil axtar, kök axtar.
Fironluq edənlərin axırı fironlarınki kimi olar.
Geriyə baxan, geridə qalar.

Göz qızanda ayağının altını görməz.
Gözdən düşən dilə düşər.
Görüm-baxım eyləyənə sağ ol de.
Gözü kölgəli başını qaldırmaz.
Gülər üzlünün ömrü uzun olar.
Hal əhli başqa, var əhli başqa.
Hamıya pis gözlə baxan pis günə düşər.
Haram yemə, halal ye, ömrün uzansın.
Həddini aşma, ağlın çaşar.
Həqiqət kimə şirin, kimə acıdı?
Həmdəmxəyal, dəm-dəm xəyal, nə fərqi?
Həyasızdan həya gözləmə.
Xain olmasa, yaşamağa nə var ki.
Xain iblisin astar üzüdü.
Xəsis pulu daha çox sevər.
İşləyənin işi başından aşar.
Kar hündürdən danışar, elə bilər hamı kardır.
Kara gəlməzə bel bağlama.
Keçmişini öyrən, gələcəyi bilməkdən ötrü.
Keçmişləri, köçmüşləri unutsan, səni də unudarlar.
Kəklikotunu ətə tökərlər, ağ ayranı itə.
Kəndirin qırılsın, kəndir kəsən!

Kölgəliyi kəsən, kölgəsini kəsər.
Küsmək olar, elə et ki, barışığa yer qalsın.
Qara pişiyi öldürmə, düşər-düşməzi olar.
Qaraqabaq hər yerdən özünə dərd axtarar.
Qayğılı olanların törəmələri də qayğılı olar.
Qədirbilənin qədri bilinər.
Qəlbə dəymə, gözü nəmli olar.
Qəlbsiz qəlbə tez-tez dəyər.
Ləcə-höcətə yazığım gəlir.
Murdarı ha suya sal, təmizlənməz.
Müğənni səsiylə, natiq sözüylə tanınar.
Nə arxadan qaç, nə arxada dur.
Nəfsini qoruya bilməsən, vay halına.
Oğurluq toxumun məhsulu olmaz.
Oğru it oğru adam kimidi, pusquda durar, məqam gözlər.
Öyrətmək üçün öyrən, yaşatmaq üçün yaşa.
Rəzil yaşamaqdansa, yaşama.
Səbirsizi səbəbkar yola gətirər.
Səhv var bağışlanar, səhv var bağışlanmaz.
Siyasət mədəniyyətdi, mədəniyyət də siyasət.
Suyu bulandıranın suyu durulmaz.
Şərə salma, şərdən qurtar.

Şit zarafatın axırı pis olar.
Tamahın cilovunu çəkə bilməsən, uçuruma düşərsən.
Təbibə inam aparan xəstə tez sağalar.
Tərbiyəsi olmayan pis yolun yolçusudu.
Tərbiyəçi tərbiyəlini çox sevər.
Tərif yaxşıdı, qədərində.
Umu-küsü könül bulandırar.
Ürək bulandırma, ürək qızdır.
Vara güvənmə, yara güvən.
Yetmək başqa, ötmək başqa.
Yerini bilməyən işini də bilməz.
Yetimə nə göz qıca, nə söz qıca.
Yuxusuz qalmaq fikir karvanıdı.
Yüngül musiqini yüngüllər daha çox sevir.
Yüz ölç, bir biç, əyri düzəlməz.
Zamanı kor olsun, kor elədi bizləri.
Zəhmətkeş, nə zəminə göz dəysin, nə sən gözə gələsən.

DOĞRU DA VAR, ƏYRİ DƏ

Arzular qoşalaşanda diləklər hasil olar.
Çox and içən yalan danışar, inanma.
Dilfırıqla, yelfırığın nə fərqi.
Doğru oğrunu yaxşı tanıyar.
Düz ol, düz öl, yaşa qəlblərdə.
Düz əyrini əyər.
Düz yolda ol, həyat yolun uğurlu olsun.
Düz bacadan tüstü düz çıxar.
Əliəyrinin dili də əyridi, qəlbi də.
Əyri də, yaltaq da bir bezin qırağıdı.
Əyri işin xətası, bəlası var.

İkiüzlü kimə yaxşı, kimə yamandı.
İz aç, cığırın, izin qalsın.
Qərəzli adam qaraqabaq olar.
Mindilli min sifətli.
Oğruya qoşulma, doğruya qoşul.
Oğurluqla tikilən ev arzulara qismət olmaz.
Oğurluqla tikilən saray qarğış yuvasıdı.
Şıltaq olsan dözərəm, yaltaq olsan ölərəm.
Tora salma, tora düşərsən.
Ürəyinin səsinə səs ver.
Yalançı doğru da desə, inanma.
Yalançıyla falçının nə fərqi.
Yalançı yalan danışmasa vərəmlər.
Yalançı göz yaşları yalançı gülüş kimidi.
Yalançı üzünə gülən ayağının altını eşər.
Yaltaq it kimi şırvanar .

HALAL, HARAM

Alanda halallıq al, verəndə halal elə.
Az olsun, düz olsun.
Çapolçu oğrudan betərdi.
Çörək verən çörəyini halal verər.
Çörək haqqı, Tanrı haqqı kimidi.
Çörək müqəddəsdi, dinimiz, torpağımız, vətənimiz kimidi.
Çörək əvəzsiz nemətdi. Gücdü, qüvvətdi, təpərdi, hünərdi, zəfərdi.
Çörək kəsəni qılınc kəsməz.
Çörək itirəni çörək tutar.
Çörək itirənin çörəyi itər.
Çörək verənin çörəyi bol olar.
Çörək kəsənin çörəyi kəsilər.
Çörəkcil çörəyin qədrini daha çox bilər.
Çörəyə əl basmaq, Qurana əl basmaq kimidi.
Çörəyi öp, gözünün üstünə qoy, müqəddəs kimliyimiz kimi.
Çörəksiz xörəyin ləzzəti olmaz.
Evin yıxılsın, tamah, mənim evimi yıxdığın yerdə.

Əyri yolla varlanan tez vərəmlər, tez ölər.
Gözü tox olanın könlü də toxdu.
Halal ol, haram olma.
Halala haram qatma, günaha batma.
Halalı haram aparanda vay.
Haram murdardı, halal pak.
Haram zəhər, halal şəkər.
Halala haram qatan xeyir görməz.
Halalzadə hara, haramzadə hara.
Haramdan qaç halala sarı.
Haramzadənin düşməni halalzadə olar.
Nə haram ye, nə vay canım de.
Payı əldən alanın payı palçığa dönər.
Pis əməldən çəkinmək müşküldü.
Rüşvətxorun axırı yoxdu, ölümdü.
Satqında nə ar, nə namus.
Tamahını qoruyan sağlam olar.
Tamahını qorumayanın axırı yoxdu.
Vay o günə ki, sözü nə uda biləsən, nə qusa.
Vay o günə ki, halal harama qarışa.
Viranəliyin başlanğıcı hərislikdəndi.

GÜNAH, SAVAB

Ağlağan yetimi qınamazlar.
Cinayət cinayətdi, nə balacası, nə böyüyü.
Dərdliyə dərd çəkən kömək olar.
Dar gündə də, gen gündə də Tanrıya üz tut.
Düzəlməzi Allah düzəldər.
Günaha batmaq yasa batmaq kimidi.
Günahkarın andı qəbul edilməz.
Gülərüz ürəyə yatımlı olar.
Qaraqabaq qara dinməzin eynidi.
Muraz üstə olanın, murazını gözündə qoyan çox yaşamaz.
Nabələdə bələdçi olmaq savabdı.
Nahaqdan insan öldürəni sağ qoymayın.
Səbəbkar savab qazanar, günahkar lənət.
Tərbiyəsizə tərbiyə ver, başa düşsə də, düşmə-sə də.
Torpağı dincə qoyduğun kimi, canı da dincə qoy.
Ürəyi düzün, əməli də düzdü.
Üzü dönüyün üzünü görmə.
Vay o günə ki, dil bir şey deyə, ürək başqa şey.
Yaxşıya rəhmət, yamana lənət oxunar.
Yetimə qarğama, qarğışa düşərsən.

Yetim payı şirin olar.
Yetimin könlünü alanın ürəyi xoş olar.
Yetimin sınıq qəlbini sındırmayın. Ağlasa, dünya suya qərq olar.

TƏBİƏTİN TACI

Bal da cana məlhəmdi, bəhməz də. Hərəsinin öz yeri.
Başı qardı, ətəyi bağça dağların.
Bulaq zümzüməsi, çay hay-harayı.
Bulaq başı gözəllərin yığnağında gözəldi.
Bu dağlar uca dağlar, qocadan qoca dağlar.
Çaylar daşanda, sellər-sular oynayanda bəndi-bərəni qoparar, fəlakət olar.
Dağlara qar yağsın, düzlərə yağış.
Əsrarəngiz təbiət ilhamı pərvazlandırar.
Hökmü yenilməz sel fəlakət gətirər.
Qışda qar, yazda bardı.
Müdhiş zəlzələ evi də yıxar, eli də.
Təbiət ən böyük rəssamdı.
Yaşıl meşə, tər bənövşə nə gözəl.
Yazda insan coşar, çaylar daşar.
Yönü bəri baxan dağlar bizimdi.

VARLI HARA, KASIB HARA

Ata varına göz dikənin nə axırı.
Aza, qane ol ki, varlı olasan.
Bədxərcin cibi boş, ürəyi geniş.
Cahan kimə qalıb ki, sənə də qala.
Cibdən yox, qəlbdən dövlətli ol.
Ehtiyat qıl, sabahı düşün.
Gözü ayağının altını görməyən tez yıxılar.
Halalı harama qatanda nə ağıl.
Harınlayanın gözü ayağının altını görməz.
Hərislik ömrü ölümə yaxınlaşdırar.
Xəsis başqa, xəbis başqa.
İsrafçılığın sonu aclıqdır.
Kasıb fikirli, xəyallı, dövlətli, cah-cəlallı.
Kasıb kasıba arxadı.
Kasıbın çörəyi daşdan çıxar.
Kasıbın əkdiyi də, səpdiyi də çətin bitər.
Kasıb qeyrətinə güvənər.
Kasıba cad da şirindi, arpa əppəyi də.
Kasıb yar tapanda yer tapmır, yer tapanda yar.
Kasıb pay-piyada gəzər, varlı at belində.
Kasıblar pirlərə tez-tez gedər.
Kasıbın şələsi ağır olar.

Kasıbın arzusu çox olar, çoxu da yerinə yetməz.
Kasıbın kündəsi küt düşər.
Kasıb vətəni qoruyar, varlı varını.
Kasıb utancaq olar.
Kasıba əl tutanın əli açıq, ürəyi geniş olar.
Qarnı toxa nə boran, nə qar.
Qazandığını fındığa, fısdığa vermə.
Qış kasıblar üçün deyil.
Qızılı cırıq cibə verməzlər.
Qudurğan qudurmuş it kimidi.
Qul nökərdən betərdi.
Nəhlət yoxa.
Pul pünhanlıq sevər.
Pul pul gətirər, qul da qul.
Şabaşla gələn şabaşa gedər.
Taxıl zəmisində quşların payı var.
Talançının gözü ayağının altını seçməz.
Tamah sağalmaz yaradı.
Tamahını qorumayan, dilənçidən də pay umar.
Vara güvənmə, elə güvən.
Var hərisinin məlhəmi yoxdu.
Vara qıy, cana qıyma.

Var-dövlət gözünü qamaşdırmasın, yazıqsan.
Var qazanma, ad qazan.
Var artdıqca ağıl azalar.
Varlını hərislik öldürər.
Varlı var hayında, kasıb can hayında.
Varlı varıyla, kasıb yalıyla öyünər.
Varlının qəmi, sevincindən çox olar.
Yetimin ahı-amanı dünyanı yandırar.
Yırtıcı insan heyvandan betərdi.
Yox desən, yoxa çıxar.
Zəhmətdən bal süzülər.

XEYİR - DUA

Abrını qoru abırsızdan.
Abidəni sökən lənətə gələr.
Acıdil ilan kimi sancar.
Acgözdən pay umanda ağıl olmaz.
Ağacı selləmə, bellə.
Ağılsıza ağıl duası yazdırmağın xeyri nə?
Ağlamaq ürəyə təskinlikdir.
Ağlı azan yolunu azar.
Ağlı zayıl nə ölüdü, nə diri.
Ağlını itirən qoca köçsə yaxşıdı.
Alnı tərli, əli qabarlının süfrəsi bol olar.
Aman zəvzək adamın əlindən.
Arxa durana arxa durarlar.
Arxada getmə, arxanla apar.
Ara vurma, araya gir.
Arsıza toy da birdi, vay da bir.
Artıq yemə tez qusarsan.
At belində gəzənlərin ciyərləri sağlam olar.
Atı minəndə havalanma, yıxıla bilərsən.
Ayıq ol zamanla barış.
Ayrılığa körpü, həsrətə cığır sal.

Ayrılanda da əl yeri qoy.
Az qəm elə, qəmli könül.
Az fikir dəryasına qapıl, tez qocalarsan.
Az fikir elə, xəstələnərsən.
Az təriflə, zayı çıxar.
Bacarmadığın işin altına girmə.
Baş aparma, daş apar.
Baş aparanın başı ağrıyar.
Baş aparana baş qoşmazlar.
Bağ becər, bar dərmək üçün.
Bağ becərən, bar dərər.
Barlı ağacın barını dərərlər, barsızın kölgəsində dincələrlər.
Baş aparma, başını kəsərlər.
Bir halda ki, getdiyin yerdə sənə xoş gəldin demədilər, oraya ayaq basma, hörmətdən düşərsən.
Bir qərar ol, nə göynən get, nə yerdə sürün.
Bir qərar ver, nə tələs, nə tənti.
Bir qarın çörəyin varsa, şükr elə.
Borc alan borcu qaytarmağı unutmaz.
Böyük danışandan böyük çıxmaz.
Buğası olmayan inəkdən bala gözləmə.

Can qurban demə, can qurban elə.
Can, can ağrıyan yerdədi.
Candan yanan can yandırar.
Can de, can eşit.
Candan keç, əqidəndən keçmə.
Cani də qan tökəndi, cəllad da.
Caninin gözlərindən od yağar, ürəyindən şimşək.
Ürək cavanlıqda öyünər, qocalıqda döyünər.
Cığal adam turş alça kimidi.
Cığal başqa, zayıl başqa.
Cığaldan aralı gəz.
Çalış zamanla ayaqlaş.
Çalış son mənzilə qədər.
Çətin olma, mətin ol.
Çətin adamın ömrü gödəkdi.
Çoban aldadan, dovşan oynadan, yağışın zəmiyə nə xeyri.
Dağ qartalsız, qartal dağsız olmaz.
Dağa bax, ürəyin dağa dönsün.
Dağa arxalan, düzə pənah gətir. Ruzin bol olar.
Dağlar da fikirli, xəyallıdı.

Dağlar qarıyla, bağlar barıyla, gözəllər yarıyla gözəldi.
Damara bax, qan al.
Dəlilik eləmə, dəliqanlı ol.
Dərdini dərd bilənə söylə.
Dərdli insan müşkül hal olar.
Dilboz başqa, dilbaz başqa.
Dilənçinin əli də uzun olar, dili də.
Dörd ayaqlı canavar yırtıcıdı, iki ayaqlı canavar ondan da betərdi.
Döyülmə, döy gəl.
Döy döyülmə, vur vurulma.
Ehtiyat qıl, qarşıdan qış gəlir.
Erməninin qocalanı donuza gedər.
Əqidəli adam gözdə, könüldə olar.
Əl tutan ol, əl uzatma.
Ələ baxan olma, əli açıq ol.
Əməlisalehin başı salamat olar.
Ərkin çatan, söz deməyə, buyurmağa nə var ki?
Əvvəlcə gücünü, sonra qolunu sına.
Fərasətli oğul yerişindən bəllidi.
Fikir eləmə, şükür elə.
Gedənə yoldaş, qalana qardaş ol.

Görməmiş görəndə ağlı çaşar, dili dolaşar.
Gözdən qoyma nə yarı, nə diyarı.
Gözdən iraq, könüldən də iraqdı.
Gözəl olanda ağlı unutma.
Gözü açığı gözdən qoru.
Gözü qıpıq olma, gözü açıq ol.
Gözü görməyənə gözəllikdən danışma, qəlbi sınar.
Gözü, könlü toxun nə dərdi, nə məlalı.
Gözü yolda olanın ürəyi də yolda olar.
Gözünü qorumayan yedəkdə qalar.
Göz ağlamaz ürək ağlamasa.
Gücünü güclü ilə sına.
Gücünü sınamaqdan əvvəl, ağlını sına.
Halallıqla tikilən ev qiyamətə qədər uçmaz.
Haram yemə, halal ye, ağzın şirin olsun.
Haramzadə elədiyini üzə vuran, verdiyini başa qaxan olar.
Hamının nazıyla oynasan, tez yıxılarsan.
Hamıya bir gözlə bax, yoxsa iki gözdən olarsan.
Hamıyla yola get, hamıyla dil tap.
Haylı-huylu həyat zaylı-zuylu olar.

Haytal başqa, həlim başqa.
Heç kəsə baş əymə, tanrıdan başqa.
Heyvərəylə qanmaza fərq qoymazlar.
Həcci qəbul edиб rüşvət alan ölməlidir.
Həddini aşan quyuya düşər.
Həmdəmxəyala, dəm-dəməkiyə bel bağlama.
Hər atmacalı sözdən halı pərişan olma.
Hər saza oynamazlar.
Hər şeyi qurdalayıb qurdunu çıxartma.
Hər şeyə nə qulp qoy, nə şübhə ilə yanaş.
Hər şeydən ötrü az küs, barış.
Hər quşun öz dili, öz tərənəsi.
Həkimə çox da aludə olma.
Hər şey qədərində gözəldi.
Hər küləyə əsən tez yıxılar.
Həyata açıq gözlə bax ki, yıxılmayasan.
Hirs boğanda üzüqoylu yatarlar.
Hoqqabaz nadanı ələ salar.
Höcət adamın bir ölümü çatmır.
Hünərinlə dağı da tərpət, qayanı da.
Xalqın istəyini qazanan xoşbəxtlərin xoşbəxtidir.

Xata-bəladan uzağın nə xatası?

Xatadan uzaq olan, bəladan da uzaq olar.
Xeyir işə xeyir-dua verərlər.
Xəsis pulu daha çox sevər.
Xəstəlikdən qorxma, təbibdən qorx.
Xəyalpərvər yaxşıdı, qədərində.
İlanı basma ayağına dolanar, sancar, zəhərini tökər.
İnadlı olma, inamlı ol.
İntiqam qılıncı daha iti olar.
İsmətsizi daş-qalaq eliyərlər.
İşlə, yatma. O dünyada yatarsan.
İşlək əllər qabarlı olar.
İşi pozmağa yox, düzməyə çalış.
İti yallamasan zəncir qırar.
İlqarlı yanmasın bəs neyləsin ilqarsiza.
Kabab qanlı, igid adlı-sanlı.
Karvan kəsiləndə yolu ot basar.
Kasıbın payını yiyənin payı palçıqda qalar.
Kasıb-kusuba əl tut, pisliyin axırı yoxdu.
Kələklə gələn, küləklə gedər.
Kəmfürsətə fürsət vermə.
Kəmfürsətə fürsət vermə.
Kəm hövsələ olma, ağır taxtalı ol.

Kimi yeyər, kimi yalar.
Kotan nə bilər boyunduruğun çəkdiyini.
Kövrəlməyin axırı ağlamaqdı.
Külün altı od olar.
Kür sənlə axmır, sən Kürlə ax!
Küsəyənin payını yeyərlər.
Küsəyənin payını yeyərlər.
Küyə getmə, haya get.
Qaçanı qovar, uçanı vurarlar.
Qana çalxalanan, qanlı çayda axar.
Qan-qan demək dirigözlü ölümdü.
Qan tökənə qan uddurun.
Qana qan demə, cana can de.
Qapıya gələn qonağa xoş gəldin de, xoş getdinde.
Qara yellər qara gün gətirər.
Qara yaxan qara günə qalar.
Qarğış eləmə, alğış elə.
Qarğış qazanma, alqış qazan.
Qaş-qabaqlının eyni açılmaz.
Qəlbi xain küsəyən olar.
Qədir bilənə qədir ağacı ək.
Qəlbi açığın alnı da açıq olar.

Qəlbiqaranın üzü də qaradı, sözü də.
Qənaətcil ol, israfçı olma.
Qılınc oynatma, qalxan gəzdir.
Qışqıranlardan qorxma, vurub yıxandan qorx.
Qoca səhər qalxanda Allaha şükr elər.
Qonaq gələn cığırda ot bitməz.
Qonşuya əl tut, əl uzatma.
Qonşuya kəm baxanın ahı-ufu tükənməz.
Qolu güclüyə, ağlı güclü qalib gələr.
Qonaqlıq yaxşıdı, bir gün sizdə, bir gün bizdə olanda.
Qul təbiət qul nəsildən gələr.
Qurd var gödən çıxarar, qurd var gödənini çıxararlar.
Ləçərə qoşulma, abırdan salar.
Meydan sulama, meydana gir.
Məclisdə ağır otur, ağır dur.
Məsləhətə yatmayan qulaq ardına verər, ziyan tapar.
Murdarı ha suya çək, murdardır.
Nağara vaxtında çalınar.
Nə azar, nə bezar, nə də məzar olsun.
Nə azğın düzələr, nə pozğun.

Nə yaman danış, nə yalan.
Nə huşbaş ol, nə quşbaş.
Nə əldə qal, nə dildə.
Nə əldən get, nə dildən.
Nə əyri iş gör, nə yalan danış.
Nə küs, nə həsəd apar.
Nə dalaş, nə dalaşdır.
Nə gözə gəl, nə sözə.
Nə iddialı ol, nə ədalı.
Nə özündən çıx, nə sözündən.
Nə küs, nə küsdür.
Nə şeşələn, nə qıcqırıl.
Nə şərə düş, nə xataya, nə də dərdi bəlaya.
Nə gözdən düş, nə gözə gəl.
Nə yalançı ol, nə dilənçi.
Nə başqalaş, nə qaşqalaş.
Nə böl, nə bölün.
Nə dilə düş, nə şərə.
Nə döşə döy, nə başa döy.
Nə özündən çıx, nə sözündən.
Nəfsi də qoru, nəfəsi də.
Nə yan, nə yandır.
Nə yalan sat, nə yalan eşit.

Nə yor, nə yorul.
Nə zircik ol, nə də cığal.
Nəvəyə ən böyük hədiyyə tərbiyədi.
Nə falçıya inan, nə falçıdan qal.
Nə ayaq eş, nə ayaq yala.
Nə cırna, nə cırnat.
Nə ərin, nə deyin.
Nə göynə, nə göynət.
Nə gələni öy, nə gedəni söy.
Nə dayımız var, nə dayçamız.
Nə zalım ol, nə zəlil.
Nə yağla, nə dağla.
Nə özündən çıx, nə sözündən.
Nə sın, nə sındır.
Nə yolunu az, nə cızığından çıx.
Nə pis niyyət ol, nə pis xasiyyət.
Nə sızılda, nə mızılda.
Nə suyu bulandır, nə bulanlıq su iç.
Nə ürək üz, nə dodaq büz.
Nə ola gül nişan qızlar, bəy nişan oğlanlara qismət ola.
Nə qan olsun, nə qada.
Nisyədirsə, qoy astarı güllü çitdən olsun.

Odla oynayan odda yanar.
Ölçülü-biçili iş tez başa çatar.
Öldüyünü bilən o dəqiqə ölər.
Ölü yerinə getmək borcdu, arada inciklik də olsa.
Ölü yerinə getməsən, ölünə gəlməzlər.
Papağın qiymətini başa qoyan bilər.
Pislik eliyən pis günə qalar.
Ruzisi bol olanın arzuları çiçək açar.
Rüşvət alan bir gün udar, bir gün tutular.
Sağlığını sağlam olanda qoru.
Sahibi olmayan evin qapısı bağlı qalar.
Salam ver, salam gözləmə.
Savaşda qan su yerinə axar.
Selə düşəni sel aparar, dilə düşənə yazıq.
Səbir başqa, qəbir başqa.
Səbri daşan qana çalxanar.
Səbirli insan mətləbli olar.
Səhvi təkrarlayan ziyan çəkər.
Səxavətli olan, sədaqətli olar.
Səmimi ürək açana, ürəyini aç.
Səmimi olmasan, səmimiyyət görməzsən.
Sınan qəlbi ha yapışdır, yapışmaz.

Sırtıq olan üz cırar.
Sirri içində saxla, çölə vermə.
Söz eləmə, mərdanə sözünü de.
Söz güləşdirəndən, söz dilləşdirənlərdən aralı gəz.
Söz güləşdirən, ara qızışdırar.
Şərə salma, şərdən qurtar.
Şit gülüş, şit hərəkətlə eynidi.
Taxılı vaxtında yığmasan qurda-quşa yem olar.
Tayını tap, oğul evləndirəndə, qız ərə verəndə.
Tez püskürən tez sönər.
Tez küsən, tez barışar.
Təki boyun olsun, boyunduruğa nə var ki?
Təndir çörəyinin ətri gül ətrindən də gözəldi.
Tüstü gələnə ayaqla, işıq gələnə xəyalla gedərlər.
Toyda da yerini bil, vayda da.
Tor quran tora düşər.
Ucalmaq üçün alçalma.
Urvatsızdan urvat, mərifətsizdən mərifət gözləmə.
Uşağı gözü açıq böyüdün, dünyanı aydın görsün.

Uşağın zirciyi başqa, zayılı başqa.
Utananın payını utanmayan yeyər.
Utanmaza nə abır, nə həya.
Utanmayanın üzü qızarmaz.
Ümidsizlikdə də ümidini itirmə.
Ürəyə xal salma, axırı pis olar.
Ürəkli olanın ürəyi böyük olar.
Ürəyi az yüklə, yolda qalarsan.
Ürəyi bulanlıq, ürək bulandırar.
Vay o günə ki, varlı yeyə, kasıb baxa.
Vay o günə gözdən, könüldən düşəsən.
Vay o günə ki, qılınc kəsərdən, ürək təpərdən düşə.
Vay o günə ki, dilinin bəlasına düşəsən.
Vəzifəyə can atma, axırı yoxdu.
Vəzifədə qudurma, çıxacağını unutma.
Yaxşılığı halal elə, haram yox.
Yaxşı yaxşılara, pislik pislərə qala.
Yaxşılığı dilə gətirməzlər.
Yaramazla yarıtmaza iş tapşırma.
Yaman yerdə axşamlama, yanan yerdə axşamla.
Yasda ağla, toyda oyna qədərində.

Yaşa dolan, başa da dolar.
Yaşa baxma, başa bax.
Yaşa yaratmaq eşqilə.
Yatanı axtarma, itəni axtar.
Yeməyən qurd, bala saxlamaz.
Yetim qız için-için ağlar.
Yol gedən yolunu bilməlidi.
Yurduna göz dikənin gözünü tök.
Zülm eləmə, zalım, yanarsan.

Heç bilmirəm nədənsə sandığımı açdım, box-çamın içindən bir neçə deyimlərimi gördüm, götürdüm. Fikirləşdim ki, əsərə əlavə edim, itib-batmasın...

Ağlı zəiflər təkəbbürlü olar.
Aman dar qursaqdan, boşboğazdan, zəvzəkdən.
Bil ki, düşmən həmişə qapı ağzındadı.
Boşboğazın adətidi fılankəsdən, bəhmənkəsdən danışmaq.
Dələduz da, fırıldaqçı da bir bezin qırağıdı.
Dili acıya xanım bacı de.
Düşmən yerişindən, dost baxışından bilinər.
Əli yalınlı, əli silahlıya neyləyə bilər?
Günü qaraya ha xanım de.
Hər qadına xanım-xatinlıq yaraşmaz.
Hər gözəli görəndə hayıl-mayıl, ağlı-zayıl olma.
Xəbisə baxanda, xəsisə rəhmət.
Kişinin papağı gözünün üstə, nakişininki dizinin üstə.
Kübar qadın məclislər yaraşığıdı.
Kür adam kürə düşər.
Qanlı tarix, şanlı tarixdi.
Qapını qoru, qapısız qalarsan.

Qənaətçillik xəsislik deyil.
Qonaq qonaq otağında rahat olar.
Nə təkəbbürlü ol, nə qürrələn.
Silahını möhkəm saxla, yaman günə gərəkdi.
Tanrı əmanətə xəyanəti bağışlamaz.
Tora düşən torda qalar, şərə düşən şərdə.
Evə bənd olan elə də bənd olar.
Ağlını azanı ağla qaytarana əhsən.
Boyun əymə, boynun əyri qalar.
Tanrı gözü, könlü toxları daha çox qoruyar.
Nə ola, ev də gözəl ola, el də gözəl.
Satqın oğrudan təhlükəlidi.
Gözü kölgəlinin ürəyi ləkəli olar.
Zəhmət harda, şöhrət orda.
Ata qarğışı keçəndi, ana qarğışı keçilməz.
Tamahını qorumayan, dilənçidən də pay umar.
Səbirli insan mətləbli olar.
Ləçərə qoşulma, abırdan salar.
Nə əyri iş gör, nə yalan danış.
Qədirbilməz nə bilər qədir bilən qədrini?
Dərd bir olsa çəkməyə nə var ki, vay dərdi min olana.

Əziz oxucular! Oxudunuz və yəqin etdiniz ki, ulularımızın müdrik kəlamları ilə az da olsa hardasa oxşarlıq, yaxınlıq var. Lakin onlar çox az, nəzərə çarpacaq dərəcədə deyil. Heç şübhəsiz, bu qanuni haldır. Hamısı bir kökdən köklənib, bir qaynaqdan qaynaqlanıb. Lakin gəlin etiraf edək ki, bənzərsizi, əvəzsizi, təkrarsızı açıq-aşkardı. Başqa cür ola da bilməz. Ağı qaradan seçməyə nə var ki! Deməli, məqsədim hasil olub, arzuma yetmişəm.

Dostlar! Dahi Səməd Vurğunun "Deyilən söz yadigardı" müdrik kəlamını gözləriniz önünə gətirin, qəlbinizə işıq saçsın, nur ələsin. Nə yaxşı, nə gözəl, nə heyrətamiz kəlamdı, İlahi! Deyin ki, dama-dama göl olar. Çeşmələr qaynar, çaylar çağlar, ümman yaranar. Onsuz da müdrik kəlamlarımız ümmandı, bir ayrı düınyadı. Hər könüldə də bir aslan yatar, müdrik kəlamlar yuvalanar, qərar tutar. Deyin gəlsin, söyləyin, qələmə alın, oxuyaq, ibrətamizlik çələngi hörək. Görək götürək, öyrənək, öyrədək. Müdrik kəlamlar xəzinəmiz bitməz-

tükənməz olsun, çoxalsın. Mənən zəngin olan xalqımız daha da zənginləşsin.

Narahatam, nigaranam. Bir qədər də həyəcanlı. Görən Sizlər yadigarımı necə qarşılayacaq, necə qəbul edəcəksiniz? Necə deyərlər, gözüm yolda, qulağım səsdə...

Mündəricat

Hikmətli, heyrətli 3
Anamızdı, vətəndi 18
Ailə harda, həyat orda 36
İnsan yer üzünün əşrəfidi 54
Həyat mənən zənginlərindir 63
Dinimiz, imanımız, inamımız 74
Dünya, zaman, məkan 77
Tale, qismət 81
Həyat, ölüm 83
Sevincli, kədərli dünya 91
Gözəl və gözəllik 95
Əzəli, əbədi məhəbbət 99
Dost hara, düşmən hara 110
Tarixdi, cəmiyyətdi 114
Nəsihət, vəsiyyət 116
Müdriklik qalar bu dünyada 127
Ağıl, zəka olan yerdə 130

Sözümüz, söhbətimiz 132
Haqq, ədalət olan yerdə 136
Həqiqət acı olduğu qədər də şirindir..... 138
Təhsilin davamı elmdir 140
İşinlə, əməlinlə..... 142
Aqil, cahil..... 154
Mərd mərddir, namərd namərd 161
Tərbiyə, əxlaq 169
Doğru da var, əyri də 174
Halal, haram..... 176
Günah, savab..... 178
Təbiətin tacı 180
Varlı hara, kasıb hara 181
Xeyr-dua 184